**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ**

**MİNGƏÇEVİR TURİZM KOLLECİ**

**PUBLİK HÜQUQİ ŞƏXSİ**

# 2021-2025-Cİ İLLƏRİ ƏHATƏ EDƏN STRATEJİ İNKİŞAF PLANININ HESABATI

**Mingəçevir 2026**

**Mündəricat**


Giriş.......................................................................................................................3

Hədəf 1.1 *Kollecdə ixtisasların əmək bazarının tələblərinə uyğunlaşdırılması.............13*

Hədəf 1.2 *Yeni ixtisas standartlarına uyğun tədris planlarının və digər tədris metodiki vəsaitlərin hazırlanması...........................................................................................14*

Hədəf 1.3 *Pedaqoji heyətin potensialının inkişaf etdirilməsi........................................21*

Hədəf 1.4. *Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) ilə əməkdaşlıq etməklə tədrisin keyfiyyətinin artırılması......................................................................30*

Hədəf 1.5 *Kollecə ikilidiplom proqramının cəlb edilməsi..............................................31*

Hədəf 2.1 *Kollecin mövcud binasının infrastrukturunun yaxşılaşdırılması...................32*

Hədəf 2.2 *Kollecdə müasir tələblərə cavab verən kitabxananın yaradılması................34*

Hədəf 2.3 *Kollecdə laboratoriyaların, o cümlədən, dil və resurs mərkəzlərin yaradılması.............................................................................................................36*

Hədəf 3.*1 Pedaqoji və inzibati heyətin inkişafının dəstəklənməsi və təşviq edilməsi....38*

Hədəf 3.2 *Pedaqoji və inzibati heyətin optimallaşdırılması...........................................41*

Hədəf 3.3 *Kollecin idarəetməsində təmsilçi yanaşmanın inkişaf etdirilməsi.................42*

Hədəf 3.4 *“Tədrisdədə keyfiyyətin təminatı şöbəsi”nin yaradılması..............................43*

Hədəf 4.1 *Yeni Loqo, Sloqan və MMV-nin hazırlanması..............................................51*

Hədəf 4.2 *Kollecin rəsmi saytının hazırlanması...........................................................53*

Hədəf 4.3 *İctimaiyyətlə əlaqə və mətbuat şöbəsinin yaradılması..................................54*

Hədəf 5.1 *Kollecin struktur bölmələrinin hüquqi bazasının gücləndirilməsi...................55*

Hədəf 6.1 *Tələbə, müəllim və adi vətəndaşlar üçün ödənişli xidmətlərin yaradılması...60*

Hədəf 6.2*Təhsilin inkişafı naminə layihələrdən vəsaitlərin və ianələrin əldə olunmas...61*

Hədəf 6.3 *Tələbələrin illik təhsil haqlarının artırılması..................................................62*

Hədəf 7.1 *Karyera və inkişaf mərkəzinin fəaliyyətə başlaması.....................................63*

*Strateji İnkişaf Planının Monitorinqi.............................................................................65*

# Giriş

Müasir dövrdə turizm sektoru həm qlobal, həm də regional iqtisadiyyatın dinamik inkişaf edən aparıcı sahələrindən biri kimi çıxış edir. Bu sahənin davamlı inkişafı üçün əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı kadrların hazırlanması xüsusi aktuallıq kəsb edir. Turizm təhsili yalnız nəzəri biliklərin deyil, eyni zamanda praktiki bacarıqların formalaşdırılması baxımından strateji əhəmiyyətə malikdir. Bu çərçivədə Mingəçevir Turizm Kolleci ölkənin turizm sənayesi üçün rəqabətədavamlı və peşəkar mütəxəssislərin hazırlanmasına yönəlmiş fəaliyyətini genişləndirərək, həm də iqtisadiyyatın digər sahələri Maliyyə işi, Mühasibat uçotu, Nəqliyyatın logistikası, Muzey işi və abidələrin qorunması üzrə ixtisaslaşmanı da prioritet istiqamətlərdən biri kimi müəyyən etmişdir.

Strateji inkişaf planı Mingəçevir Turizm Kollecinin mövcud potensialına əsaslanaraq təhsil keyfiyyətinin yüksəldilməsi, idarəetmə və infrastrukturun təkmilləşdirilməsi, maliyyə dayanıqlığının və institusional inkişafın təmin olunması yolu ilə müasir, çevik və davamlı təhsil mühitinin formalaşdırılmasına yönəlmiş strateji yol xəritəsidir.

Strateji planın hazırlanması zamanı Təhsil müəssisəsinin fəaliyyəti dərin təhlilə məruz qalmış, GZİT (Güclü və Zəif Tərəflər, İmkanlar və Təhdidlər) analizi əsasında inkişaf sahələri və təkmilləşdirilməsi vacib istiqamətlər müəyyən edilmiş və bu istiqamətlər üzrə görülmüş işlər hesabatda öz əksini tapmışdır.

Mingəçevir Turizm Kolleci, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 fevral 2006-cı il tarixli 45 saylı Qərarı, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 101 nömrəli 10 aprel 2006-cı il tarixli əmri ilə Mingəçevir şəhərində Bakı Bədən Tərbiyəsi və Turizm Kollecinin Mingəçevir şöbəsinin bazasında yaradılmışdır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 09 iyun 2006-cı il tarixli 1106 A2 447 nömrəli şəhadətnaməsi ilə dövlət qeydiyyatına alınaraq fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 iyun 2018-ci il tarixli 255 nömrəli Qərarına əsasən Mingəçevir Turizm Kolleci Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyinə verilmiş təşkilatların sırasına aid edilmişdir. “Publik hüquqi şəxslər haqqında Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 2.5.2-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 iyun 2021-ci il tarixli Qərarı ilə Mingəçevir Turizm Kollecinə "publik hüquqi şəxs" statusu verilmişdir.

Mingəçevir Turizm Kolleci 2006-cı ildə təsis olunmuş və 2019-cu ilədək fəaliyyətini Mingəçevir şəhəri, Samux küçəsi 7 ünvanında, San-Marino Beynəlxalq Elmlər Akademiyasının Mingəçevir filialının binasında və əlavə edilmiş köməkçi tədris korpusunda davam etdirmişdir. Lakin bu müddət ərzində mövcud infrastruktur "Orta ixtisas təhsili müəssisələrinin maddi-texniki təchizat, kadr potensialı və strukturuna qoyulan minimum normalar"ı tam şəkildə ödəmədiyindən, tədris şəraitinin keyfiyyətinin artırılması zərurəti yaranmışdır.

Bu səbəbdən, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin təşəbbüsü və Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Əmlak Məsələləri Dövlət Komitəsinin razılığı əsasında, 2019-cu ilin oktyabr ayında kollecin fəaliyyəti Mingəçevir şəhəri, 20 Yanvar küçəsi 12 ünvanında yerləşən sabiq “İstək” liseyinin binasına köçürülmüşdür. Bu binada aparılmış ilkin təmir və təmizlik işlərindən sonra, 2020-ci il fevral ayının 10-dan etibarən tədris prosesi yenidən təşkil olunmuşdur. Yeni tədris binasının ümumi sahəsi 4937 $m^2$ təşkil edir ki, bu da kollecin təhsil imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir.

2006–2020-ci illər ərzində Mingəçevir Turizm Kollecində 17 ixtisas üzrə 7508 nəfər tələbə, ümumilikdə isə kollecin fəaliyyət göstərdiyi dövr ərzində 9993 nəfər tələbə məzun olmuşdur.

2006-2020-ci illər ərzində ixtisaslar üzrə mütəxəssis hazırlığı cədvəl -1 də göstərilmişdir:

**Cədvəl №1**

| № | İxtisas | Qrup | Təhsil müddəti |
|---|---|---|---|
| **1** | Turist, mehmanxana təsərrüfatının təşkili və idarə olunması | TMT | 3 il |
| **2** | Mehmanxana, turist-sanatoriya və kurort komplekslərində iaşə və servis | MTİS | 4 il |
| **3** | Nəqliyyatda daşımaların təşkili | NT | 4 il |
| **4** | Muzey işi və abidələrin mühafizəsi | MUİ | 3 il |
| **5** | Turizm və onun təşkili | TT | 3 il |
| **6** | Turizm iqtisadiyyatı | Tİ | 3 il |
| **7** | Mühasibat uçotu | İ | 3 il |
| **8** | Bələdçilik işi | Bİ | 3 il |
| **9** | Rekreasiya, idman və sağlamlıq turizmi | RİST | 3 il |
| **10** | Bədən tərbiyəsi və idman | BT | 3 il |
| **11** | Reklam işi | Rİ | 3 il |
| **12** | Dizayn | D | 4 il |
| **13** | Dekorativ tətbiqi incəsənət və xalq sənəti | DTİS | 4 il |
| **14** | Turist və sanatoriya-kurort komplekslərində tibbi xidmətin təşkili | TXT | 3 il |
| **15** | İbtidai sinif müəllimliyi | M | 4 il |
| **16** | Məktəbəqədər təlim və tərbiyə | MT | 4 il |
| **17** | İngilis dili | F | 4 il |

2021-2025-ci tədris illəri çərçivəsində kollecin tədris və idarəetmə mühitinin müasirləşdirilməsi məqsədilə bir sıra yenidənqurma və modernləşdirmə tədbirləri həyata keçirilmişdir. Bu tədbirlər çərçivəsində kitabxana, iclas otaqları və müxtəlif laboratoriya məkanlarında təmir işləri aparılmış, onların funksionallığı artırılmış və infrastruktur səviyyəsi müasir təhsil standartlarına uyğunlaşdırılmışdır. Eyni zamanda, sinif otaqları proyektorlarla təmin edilmiş, müasir dərs ləvazimatları və yeni inventarlarla təchiz olunaraq tələbələr üçün rahat və keyfiyyətli öyrənmə mühiti yaradılmışdır.

Dövlət Turizm Agentliyinin dəstəyi ilə təhsil infrastrukturunun yenilənməsi istiqamətində həyata keçirilmiş digər mühüm tədbirlərə “Asudə vaxt otağı”, “Turizm laboratoriyası” və “İnformasiya-kommunikasiya texnologiyaları laboratoriyası”nın yaradılması və istifadəyə verilməsi daxildir.

Mingəçevir Turizm Kolleci öz fəaliyyətini Azərbaycan Respublikasının qüvvədə olan hüquqi-normativ aktları və aidiyyəti dövlət sənədləri çərçivəsində həyata keçirir. Təhsil prosesinin təşkili forma və məzmun baxımından müəssisənin nizamnaməsinə əsasən qurulur.

Mövcud struktur çərçivəsində kollecdə tədris və təsərrüfat şöbələri, eləcə də inzibati-idarəetmə heyəti əsas təşkilati bölmələr kimi fəaliyyət göstərir. Son dövrlərdə bu struktur genişləndirilmiş, işçi heyətin sayı artırılmış və bir sıra əməkdaşlar peşəkar inkişafın təmin edilməsi məqsədilə təkmilləşdirmə təlimlərinə cəlb olunmuşdur. Həmin təlimlərə əməyin mühafizəsi, kompüter bacarıqlarının təkmilləşdirilməsi, karyera və kommunikasiya

bacarıqlarının inkişafı, xarici dil biliklərinin artırılması, habelə tədrisdə keyfiyyət təminatı sahələrini əhatə edir.

Strukturun təkmilləşdirilməsi istiqamətində atılmış mühüm addımlardan biri 05.01.2022-ci il tarixində Təhsildə Keyfiyyət Təminatı Agentliyi ilə Mingəçevir Turizm Kolleci arasında bağlanmış 16.02.2022-ci il tarixli, 26 nömrəli “Təlim və metodoloji dəstək xidmətlərinin göstərilməsi haqqında” əməkdaşlıq müqaviləsi əsasında “Tədrisdə Keyfiyyətin Təminatı” adlı yeni struktur bölməsinin təsis edilməsi olmuşdur. Sözügedən şöbə kollecdə tədris prosesinin sistemli monitorinqinin aparılması, nəticələrin təhlili, keyfiyyət göstəricilərinin qiymətləndirilməsi və tədrisin davamlı inkişafının təmin edilməsi istiqamətində fəaliyyət göstərir. Şöbə tərəfindən tədris prosesinin normativ sənədlərə uyğunluğuna nəzarət edilir, təkmilləşdirmə üzrə təkliflər hazırlanır və aidiyyəti struktur bölmələri ilə əlaqəli şəkildə icrası təmin olunur.

Tədrisin elmi-metodik əsaslarla daha sistemli planlaşdırılmasını təmin etmək məqsədilə fənn komissiyalarının fəaliyyət prinsipləri yenidən qurulmuş, onlar dörd əsas Fənn Birliyi Komissiyası çərçivəsində birləşdirilmişdir.

Eyni zamanda, inzibati idarəetmə resurslarının gücləndirilməsi məqsədilə struktur vahidlərinin artırılması həyata keçirilmişdir ki, bu da idarəetmənin səmərəliliyinə və qərarların operativliyinə müsbət təsir göstərmişdir. Sosial fəaliyyətlərin və tələbə intizamının effektiv idarə olunması məqsədilə məsul vəzifəli şəxsin təyin edilməsi zərurəti meydana çıxmışdır. Hazırda “Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə direktor müavini” vəzifəsi vakant olduğundan, bu vəzifənin funksiyaları müvəqqəti olaraq tədris işləri üzrə direktor müavininin nəzarəti altında icra olunmaqdadır.

2021-2025-ci illər ərzində həyata keçirilmiş qəbul proseslərinin təhlili göstərir ki, son illər ərzində təhsil formaları üzrə müəyyən dəyişikliklər baş vermişdir. Belə ki, 2020-2021-ci tədris ilindən etibarən bütün ixtisaslar üzrə qiyabi təhsil formasına tələbə qəbulu tamamilə dayandırılmışdır. Lakin 2023-cü ildə mövcud ehtiyaclar nəzərə alınmaqla “Maliyyə işi”, “Mühasibat uçotu”, “Nəqliyyatın logistikası” və “Turizm işinin təşkili” ixtisasları üzrə qiyabi təhsil forması bərpa edilmişdir. 2024-cü ildə isə əlavə olaraq “Mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi” ixtisası üzrə qiyabi təhsil formasında tələbə qəbulu həyata keçirilmişdir. Bununla belə, Elm və Təhsil Nazirliyinin qəbul etdiyi yeni qərarlara əsasən, qiyabi təhsil forması üzrə qəbul yenidən dayandırılmışdır.

2021-2025-ci tədris ili ərzində 10 ixtisas üzrə tələbə qəbulu göstəriciləri cədvəl 2-də əks olunmuşdur.

**Cədvəl -2**

| № | İxtisaslar | 2021/2022 | | 2022/2023 | | 2023/2024 | | | 2024/2025 | | | 2025/2026 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Ümumi orta | Tam orta | Ümumi orta | Tam orta | Ümumi orta | Tam orta | | Ümumi orta | Tam orta | | Ümumi orta | Tam orta |
| | | əyani | əyani | əyani | əyani | əyani | əyani | qiyabi | əyani | əyani | qiyabi | əyani | əyani |
| 1 | Muzey işi və abidələrin qorunması | 13 | 12 | - | 25 | - | 24 | | - | 24 | | - | 22 |
| 2 | Mühasibat uçotu | 18 | 21 | 24 | 35 | 29 | 29 | 10 | 30 | 30 | | 20 | 29 |
| 3 | Nəqliyyatın logistikası | 30 | 30 | 25 | 32 | 30 | 30 | 10 | 30 | 30 | | 20 | 29 |
| 4 | İaşə müəssisələrinin servisi | 32 | 41 | 24 | 25 | 26 | 28 | | 29 | 25 | | 19 | 29 |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 5 | Mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi | 44 | 52 | 30 | 32 | 29 | 26 | | 29 | 23 | 19 | 17 | 26 |
| 6 | Rekreasiya, idman və sağlamlıq turizmi | 39 | 34 | 21 | 22 | 26 | 27 | | 29 | 24 | | 18 | 28 |
| 7 | Turizm bələdçiliyi | 28 | 30 | 25 | 16 | 30 | 26 | | 29 | 25 | | 20 | 29 |
| 8 | Turizm işinin təşkili | 34 | 58 | 30 | 40 | 27 | 30 | 9 | 30 | 46 | | 19 | 28 |
| 9 | Maliyyə işi | - | - | 24 | 23 | 28 | 29 | 10 | 30 | 49 | | 20 | 29 |
| 10 | Aqroturizm | - | - | - | 23 | 29 | 25 | | 30 | 24 | | 20 | 29 |
| | CƏM: | **238** | **278** | **203** | **273** | **253** | **274** | **39** | **266** | **300** | **19** | **173** | **279** |

2021-2025- ci tədris ili ərzində əyani və qiyabi təhsil üzrə tələbə qəbulu dinamikası cədvəl 3-də göstərilmişdir.

**Cədvəl 3**




Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə qaydası"nın təsdiq edilməsi haqqında 30.12.2023-cü il 489 saylı qərarına əsasən, Mingəçevir Turizm Kollecinin buraxılış qrup tələbələri cədvəl 4-də qeyd olunan müəssisələrdə istehsalat təcrübəsi keçirlər.

Tədris planlarının əsas istiqamətlərindən biri istehsalat təcrübəsinin təşkili və həyata keçirilməsidir. Belə ki, buraxılış qruplarında təhsil prosesi istehsalat təcrübəsinin müdafiəsi ilə yekunlaşdırılır. 2020-ci ilə qədər bəzi ixtisaslar üzrə buraxılış prosesinin əsas tərkib hissəsi kimi 2 ixtisas fənnindən dövlət imtahanlarının keçirilməsi nəzərdə tutulmuşdursa, 2021-ci ildən etibarən yeni qaydalara uyğun olaraq bütün ixtisaslarda buraxılış mərhələsi yalnız istehsalat təcrübəsinin müdafiəsi əsasında tamamlanır. Təcrübə Qiymətləndirmə Komissiyasının müvafiq qərarı və kollecin direktorunun əmri əsasında məzunlara ixtisaslarına uyğun olaraq subbakalavr ixtisas dərəcəsi verilir, onlara dövlət nümunəli diplom və diploma əlavə təqdim olunur.

**Cədvəl-4**

| S/s | Müəssisənin adıTəcrübə | İxtisas adı |
|---|---|---|
| 1 | Mingəçevir Şəhər "Kür Olimpiya Tədris-İdman Mərkəzi" | Turizm işinin təşkili<br>Rekreasiya, idman və sağlamlıq turizmi |
| 2 | Mingəçevir Şəhər "River Side" oteli | İaşə müəssiələrinin servisi<br>Turizm işinin təşkili |
| 3 | Şəki şəhər "Bio Garden" Aqro Ekoturizm məkanı | Aqroturizm<br>Turizm bələdçiyi |
| 4 | Mingəçevir Şəhər "Mərkəzi Aran Regional Mədəniyyət İdarəsi Mingəçevir şəhər Tarix muzeyi" | Turizm bələdçiliyi<br>Muzey işi və abidələrin qorunması |
| 5 | Mingəçevir Şəhər "Htech invest" MMC | Nəqliyyatın logistikası<br>Mühasibat uçotu |
| 6 | Mingəçevir Şəhər "DEKA şirkəti Cənnət bağı" şirkətlər qrupu Ağsaray oteli | Mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi |
| 7 | Mingəçevir Şəhər "Mingəçevir Gənclər evi" Sosial Xidmət Müəssisəsi | Maliyyə işi |
| 8 | Naftalan şəhər "Yeni Naftalan Hotel Company" MMC | Turizm bələdçiyi<br>Rekreasiya, idman və sağlamlıq turizmi |
| 9 | Naftalan şəhər "Yeni Çinar Hotel Company" MMC | Turizm bələdçiyi<br>Rekreasiya, idman və sağlamlıq turizmi |
| 10 | Türkiyə Respublikası (JOB İN GLOBAL MMC) "Kremlin Palace Antalya" | Turizm işinin təşkili<br>Mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi<br>İaşə müəssisələrinin servisi |
| 11 | Türkiyə Respublikası (JOB İN GLOBAL MMC) "Club Hotel Phaselis Rose" | Turizm işinin təşkili<br>Mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi<br>İaşə müəssisələrinin servisi |
| 12 | Türkiyə Respublikası (JOB İN GLOBAL MMC) "Von Resort Hotel" | Turizm işinin təşkili<br>Mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi<br>İaşə müəssisələrinin servisi |
| 13 | Türkiyə Respublikası (JOB İN GLOBAL MMC) "Rixos Sungate Hotel" | Turizm işinin təşkili<br>İaşə müəssisələrinin servisi<br>Mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi |

Mingəçevir Turizm Kollecindən 2021-2025-ci illər üzrə 400 nəfərədək məzun subbakalavr dərəcəsindən bakalavriata qəbul olmuşlar. Hazırda Kollecdə 1305 tələbə təhsil alır.

MTK-nın mövcud bütün strukturlarının direktorun əmri ilə təsdiq olunmuş Əsasnamələri, vəzifə təlimatları və illik iş planları mövcuddur. Əsasnamələrdə şöbələrin əsas vəzifələri, idarəetmənin strukturu və təşkili, funksiyaları, hüquqları və şöbə əməkdaşlarının rəsmi təlimatları əks olunur. Şöbələrin iş planlarında isə strateji inkişaf planına və şöbənin Əsasnaməsinə uyğun olaraq il ərzində yerinə yetirilməli olan bütün işlər və icra müddətləri öz əksini tapmışdır.

https://mtk.az/wp-content/uploads/2025/02/MTK.Insan-resurslari-sob%C9%99si-haqqinda-ESASNAME.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/Insan-resuslarinin-idar%C9%99olunmasi-sob%C9%99sinin-2024-2025-ci-t%C9%99dris-ili-ucun-IS-PLANI.pdf

Kollecin rəsmi saytında bütün struktur bölmələri haqqında məlumatlar yerləşdirilmişdir. ([www.mtk.az](http://www.mtk.az)).

Strateji inkişaf planında nəzərdə tutulan struktur aşağıda göstərilmişdir; lakin yeni yaradılan şöbələrdəki dəyişikliklərə görə, 2023-cü ildə struktur yenidən tərtib olunmuş və əmrləşdirilmişdir.

**Struktur-1**




Strukturlarda baş vermiş dəyişikliklər səbəbindən, 05.03.2025-ci il tarixində yenidən təsdiq olunmuşdur. Bu struktura əsasən, MTK-da idarəedici orqan Pedaqoji Şura, pedaqoji-müəllim heyətinə isə Fənn Birliyi rəhbərlik edir.

[https://mtk.az/wp-content/uploads/2025/02/Ming%C9%99cevir-Turizm-Kolleci-Publik-Huquqi-S%C9%99xsin-STRUKTUR-SXEMI.pdf](https://mtk.az/wp-content/uploads/2025/02/Ming%C9%99cevir-Turizm-Kolleci-Publik-Huquqi-S%C9%99xsin-STRUKTUR-SXEMI.pdf)

**Struktur-2**




Pedaqoji Şuranın üzvlərinin sayı 88 nəfərdən ibarətdir və Şuranın illik fəaliyyət planı mövcudur. Pedaqoji Şuranın iş planı hər tədris ilinin ilk Pedaqoji Şura iclasında təsdiq edilir. İş planı Pedaqoji Şuranın Əsasnaməsində müəyyən edilmiş vəzifələrə uyğun olaraq tərtib edilir və aylar üzrə məsələlərin müzakirəsini əks etdirir.
https://mtk.az/wp-content/uploads/2025/02/PEDAQOJI-SURANIN-KECIRILMESI-HAQQINDA-QAYDALAR-1.pdf

2021–2026-cı illər üzrə əməkdaşların sayı dinamikası **Cədvəl-5**



2021–2025-cı illər üzrə Ştat və Ştatdankənar işçilərin sayı

**Cədvəl-6**

| AY / İL | 2021 | | 2022 | | 2023 | | 2024 | | 2025 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Ştat üzrə | Ştatdan kənar | Ştat üzrə | Ştatdan kənar | Ştat üzrə | Ştatdan kənar | Ştat üzrə | Ştatdan kənar | Ştat üzrə | Ştatdan kənar |
| Yanvar | 16 | 28 | 20 | 34 | 22 | 34 | 25 | 25 | 25 | 28 |
| Fevral | 16 | 28 | 22 | 35 | 22 | 34 | 25 | 25 | 26 | 28 |
| Mart | 16 | 28 | 21 | 35 | 21 | 34 | 25 | 25 | 26 | 28 |
| Aprel | 16 | 32 | 21 | 35 | 21 | 33 | 25 | 25 | 26 | 29 |
| May | 16 | 28 | 21 | 31 | 21 | 33 | 25 | 25 | 26 | 28 |
| İyun | 16 | 29 | 21 | 30 | 21 | 33 | 25 | 25 | 26 | 28 |
| İyul | 16 | 20 | 21 | 30 | 21 | 30 | 25 | 25 | 26 | 28 |
| Avqust | 17 | 26 | 21 | 30 | 21 | 30 | 24 | 25 | 26 | 27 |
| Sentyabr | 19 | 28 | 20 | 32 | 21 | 29 | 24 | 27 | 25 | 30 |
| Oktyabr | 21 | 27 | 20 | 32 | 21 | 25 | 24 | 27 | 25 | 29 |
| Noyabr | 21 | 31 | 19 | 34 | 21 | 25 | 24 | 28 | 25 | 28 |
| Dekabr | 21 | 32 | 20 | 34 | 22 | 25 | 25 | 28 | 25 | 28 |

2025/2026-cı tədris ilində İşci sayı cədvəl 7-də qeyd edildiyi kimi formalaşdırılmışdır.

**Cədvəl-7**

| № | Pedaqoji və İnzibati heyət | Qadın | | Kişi | | Ümumi sayı | Magistr sayı |
|---|---|---|---|---|---|---|---|
| 1 | “Sosial, iqtisadi və texniki” fənn birləşmə komissiyası | 13 | 61.9% | 8 | 38.1% | 21 | 1 |
| 2 | “Ümumtəhsil” fənn birləşmə komissiyası | 22 | 75.8% | 7 | 24.2% | 29 | 9 |
| 3 | “Turizm” fənn komissiyası | 4 | 28.5% | 10 | 71.5% | 14 | 4 |
| 4 | “Xarici dillər” fənn birliyi komissiyası | 12 | 100% | 0 | 0 % | 12 | 0 |
| 5 | Rəhbər inzibati heyət | 32 | 78% | 9 | 22% | 41 | 9 |
| 6 | Texniki heyət | 6 | 54.5% | 5 | 45.5% | 11 | |
| 7 | Ümumi işçi sayı | 89 | 69.5% | 39 | 30.5% | 128 | 23 |

Mingəçevir Turizm Kollecinin infrastrukturu ətraflı şəkildə cədvəl 8-də göstərilmişdir.

**Cədvəl-8**

| № | Bina və qurğular | Mərtəbəliyi | Sahələr($m^2$) | | H/m | Ümumi sahəsi ($m^2$) | Əsas sahəsi($m^2$) | Köməkçi sahəsi($m^2$) |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Əsas | Digər | | | | |
| 1. | Tədris korpusu | 3 | 1194.2 | 28.6 | 10.5 | 4056.9 | 1889.4 | 2167.5 |
| 2. | Gözətçi binası | 1 | 8.6 | - | 2.9 | 6.2 | 6.2 | - |
| 3. | Sanitar qovşağı | 1 | 73.7 | - | 3.3 | 61.3 | | 61.3 |
| 4. | Qazanxana binası | 1 | 86.4 | - | 4.6 | 74.5 | 34.2 | 39.6 |
| 5. | Yeməkxana binası | 1 | 454.5 | - | 4.3 | 417.2 | 270.9 | 146.3 |
| 6. | Yeməkxana binası | 1 | 72.3 | - | 3.5 | 64.3 | 57.1 | 7.2 |
| 7. | Kafe binasi | 1 | 55.4 | - | 2.9 | 51.4 | 47.1 | 4.3 |
| 8. | Anbar binası | 1 | 4.8 | - | 2.6 | 3.7 | | 3.7 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **M** | Çörək sexi binası | 1 | 55.5 | - | 2.9 | 48.0 | 48.0 | - |
| **N** | Söhbətgah binası | 1 | 20.1 | - | 3.4 | 17.4 | 17.4 | - |
| **P** | Nəzarətçi binası | 1 | 28.1 | - | 2.8 | 23.7 | 23.7 | - |
| **I** | Talvar | 1 | 13.8 | - | 2.6 | 13.4 | - | 13.4 |
| **II** | Talvar | 1 | 18.3 | - | 2.9 | 18.3 | - | 18.3 |
| **III** | Talvar | 1 | 10.1 | - | 3.2 | 10.1 | - | 10.1 |
| **IV** | Talvar | 1 | 70.8 | - | 2.8 | 70.6 | - | 70.8 |
| **V** | Hasar l=442.8,b=2.2m | - | 88.6 | - | - | - | - | - |
| **Ümumi tikinti sahəsi=2283.8($m^2$)** | | 2166.6 | 117.2 | | | 4937.2 | 2394.7 | 2542.5 |
| **Asfalt örtüklü sahə** | | 2495.4 | | | | | | |
| **Yaşıllıq sahəsi** | | 6858.8 | | | | | | |
| **Ərazinin ümumi sahəsi** | | 11648.0 | | | | | | |

MTK-da təlim-tədris prosesi 3 mərtəbəli əsas tədris binasında, həmçinin müvafiq müqavilələr əsasında sənaye müəssisələrində həyata keçirilir. Ümumilikdə auditoriya fondu üçün ayrılmış sahə 872 $m^2$ təşkil edir və 30 sinif otağından ibarətdir.

Mərtəbələr üzrə auditoriya fondunun bölgüsü aşağıdakı kimidir:

- I mərtəbədə ümumi sahəsi 225,8 $m^2$ olan 7 sinif otağı,
- II mərtəbə üçün 205,7 $m^2$ olan 8 sinif otağı,
- III mərtəbə üçün isə 440,5 $m^2$ olan 15 sinif otağı mövcuddur.

Fiziki mühitin normativ tələblərə uyğunluğunun təhlili nəticəsində müəyyən edilmişdir ki, kollecdə tədris prosesinin daha səmərəli təşkili məqsədilə auditoriya fondunun təşkilində təkmilləşdirmə tədbirlərinə ehtiyac vardır. Mövcud çətinliklərin aradan qaldırılması məqsədilə MTK-da dərslər növbəli qaydada (iki növbə) təşkil olunur. Həmçinin, qiyabi təhsilanların tədris günləri əyani təhsil alanların imtahan sessiyası ərəfəsinə salınmaqla auditoriya fondundan daha səmərəli istifadə edilir.

Təhsil müəssisəsi bir əsas, üç mərtəbəli tədris binasından ibarətdir və mərtəbələr üzrə kabinetlərin sayı cədvəl 9-da əks etdirilmişdir.

**Cədvəl-9**

| № | Otaq № | Otaqların təyinatı | Otaqların sahəsi($m^2$) |
|---|---|---|---|
| | | 1-ci mərtəbə | |
| **1** | 101 | Direktor | 42 |
| **2** | 102 | Server otağı | 16,8 |
| **3** | 103 | Qəbul otağı | 16.2 |
| **4** | 104 | Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə direktor müavini | 22.1 |
| **5** | 105 | Tədris işləri üzrə direktor müavini | 33 |
| **6** | 106 | Dəftərxana | 33 |
| **7** | 109 | Asudə vaxt otağı | 23,6 |
| **8** | 110 | Tibb otağı | 16.2 |
| **9** | 111 | Kitabxana | 48.9 |
| **10** | 112 | Təsərrüfat müdiri | 16,2 |

| | | | |
|---|---|---|---|
| 11 | 113 | Sinif otağı | 33 |
| 12 | 114 | Sinif otağı | 32,4 |
| 13 | 115 | Sinif otağı | 31,6 |
| 14 | 116 | Sinif otağı | 31,2 |
| 15 | 117 | İnformasiya texnologiya laboratoriyası №3 | 30 |
| 16 | 118 | Sinif otağı | 31,2 |
| 17 | 119 | Sosial-iqtisadi və texniki FBK | 49,2 |
| 18 | 120 | Psixoloq | 16,2 |
| 19 | 121 | Fizika və kimya-biologiya laboratoriyası | 63,6 |
| 20 | 124 | Dəftərxana ləvazimatları anbarı | 10,3 |
| 21 | 125 | Sinif otağı | 23,6 |
| 22 | 130 | Sinif otağı | 42,8 |
| 2-ci mərtəbə | | | |
| 1 | 201/1 | İnzibati boş otaq | 18,2 |
| 2 | 201/2 | Mülki Müdafiə qərargahının rəisi | 19,5 |
| 3 | 201/3 | Arxiv | 64,2 |
| 4 | 201/4 | Hüquqşünas | 16,2 |
| 5 | 202 | İnsan resurslarının idarə olunması şöbəsi | 31,2 |
| 6 | 203 | Sinif otağı | 15,3 |
| 7 | 204 | Mühasibatlıq | 30,6 |
| 8 | 205 | Sinif otağı | 31,5 |
| 9 | 206 | Sinif otağı | 31,2 |
| 10 | 207 | Sinif otağı | 21,6 |
| 11 | 208 | Sinif otağı | 32,1 |
| 12 | 209 | Sinif otağı | 36 |
| 13 | 210 | İnformasiya texnologiya laboratoriyası №2 | 21,5 |
| 14 | 211 | Konfrans zalı | 76,5 |
| 15 | 212 | İnformasiya texnologiya laboratoriyası №1 | 56,6 |
| 16 | 221 | Tədrisdə keyfiyyətin təminatı şöbəsi | 31,8 |
| 17 | 222 | Tələbə Gənclər Təşkilatı | 16,5 |
| 18 | 223 | Tədris şöbəsi | 48,9 |
| 19 | 224 | Sinif otağı | 18,5 |
| 20 | 225 | Ümumtəhsil FBK | 48,9 |
| 21 | 227 | Akademik məsləhətçilər | 18,2 |
| 22 | 228 | Akademik məsləhətçilər | 16,2 |
| 3-cü mərtəbə | | | |
| 1 | 302 | Turizm FBK | 30,6 |
| 2 | 303 | Sinif otağı | 33 |
| 3 | 304 | Sinif otağı | 31,6 |
| 4 | 305 | Sinif otağı | 16,2 |
| 5 | 306 | İclas otağı | 48,9 |
| 6 | 307 | Texniki ləvazimatlar anbarı | 16,2 |
| 7 | 308 | Sinif otağı | 49,2 |
| 8 | 309 | Həmkarlar ittifaqı | 16,6 |
| 9 | 311 | Sinif otağı | 16,8 |
| 10 | 312 | Sinif otağı | 24 |

| | | | |
|---|---|---|---|
| 11 | 313 | Sinif otağı | 36 |
| 12 | 314 | Sinif otağı | 21,8 |
| 13 | 315 | Sinif otağı | 36,6 |
| 14 | 316 | Sinif otağı | 24,6 |
| 15 | 317 | Sinif otağı | 36 |
| 16 | 318 | Təsərrüfat otağı | 10,4 |
| 17 | 319 | Sinif otağı | 22,2 |
| 18 | 322 | Sinif otağı | 30,6 |
| 19 | 323 | Sinif otağı | 48,9 |
| 20 | 323/1 | Texniki təmir otağı | 16,2 |
| 21 | 324 | Turizm laboratoriyası | 46,8 |
| 22 | 326 | Xarici dillər FBK | 17,6 |
| 23 | 327 | Sinif otağı | 16,7 |

Kollecin 2021-2025-ci illəri əhatə edən Strateji İnkişaf Planında 2025-ci ilə qədər reallaşdırılması planlanmış 7 məqsəd, 20 hədəf, 60 fəaliyyət yer alır. Bu illər ərzində görülən işlərin Hədəflər üzrə Hesabatı aşağıda qeyd olunmuşdur.

| **Strateji sahə 1.** | **Kollecdə tədrisin keyfiyyətinin yaxşılaşdırılması** |
|---|---|
| Hədəf 1.1 | Kollecdə ixtisasların əmək bazarının tələblərinə uyğunlaşdırılması |

2021-ci ildə orta ixtisas təhsili üzrə yeni ixtisasların təsnifat standartlarının hazırlanması və tətbiqi məqsədilə Təhsil Nazirliyi tərəfindən xüsusi İşçi Qrupu yaradılmışdır. Sözügedən İşçi Qrupu təhsil siyasətinin prioritetlərini, əmək bazarının mövcud və perspektiv tələblərini, eləcə də beynəlxalq təcrübəni nəzərə almaqla ixtisasların yenilənməsi və sistemləşdirilməsi istiqamətində fəaliyyət göstərmişdir. İşçi Qrupunun tərkibinə Nazirliyin müvafiq struktur bölmələrinin nümayəndələri, ali və orta ixtisas təhsili müəssisələrinin elmi-pedaqoji heyəti, sahə üzrə mütəxəssislər və ekspertlər cəlb edilmişdir. Həmin İşçi Qrupunun tərkibində Mingəçevir Turizm Kollecinin direktoru Kamal Əhmədov turizm sahələri üzrə ixtisasların sistemləşdirilməsi prosesində fəal iştirak etmişdir.

İşçi Qrupunun əsas fəaliyyət istiqamətləri mövcud ixtisas təsnifatının təhlili, yeni ixtisas standartlarının hazırlanması, kompetensiya əsaslı yanaşmanın tətbiqi, ixtisaslar üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və təhsil proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması olmuşdur. Aparılmış müzakirələr və analitik qiymətləndirmələr nəticəsində orta ixtisas təhsili üzrə ixtisasların təsnifatı yenilənmiş və normativ-hüquqi sənəd kimi təsdiq olunması üçün təqdim edilmişdir.

Bununla yanaşı, 2025/2026-cı tədris illəri üçün maraqlı tərəflərin müraciətləri əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2 may 2024-cü il tarixli, KQ-05 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları”nın 4.5-ci bəndinin tələblərinə uyğun olaraq “Kommersiya işi” və “Marketinq” ixtisasları üzrə əmək bazarının mövcud vəziyyəti və gələcək perspektivləri təhlil edilmişdir. Təhlil prosesində işəgötürənlərin rəyləri, beynəlxalq təcrübə və əmək bazarının bu ixtisaslar üzrə kadrlara olan potensial tələbatı nəzərə alınmışdır.

Hazırlanmış sənəd və materialların (hesabatlar, arayışlar, təqdimatlar, təhlillər, araşdırmalar, işəgötürənlər arasında aparılan sorğular və s.) yeni ixtisasların açılmasına dair ümumi tələblərə uyğunluğunun qiymətləndirilməsi məqsədilə kollec əməkdaşları və maraqlı tərəflərin nümayəndələrindən ibarət İşçi Qrupu yaradılmışdır. Aparılmış araşdırmaların nəticələri əsasında müvafiq sənədlər hazırlanaraq Elm və Təhsil Nazirliyinə təqdim edilmişdir.

Əmək bazarının mövcud və perspektiv tələbləri nəzərə alınmaqla Mingəçevir Turizm Kollecində mövcud ixtisaslar üzrə tələb olunan əsas kompetensiyaların müəyyən edilməsi məqsədilə Tədrisdə Keyfiyyətin Təminatı şöbəsi tərəfindən hazırlanmış "Kompetensiya xəritəsinin hazırlanmasına dair təlimat" rəhbər tutulmuşdur. Təhsil standartlarının tələblərinə uyğun olaraq kompetensiya xəritələri ixtisasın təhkim olunduğu fənn birlikləri komissiyasının iclasında müzakirə edilərək təsdiq olunmuşdur. Müəyyən edilmiş kompetensiyalar müvafiq ixtisasların təhsil proqramlarında sistemli şəkildə əks etdirilmiş, bununla da məzunların peşə bacarıqlarının əmək bazarının tələblərinə uyğun formalaşdırılması təmin edilmişdir.

Nazirlər Kabinetinin "Orta ixtisas təhsili üzrə ixtisasların təsnifatı" haqqında 17 aprel 2020-ci il tarixli, 140 nömrəli əmri ilə təsdiq edilmiş yeni ixtisas standartlarına əsasən kollec daxilində hazırlanmış 10 ixtisas üzrə yeni tədris planları 28.09.2021-ci il və 14.09.2022-ci il tarixli Pedaqoji Şura iclaslarının 1 nömrəli protokolları ilə təsdiq edilmiş, ixtisaslar üzrə yeni kompetensiyalar müəyyənləşdirilərək təhsil proqramlarında öz əksini tapmışdır.

https://mtk.az/wp-content/uploads/2025/02/IXTISAS-UZRE-KOMPETENSIYALAR-XERITESININ-HAZIRLANMASINA-DAIR-TELIMAT-T%C9%99drisd%C9%99-Keyfiyy%C9%99tin-T%C9%99minati-sob%C9%99si.pdf

https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANLARININ-HAZIRLANMASI-MEXANIZMI-T%C9%99drisd%C9%99-Keyfiyy%C9%99t-T%C9%99minati.pdf

| Strateji sahə 1. | Kollecdə tədrisin keyfiyyətinin yaxşılaşdırılması |
|---|---|
| Hədəf 1.2. | Yeni ixtisas standartlarına uyğun tədris planlarının və digər tədris metodiki vəsaitlərin hazırlanması |

Yeni ixtisas standartlarının tətbiqi çərçivəsində Mingəçevir Turizm Kollecində ixtisaslar üzrə tələbə mobilliyini və praktik yönümlü tədrisi təmin edən tədris planlarının hazırlanması istiqamətində sistemli tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə Tədrisdə Keyfiyyətin Təminatı şöbəsi tərəfindən tədris planlarının hazırlanmasına nəzarət mexanizmi formalaşdırılmış və icrası təmin edilmişdir.

Tədris planları təhsil proqramının əsas tərkib hissəsi kimi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş İxtisasın Dövlət Standartının tələblərinə uyğun hazırlanmışdır. Sözügedən planlarda tədris fənlərinin tərkibi və həcmi, semestrlər üzrə bölgüsü, nəzarət və qiymətləndirmə formaları, təcrübələrin adları və həcmi, eləcə də Yekun Dövlət Attestasiyasının forması dəqiq müəyyən edilmişdir.

Nazirlər Kabinetinin "Orta ixtisas təhsili üzrə ixtisasların təsnifatı" haqqında 17.04.2020-ci il tarixli 140 №-li əmri ilə təsdiq edilmiş yeni ixtisas standartlarına əsasən kollec daxilində hazırlanmış aşağıda adları qeyd edilən ixtisaslar üzrə yeni tədris planları tərtib edilərək pedaqoji şurada təsdiq edilmişdir.

**28.09.2021-ci il tarixli pedaqoji şuranın 1 №-li protokolu ilə təsdiq edilmiş:**

1. 040704 – "İaşə müəssisələrinin servisi"
2. 040707 – "Mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi"
3. 040712 – "Rekreasiya, idman və sağlamlıq turizmi"
4. 040716 – "Turizm bələdçiliyi"
5. 040717 – "Turizm işinin təşkili"
6. 040406 – "Mühasibat uçotu"
7. 040314 – "Muzey işi və abidələrin qorunması"
8. 040552 – "Nəqliyyatın logistikası"

**14.09.2022-ci il tarixli pedaqoji şuranın 1 №-li protokolu ilə təsdiq edilmiş:**

1. 040404 – "Maliyyə işi"
2. 040603 – "Aqroturizm"

**14.09.2023-ci il tarixli pedaqoji şuranın 1 №-li protokolu ilə təsdiq edilmiş:**

1. 040404 – "Maliyyə işi" (Qiyabi)
2. 040406 – "Mühasibat uçotu" (Qiyabi)
3. 040552 – "Nəqliyyatın logistikası" (Qiyabi)
4. 040717 – "Turizm işinin təşkili" (Qiyabi)

**17.09.2024-ci il tarixli pedaqoji şuranın 1 №-li protokolu ilə təsdiq edilmiş:**

1. 040707 – "Mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi" (Qiyabi)

Hazırda Elm və Təhsil Nazirliyinə təqdim edilməsi nəzərdə tutulan aşağıda adları qeyd olunan 2 yeni ixtisas üzrə də tədris planları tərtib edilmişdir.

1. 040403 – "Kommersiya işi"
2. 040405 – "Marketinq"

https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANI.NEQLIYYATIN-LOGISTIKASI-%C9%99yani.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANI.-TURIZM-BELEDCILIYI-%C9%99yani.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANI.-MUZEY-ISI-VE-ABIDELERIN-QORUNMASI-%C9%99yani.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANI.-MUHASIBAT-UCOTU-%C9%99yani.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANI.-IASE-MUESSISELERININ-SERVISI-%C9%99yani.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANI.-REKREASIYA-IDMAN-VE-SAGLAMLIQ-TURIZMI-%C9%99yani.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANI.MEHMANXANA-TESERRUFATININ-TESKILI-VE-IDARE-EDILMESI-%C9%99yani.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANI.NEQLIYYATIN-LOGISTIKASI-qiyabi.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANI.TURIZM-ISININ-TESKILI.qiyabi.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANI.MUHASIBAT-UCOTU.qiyabi.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANI.-MALIYYE-ISI-qiyabi.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANI.-MALIYYE-ISI-%C9%99yani.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANI.-AQROTURIZM-%C9%99yani.pdf

Tədris planlarında qeyd olunan hər bir fənn üzrə təlim nəticələri tədris proqramlarında və sillabuslarda ətraflı şəkildə qeyd olunur. Bu təlim nəticələri fənnin məqsədinə və tələb olunan biliklərə uyğun olaraq müəyyən edilir və tədris prosesində müvafiq şəkildə tətbiq edilir. Müəllimlər tədris zamanı sillabusda yer alan bütün məqamların əhatə olunmasına xüsusi diqqət yetirir, dərs zamanı tələbələrə verilən tapşırıqların, seminarların, dərslərin,

qiymətləndirmələrin və imtahan suallarında qeyd olunan təlim nəticələrinin tam olaraq yerinə yetirilməsinə çalışırlar.

Sillabusda göstərilən təlim nəticələrinin peşə kompetensiyaları ilə uyğunluğu məsələsi tədris prosesinin müxtəlif mərhələlərində, o cümlədən seminar və dərslərdə, tələbələrin tapşırıqlarının qiymətləndirilməsi zamanı, həmçinin imtahan suallarının hazırlanmasında diqqətlə izlənilir. Bu, tələbələrin yalnız nəzəri biliklərlə deyil, həm də praktik bacarıqlarla təmin olunmalarını və peşə sahəsində uğur qazanmaq üçün lazım olan kompetensiyalara sahib olmalarını təmin etməyə yönəlmişdir.

https://mtk.az/wp-content/uploads/2025/02/FENN-PROQRAMLARININ-TERTIB-OLUNMA-QAYDASI.pdf

https://mtk.az/wp-content/uploads/2025/02/ISCI-TEDRIS-PROQRAMININ-TERTIB-OLUNMASINA-DAIR-AKADEMIK-HEYET-UCUN-TELIMAT.pdf

Fənn proqramları müvafiq fənn müəllimləri tərəfindən hazırlanmış, elmi-metodiki baxımdan əsaslandırılmış şəkildə tərtib olunmuşdur. Proqramlar ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində müvafiq xarici rəylər alınmaqla qiymətləndirilmiş, pedaqoji şuranın iclasında müzakirə edilərək təsdiq edilmişdir. Fənn proqramlarının təsdiqi prosesi müasir təhsil standartlarına, kurikulum prinsiplərinə və əmək bazarının aktual tələblərinə uyğunluq baxımından təhlil olunmuş, eyni zamanda təlim nəticələrinin səmərəliliyinin təmin edilməsinə yönəldilmişdir.

**Fənn proqramlarına xarici rəy verən alim və mütəxəssislərin siyahısı**

- Bilalov B. Ə. – Azərbaycan Turizm və Menecment Universitetinin “Turizm biznesinin təşkili və texnologiyası” kafedrasının müdiri (t.ü.f.d.).
- Qəhrəmanov S.Ə. – Mingəçevir Dövlət Universitetinin “Mexanika” kafedrasının dosenti (tex.ü.f.d.).
- Zeynalov N.D. – Mingəçevir Dövlət Universitetinin “Humanitar fənlər” kafedrasının dosenti (t.ü.f.d.).
- Cəfərova E.H. – Mingəçevir Dövlət Universitetinin “Humanitar fənlər” kafedrasının dosenti.
- Dərgahov V.S. – Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsinin “Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm” kafedrasının dosenti.
- Hacıyeva N.A. – Azərbaycan Texnologiya Universitetinin İqtisadiyyat kafedrasının dosenti (i.ü.f.d.).
- Səmədova O.M. – Mingəçevir Dövlət Universitetinin “İqtisadiyyat” kafedrasının dosenti (i.ü.f.d.).
- Məmmədli V.Ə. – Mingəçevir Dövlət Universitetinin “İqtisadiyyat” kafedrasının baş müəllimi (i.ü.f.d.).
- İmamverdiyeva Ç.B. – Azərbaycan Turizm və Menecment Universitetinin “Turizm biznesi” kafedrasının müəllimi.
- Həsənov A.H. – Gəncə Dövlət Universitetinin “Menecment və turizm işi” kafedrasının professoru (i.e.d.).
- Eldarova H.M. – Azərbaycan Turizm və Menecment Universitetinin “Turizm biznesi” kafedrasının müəllimi.
- Xanəliyev C.C. – Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Azərbaycan tarixi”

kafedrasının baş müəllimi.

- Namazova F.K. – Mingəçevir Dövlət Universitetinin "Humanitar fənlər" kafedrasının dosenti (f.e.d.).
- Əliyev T.F. – AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Albanşünaslıq Elmi Mərkəzinin Qafqaz Albaniyasının maddi mədəni irsinin arxeoloji tədqiqi sektorunun müdiri (t.ü.f.d.).
- Məmmədov A.A. – Azərbaycan Turizm və Menecment Universitetinin "Nəqliyyat, İKT və təbiət elmləri" kafedrasının müəllimi (r.ü.f.d.).
- Babayeva S.R. – Azərbaycan Turizm və Menecment Universitetinin "İctimai fənlər" kafedrasının müəllimi.
- İsmayılov M.Y. – Mingəçevir Dövlət Universitetinin dosenti (f.ü.f.d.), əməkdar müəllim.
- Süleymanova N.M. – Azərbaycan Turizm və Menecment Universitetinin "İctimai fənlər" kafedrasının dosenti (i.ü.f.d.).
- Narxanım K.A. – Azərbaycan Turizm və Menecment Universitetinin "Turizm biznesi" kafedrasının müəllimi.
- Maqsud S.R.– Azərbaycan Turizm və Menecment Universitetinin "Turizm biznesi" kafedrasının baş müəllimi (i.ü.f.d.).
- Əlixan M.K. – Azərbaycan Turizm və Menecment Universitetinin "Turizm biznesi" kafedrasının müəllimi.
- Tağıyev M.M. – Azərbaycan Texnologiya Universitetinin "Qida mühəndisliyi və ekspertiza" kafedrasının dosenti (t.ü.f.d.).
- Xusayinova İ.Y. – Azərbaycan Texnologiya Universitetinin "Turizm sənayesinin təşkili və ekologiya" kafedrasının müəllimi.
- Qasımova A.A. – Azərbaycan Texnologiya Universitetinin "Qida mühəndisliyi və ekspertiza" kafedrasının baş müəllimi (t.ü.f.d.).
- Hümbətov Y.Ə. – Azərbaycan Texnologiya Universitetinin "Turizm sənayesinin təşkili və ekologiya" kafedrasının müdiri (i.ü.f.d.).

"Orta ixtisas təhsili üzrə ixtisasların təsnifatı" haqqında 17.04.2020-ci il tarixli 140 nömrəli qərara əsasən yeni ixtisas standartlarının və tədris proqramlarının hazırlanması nəzərə alınaraq Mingəçevir Turizm Kollecində bütün ixtisaslar üzrə fənlərin təhsil proqramları təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 4 iyul 2024-cü il və 4 fevral 2025-ci il tarixli əmrlərinə əsasən, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.33-cü maddəsi və Nazirlik haqqında Əsasnamənin 3.1.37-ci və 5.5.10-cu yarımbəndləri rəhbər tutulmaqla Mingəçevir Turizm Kollecinin aşağıda adları qeyd olunan 40 ədəd proqramına **Qrif** verilmiş, yeni ixtisas standartlarına uyğun fənn proqramları, sillabuslar və digər tədris-metodiki vəsaitlər hazırlanmışdır.

1. Aqro-ekoloji turizm – müəllifi Samir Zamanov
2. Mehmanxanada servis xidmətinin təşkili – müəllifi Samir Zamanov
3. Turist davranışı və psixologiyası – müəllifi Samir Zamanov
4. Turizmdə vasitəçilər – müəllifi Samir Zamanov
5. Servis fəaliyyətinin əsasları – müəllifi Samir Zamanov

6. Turizmin əsasları – müəllifi Gülnar Qurbanova
7. Bələdçiliyin əsasları – müəllifi Gülnar Qurbanova
8. Mehmanxana təsərrüfatının təşkili metodikası – müəllifi Gülnar Qurbanova
9. Turizm və rekreasiya zonaları – müəllifi Zeynəb Mehdizadə
10. Rekreasiya, idman və sağlamlıq turizminin əsasları – müəllifi Zeynəb Mehdizadə
11. İaşə məhsullarının istehsal texnologiyası – müəllifi Bəhruz Kərimov
12. Turizm marşrutları və ekskursiya işinin təşkili – müəllifi Samirə Mustafayeva
13. İnsan resurslarının idarə olunması – müəllifi Aynurə Əhmədova
14. Marketinqin əsasları – müəllifi Xəyalə Abbasova
15. Biznes riyaziyyatı – müəllifi Elmira Rəhimova
16. Menecmentin əsasları – müəllifi Ağa Alıyev
17. Turizmdə nəqliyyat – müəllifi Nərgiz Şərifzadə
18. Logistika və onun informasiya təminatı – müəllifi Elvin Abuzərov
19. Menecment – müəllifi Elvin Abuzərov
20. Nəqliyyat logistikası – müəllifi Güldanə Nurəddinova və Faiq Məmmədəliyev
21. Nəqliyyat prosesinin idarə olunması – müəllifi Güldanə Nurəddinova və Faiq Məmmədəliyev
22. Nəqliyyat daşımalarının texnologiyası – müəllifi Güldanə Nurəddinova və Faiq Məmmədəliyev
23. Anbar logistikası – müəllifi Güldanə Nurəddinova və Faiq Məmmədəliyev
24. Azərbaycan iqtisadiyyatı – müəllifi Ruslan Məmmədov
25. İqtisadiyyata giriş – müəllifi Ülviyyə İlyasova
26. Patologiyanın əsasları – müəllifi Şəms Məmmədova
27. Azərbaycan muzeyləri – müəllifi Kamilə Həsənova
28. Tarix və mədəniyyət abidələrinin mühafizəsi – müəllifi Kamilə Həsənova
29. Muzey ekspozisiyası – müəllifi Kamilə Həsənova
30. Peşə etikası və etiket qaydaları – müəllifi Zülfiyyə Tanrıverdiyeva
31. Azərbaycan tarixi – müəllifi Nuridə Zülfüqarova
32. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya – müəllifi Aybəniz Əliyeva
33. Xarici dildə işgüzar və akademik kommunikasiya – müəllifi İsmayıl Rəsulzadə
34. Riyaziyyat – müəllifi İlahə İsmayılova
35. İKT-də kompüter baza bilikləri – müəllifi Elvin Abbasov
36. Xətti cəbr və riyazi analiz – müəllifi Nurlan Məmmədov
37. Turizmə giriş – müəllifi Zeynəb Mehdizadə
38. Turizm məhsulunun hazırlanması – müəllifi Bəhruz Kərimov
39. Azərbaycan coğrafiyası – müəllifi Rəşad Hüseynzadə
40. Turizm coğrafiyası – müəllifi İqbal Xudiyev

https://mtk.az/wp-content/uploads/2025/02/FENN-PROQRAMLARININ-TESDIQI-BAREDE-ETN-EMRI-04.07.2024.pdf

**Sosial, iqtisadi və texniki fənn birliyi üzrə 49 fənn proqramına müxtəlif universitetlərdən rəy alınmışdır.**

Digər seçmə fənn proqramları müvafiq fənn müəllimləri tərəfindən hazırlanmış, elmi-metodiki baxımdan əsaslandırılmış şəkildə tərtib olunmuşdur. Proqramlar ali təhsil

müəssisələri ilə əməkdaşlıq çərçivəsində müvafiq xarici rəylər alınmaqla qiymətləndirilmiş və pedaqoji şuranın iclasında müzakirə olunaraq təsdiq edilmişdir. Fənn proqramlarının təsdiqi prosesi müasir təhsil standartlarına, kurikulum prinsiplərinə və əmək bazarının aktual tələblərinə uyğunluq baxımından təhlil edilmiş, eləcə də təlim nəticələrinin səmərəliliyinin təmin edilməsinə yönəldilmişdir.

"Sosial, iqtisadi və texniki" fənn birləşməsindən – Məmmədov Ruslan "Azərbaycan iqtisadiyyatı", İlyasova Ülviyyə "İqtisadiyyata giriş", Abuzərov Elvin "Logistika və onun informasiya təminatı", "Menecment", Alıyev Ağa "Menecmentin əsasları", Rəhimova Elvira "Biznes riyaziyyatı", Məmmədəliyev Faiq və Nurəddinova Güldanə "Anbar logistikası", "Nəqliyyat logistikası", "Nəqliyyat proseslərinin idarə olunması", "Nəqliyyat daşımalarının texnologiyası", Əyyubova Züleyxa "Arxiv işinin əsasları", "Muzey kolleksiyalarının komplektləşdirilməsi, uçotu və qorunması", "Muzey işinin əsasları", Kərimova Sevda "Dünya muzeyləri", Həsənova Kamilə "Azərbaycan muzeyləri", "Muzey ekspozisiyası", "Tarix və mədəniyyət abidələrinin mühafizəsi", Əliyeva Kifayət "Azərbaycan mədəniyyət tarixi", Məhərrəmova Aynur "Fəlsəfə", Tanrıverdiyeva Zülfiyyə "Peşə etikası və etiket qaydaları", Zeynalov Şükür "Vergitutma", "Statistika", Hüseynov Xeyrəddin "Sahibkarlığın əsasları və biznesə giriş", Rəhimova Elmira "Mühasibat uçotu", Məmmədov Ruslan "Maliyyə uçotu", "Maliyyə və kredit", Eminli Ziba "İdarəetmə uçotu", Abuzərov Elvin "Nəqliyyatın iqtisadiyyatı və menecmenti", Abbasova Xəyalə "Mikroiqtisadiyyat", "Marketinqin əsasları", "Makroiqtisadiyyat", "İdarəetmə uçotu və korporativ qərarların verilməsi", Əhmədova Aynurə "Firmanın iqtisadiyyatı", "İnsan resurslarının idarə edilməsi", Məmmədəliyev Faiq "Nəqliyyatda yüklərin boşaltma işləri", Dərişov Ceyhun "Yol hərəkəti qaydaları və hərəkətin təhlükəsizliyi", Şərifzadə Nərgiz "Turizmdə nəqliyyat", Hacıyev Etibar "Nəqliyyat vasitələrinin konstruktiv xüsusiyyətləri", Nurəddinova Güldanə "Vahid nəqliyyat sistemi", Kərimova Sevda "Tarix-diyarşünaslıq muzeyləri", Əyyubova Züleyxa "Muzey fondu və fond işi", Qurbanova Bəsti "Təsviri incəsənət tarixi", Əlizadə Cəmilə "Həyat fəaliyyətinin təhlükəsizliyi", Məmmədova Şəms "Patologiyanın əsasları", "Sanatoriya və kurort şəbəkələrində müalicə üsulları", Əliyeva Amalya "Nəqliyyat hüququ", Əsgərov Əziz "Dövlət maliyyəsi", Əhmədova Aynurə "Firmanın iqtisadiyyatı".

**"Ümumtəhsil" fənn birliyi üzrə 12 fənn proqramına müxtəlif universitetlərdən rəy alınmışdır.**

"Ümumtəhsil" fənn birləşməsindən – Eldar Dərişov "Multikulturalizmə giriş", Zülfüqarova Nuridə "Azərbaycan tarixi", Əvəzova Bəsti "İnformasiya texnologiyaları", Abbasov Elvin "İKT-də kompüter baza bilikləri", Məmmədov Nurlan "Xətti cəbr və riyazi analiz", Əliyeva Aybəniz və İsmayılova Elnarə "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya", Eldar Dərişov "Azərbaycanın şəhərsalma tarixi", "Etnoqrafiya", Məmmədova Jalə "Ədəbiyyat: milli-mənəvi kimlik", Talıbov Fikrət "Mülki müdafiə və ilkin tibbi yardım", Kərimova Təhminə "Ümumi ekologiya", Məmmədova Jalə "Əski əlifba".

**Turizm fənn birliyi üzrə 27 fənn proqramına müxtəlif universitetlərdən rəy alınmışdır.**

"Turizm" fənn komissiyasından – Zamanov Samir "Turizmdə vasitəçilər", "Servis

fəaliyyətinin əsasları", "Mehmanxanada servis xidmətinin təşkili", Kərimov Bəhruz "İaşə məhsullarının istehsal texnologiyası", Hüseynzadə Rəşad "Azərbaycan coğrafiyası", Xuduyev İqbal "Turizm coğrafiyası", Mehdizadə Zeynəb "Turizmə giriş", "Turizm və rekreasiya zonaları", "Mehmanxanada qidalanmanın təşkili", Mürsəlova Ləman "Turizm məhsulunun hazırlanması", Mustafayeva Samirə "Turizm marşrutları və ekskursiya işinin təşkili", Qurbanova Gülnar "Mehmanxana təsərrüfatının təşkili metodikası", Nağıyev Vüqar "Müalicə və sağlamlıq turizmi", "İaşə müəssisələrində servis xidmətinin təşkili", Qurbanova Gülnar "Turizmin əsasları", "Bələdçiliyin əsasları", "İaşə müəssisələrinin avadanlıqları", Zamanov Samir "Turist davranışı və psixologiyası", "Aqro-ekoloji turizm", "İaşə müəssisələrində animasiya", Hüseynzadə Rəşad "İdman və macəra turizmi", Mustafayeva Samirə "Dayanıqlı turizm", Mehdizadə Zeynəb "Rekreasiya, idman və sağlamlıq turizminin əsasları", Hüseynzadə Rəşad "Turizm hüququ", "Bitkiçilik məhsullarının saxlanması və emalı texnologiyası", Həmidov Novruz "Heyvandarlıq məhsullarının istehsal texnologiyası".

**Xarici dillər fənn birliyi üzrə 1 fənn proqramına müxtəlif universitetlərdən rəy alınmışdır.**

"Xarici dillər" fənn birləşməsindən – İsmayıl Rəsulzadə "Xarici dildə işgüzar və akademik kommunikasiya".

Mingəçevir Turizm Kollecində tələbələrin əmək bazarının tələblərinə uyğun praktik bilik və bacarıqlarının formalaşdırılması məqsədilə istehsalat təcrübəsi proqramları sistemli şəkildə hazırlanmış və icra olunmuşdur. Təcrübə proqramları ixtisasların xüsusiyyətləri nəzərə alınmaqla fənn birliyi komissiyaları tərəfindən müəyyən edilmiş, dövlət və özəl sektor təşkilatları (otel, turizm agentliyi, restoran və digər xidmət müəssisələri) ilə razılaşdırılmışdır.

Hazırlanmış fənn və istehsalat təcrübəsi proqramlarının məzmunu təhsil standartlarının tələblərinə, əmək bazarının aktual ehtiyaclarına və praktik yönümlü tədris prinsiplərinə uyğunlaşdırılmışdır.

Təcrübə proqramları əsasında təcrübənin keçirilməsi zamanı müəssisələr tərəfindən tələbələr müvafiq metodiki sənədlərlə (sillabus, təhlükəsizlik təlimatı, təcrübə jurnalı və s.) təmin edilmiş, təcrübə müddətində işçi tədris planının icrasına, tələbələrin davamiyyətinə və hesabatlılığına mütəmadi nəzarət həyata keçirilmişdir.

Aşağıda adları qeyd olunan 10 ixtisas üzrə təcrübə proqramları hazırlanaraq 14.09.2022-ci il tarixli pedaqoji şuranın 1 №-li protokolu ilə təsdiq edilmiş, 05.01.2023-cü il tarixli pedaqoji şuranın növbədənkənar 5 №-li protokolu ilə təsdiq edilən "İstehsalat təcrübəsi" haqqında Əsasnaməyə uyğun olaraq yeniliklər əlavə edilmişdir. "Orta ixtisas təhsili üzrə ixtisasların təsnifatı" haqqında 17.04.2020-ci il tarixli 140 nömrəli qərara əsasən yeni ixtisas standartlarının və tədris proqramlarının hazırlanması nəzərə alınaraq "Maliyyə işi" və "Mühasibat uçotu" ixtisasları üzrə təcrübə proqramlarına müəyyən dəyişikliklər edilmiş, karyera planlaması, yumşaq və sərt bacarıqlarla bağlı mövzular əlavə olunmuş və sözügedən proqramlar Pedaqoji Şurada yenidən müzakirə edilərək təsdiq edilmişdir.

1. 040704 – "İaşə müəssisələrinin servisi"
2. 040707 – "Mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi"

| |
|---|
| 3. 040712 – “Rekreasiya, idman və sağlamlıq turizmi”<br>4. 040716 – “Turizm bələdçiliyi”<br>5. 040717 – “Turizm işinin təşkili”<br>6. 040406 – “Mühasibat uçotu”<br>7. 040314 – “Muzey işi və abidələrin qorunması”<br>8. 040552 – “Nəqliyyatın logistikası”<br>9. 040404 – “Maliyyə işi”<br>10. 040603 – “Aqroturizm”<br>https://mtk.az/wp-content/uploads/2025/02/MTK.Istehsalat |

| **Strateji sahə 1.** | **Kollecdə tədrisin keyfiyyətinin yaxşılaşdırılması** |
|---|---|
| Hədəf 1.3. | Pedaqoji heyətin potensialının inkişaf etdirilməsi |

Kollec rəhbərliyi tərəfindən müəllimlərin müstəqil şəkildə attestasiyadan keçirilmələri hüquqi və normativ baxımdan mümkün deyildir. Belə ki, müəllimlərin attestasiyasının təşkili və həyata keçirilməsi yalnız Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş normativ-hüquqi aktlara, təsdiq olunmuş peşəkar qiymətləndirmə meyarlarına və obyektivlik prinsiplərinə əsaslanmaqla həyata keçirilir. Attestasiya prosesi Nazirliyin özü və ya onun müvafiq qaydada səlahiyyət verdiyi qiymətləndirmə komissiyaları tərəfindən icra oluna bilər. Bu səbəbdən sözügedən prosesin yalnız kollec rəhbərliyi tərəfindən həyata keçirilməsi qanunvericiliyə ziddir.

Mingəçevir Turizm Kollecində pedaqoji və inzibati heyətin elmi potensialının artırılması məqsədilə sistemli və məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Bu çərçivədə Kollec rəhbərliyinin təşəbbüsü və təşkilatçılığı ilə müəllim və inzibati heyət üçün “Elmi məqalə necə yazılmalıdır?” mövzusunda ixtisaslaşmış təlim təşkil olunmuşdur. Təlimdə Mingəçevir Dövlət Universitetinin Elm və İnnovasiyalar Şöbəsinin müdiri, texnika üzrə fəlsəfə doktoru, dosent Vüqar Mustafayev tərəfindən elmi tədqiqatların aparılması və elmi məqalələrin hazırlanması ilə bağlı ətraflı metodiki tövsiyələr verilmişdir.

Təlim çərçivəsində elmi məqalələrin yazılma qaydaları, mövzunun elmi əsaslandırılması, elmi ədəbiyyatların seçilməsi və sistemləşdirilməsi, istinadların düzgün aparılması, eləcə də plagiat və akademik etikaya dair məsələlər geniş şəkildə izah olunmuşdur. Keçirilmiş təlimlərin nəticəsi olaraq pedaqoji heyətin elmi fəaliyyətə marağı və tədqiqat bacarıqları əhəmiyyətli dərəcədə artmışdır.

https://mtk.az/?s=V%C3%BCqar+Mustafayevin
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-karyera-v%c9%99-kommunikasiya-sob%c9%99sinin-t%c9%99skilatciligi-il%c9%99-ming%c9%99cevir-dovl%c9%99t-universitetinin-elm-v%c9%99-innovasiyalar-sob/

Nəticə etibarilə, Mingəçevir Turizm Kollecində elmi-tədqiqat işlərinin təşkili 2023-2025-ci tədris ilindən etibarən sistemləşdirilmiş, fənn birliyi komissiyaları üzrə müəllimlərin elmi yaradıcılıq kəmiyyəti nəzərəçarpacaq dərəcədə artmışdır. Bu uğurlu inkişafın təzahürü olaraq, pedaqoji heyətin müxtəlif universitet konfranslarında təqdim etdiyi məruzələrin və dərc olunmuş elmi məqalələrin fənn birlikləri üzrə siyahısı aşağıda təqdim olunmuşdur:

**2023/2024- cü tədris ili üzrə dərc olunan məqalə sayı**

1. **Turizm fənn birliyindən:** 13 nəfər müəllim heyətindən 6 nəfər müəllimin 2 Beynəlxalq və 3 Respublika elmi konfransında məqaləsi dərc olunmuşdur.
2. **Ümumtəhsil fənn birliyindən:** 29 nəfər müəllim heyətindən 11 nəfər müəllimin 4 Beynəlxalq elmi konfransda məqaləsi və 12 tezisi dərc olunmuşdur.
3. **Sosial, iqtisadi və texniki fənn birliyindən:** 21 nəfər müəllim heyətindən 6 nəfər müəllimin 5 Beynəlxalq və 5 Respublika elmi konfransında məqaləsi dərc olunmuşdur.
4. **Xarici dil fənn birliyindən:** 12 nəfər müəllim heyətindən 11 nəfər müəllimin 5 Beynəlxalq və 10 Respublika elmi konfransında məqaləsi və 5 tezisi dərc olunmuşdur.

**2024/2025-ci tədris ili üzrə dərc olunan məqalə sayı**

1. **Turizm fənn birliyindən:** 13 nəfər müəllim heyətindən 12 nəfər müəllimin 14 Beynəlxalq və 6 Respublika elmi konfransında məqaləsi dərc olunmuşdur.
2. **Ümumtəhsil fənn birliyindən:** 30 nəfər müəllim heyətindən 10 nəfər müəllimin 13 Beynəlxalq elmi konfransda məqaləsi və 8 tezisi dərc olunmuşdur.
3. **Sosial, iqtisadi və texniki fənn birliyindən:** 20 nəfər müəllim heyətindən 9 nəfər müəllimin 15 Beynəlxalq və 5 Respublika elmi konfransında məqaləsi dərc olunmuşdur.
4. **Xarici dil fənn birliyindən:** 12 nəfər müəllim heyətinin ümumilikdə 14 Beynəlxalq və 5 Respublika elmi konfransında məqaləsi dərc olunmuşdur.

**TURİZM FƏNN BİRLİYİ**

1. **“Turizmə təhsildən başla”**
   – “Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: Reallıqlar və çağırışlar” mövzusunda Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti, 13–14 dekabr 2024)*
2. **“Heydər Əliyev və onun turizm inkişafında rolu”**
   – “Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir” mövzusunda Respublika Elmi Konfransı
   *(Mingəçevir Dövlət Universiteti, 2-3 may 2025)*
3. **“Milli irs nümunələrinin turizmdə istifadəsinin öyrənilməsi”**
   – “Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: Reallıqlar və çağırışlar” mövzusunda Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti, 13–14 dekabr 2024)*
4. **“Göl turizminin iqtisadi nöqteyi-nəzərdən əhəmiyyəti”**
   – “Yeni dövrdə təhsil və elmi fəaliyyət: Reallıqlar və çağırışlar” mövzusunda II Beynəlxalq Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti, 13–14 dekabr 2024)*
5. **“Turist davranışına təsir edən daxili və xarici amillər”**

– II Beynəlxalq Elmi Konfrans
*(Mingəçevir Dövlət Universiteti, 13 dekabr 2024)*

6. **“Azərbaycanın turizm sektorunda davamlı inkişaf: gələcək perspektivlər”**
   – II Beynəlxalq Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti, 13 dekabr 2024)*
7. **“Atmosfer çirklənməsinin canlılara təsiri”**
   – II Beynəlxalq Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti, 13 dekabr 2024)*
8. **“Heydər Əliyev və Azərbaycançılıq”**
   – “Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir” mövzusunda Respublika Elmi Konfransı
   *(Mingəçevir Dövlət Universiteti, 2–3 may 2025)*
9. **“İrsimizi öyrənək: mədəniyyət və adət-ənənələrə səyahət və ekskursiya təklifləri”**
   – “UNEC-in Zaqatala filialının inkişaf perspektivləri” mövzusunda Respublika Elmi-Praktiki Konfrans
   *(Azərbaycan Dövlət İqtisad Universiteti, Zaqatala filialı, 23 may 2025)*
10. **“Educational and scientific activity in a new time: realities and challenges”**
   – Second International Scientific Conference
   *(Mingəçevir Dövlət Universiteti, 13–14 dekabr 2024)*
11. **“Challenges and problems of modern science”**
   – XIX Beynəlxalq Elmi (onlayn) Konfrans
   *(13 dekabr 2024)*

**SOSİAL, İQTİSADİ VƏ TEXNİKİ FƏNN BİRLİYİ**

1. **“Zəngəzur dəhlizi – beynəlxalq nəqliyyat daşımalarında yeni imkanlar”**
   *– “Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər” mövzusunda II Beynəlxalq Elmi Konfrans*
   *(Mingəçevir Dövlət Universiteti 8-9 dekabr 2024)*
2. **“İqtisadiyyatın inkişafında turizmin artan rolu”**
   – “Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər” mövzusunda II Beynəlxalq Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti 8-9 dekabr 2024)*
3. **“Yaşıl Dünya naminə”**
   – “Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur” mövzusunda Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti 8-9 dekabr 2024)*
4. **“Əvəzolunmaz şəxsiyyət”**
   – “Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur” mövzusunda Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti 8-9 dekabr 2024)*
5. **“Şagird şəxsiyyətinin formalaşmasının sosial-psixoloji əsasları”**
   – Magistrantların “Elm gününə həsr olunmuş VI Elmi-nəzəri Konfransı” (Mingəçevir Dövlət Universiteti) 2025- ci il

6. **“Azərbaycanın uğurlu yaşıl enerji siyasəti”**
   – “Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar” mövzusunda II Beynəlxalq Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti, 2-3 may 2025*
7. **“Təhsil və tədqiqat fəaliyyətində etik məsələlər”**
   – “Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar” mövzusunda II Beynəlxalq Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti, 2-3 may 2025*
8. **“Heydər Əliyev – müstəqilliyimizin və suverenliyimizin banisi”**
   – “Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir” mövzusunda Respublika Elmi Konfransı
   *(Mingəçevir Dövlət Universiteti, 2-3 may 2025*
9. **“Milli-mənəvi dəyərlərimizin himayədarı”**
   – “Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir” mövzusunda Respublika Elmi Konfransı
   *(Mingəçevir Dövlət Universiteti, 2-3 may 2025*
10. **“Heydər Əliyev – Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin böyük himayədarı”**
   – “Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir” mövzusunda Respublika Elmi Konfransı
   *(Mingəçevir Dövlət Universiteti, 2-3 may 2025*
11. **“Multikultural təhsildə innovativ texnologiyalar”**
   – “Dördüncü sənaye inqilabı dövründə elm və texnologiyaların mövcud vəziyyəti və inkişaf perspektivləri” mövzusunda Beynəlxalq Elmi-Praktik Konfrans
   *(Mingəçevir Dövlət Universiteti, 2-3 may 2025*
12. **“Azərbaycanda rəqəmsallaşma və biznesin idarə edilməsi: rəqəmsal transformasiya və rəqabət üstünlüyü”**
   – Magistrantların “Elm gününə həsr olunmuş VII Elmi-Nəzəri Konfransı” 2025-ci il
13. **“Sürətli qatarlar və onun ekologiyaya təsiri”**
   – UNEC Zaqatala filialının “İnkişaf perspektivləri” mövzusunda Elmi Konfransı
   *(Azərbaycan Dövlət İqtisad Universiteti, Zaqatala filialı, 23 may 2025)*

**XARİCİ DİL FƏNN BİRLİYİ**

1. **“Heydər Əliyev irsi: elm və təhsil”**
   – “Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir” mövzusunda Respublika Elmi Konfransı
   *(Mingəçevir Dövlət Universiteti, 2–3 may 2025)*
2. **“Heydər Əliyev və dil siyasətinin uğurları”**
   – “Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir” mövzusunda Respublika Elmi Konfransı
   *(Mingəçevir Dövlət Universiteti, 2–3 may 2025)*
3. **“Qloballaşma şəraitində Heydər Əliyevin Azərbaycanda dil siyasəti”**
   – “Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir” mövzusunda Respublika Elmi Konfransı

*(Mingəçevir Dövlət Universiteti, 2–3 may 2025)*

4. **“Heydər Əliyev və gənclər mədəniyyətinin inkişafının mühüm aspektləri”**
   – “Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir” mövzusunda Respublika Elmi Konfransı
   *(Mingəçevir Dövlət Universiteti, 2-3 may 2025)*
5. **“April Battles: The Road Leading Azerbaijan to Victory”**
   – Beynəlxalq Elmi Konfrans
   *(Bursa Universiteti, Türkiyə, 26 aprel 2025)*
6. **“Synonymous Characteristics of Phraseological Units”**
   – International Scientific Symposium “Epic and National Identity”
   *(Manas Universiteti, Bişkek, Qırğızıstan, 28 fevral 2025)*
7. **“Methods of Teaching Foreign Languages at Schools and Colleges”**
   – Copernicus indeksli Beynəlxalq Elmi Konfrans
   *(Universitet platforması, 30 aprel 2025)*
8. **“The Importance of Foreign Language Knowledge in the Tourism Sector from the Point of View of Practical Experience”**
   – 9th International Education, Social and Behavioral Sciences Congress
   *(Amsterdam Universitet Konsorsiumu, Hollandiya, 17–19 mart 2025)*
9. **“The Teaching of Foreign Languages Is the Professional Competence of an Economy as a Development Factor”**
   – 9th International Education, Social and Behavioral Sciences Congress
   *(Amsterdam Universitet Konsorsiumu, Hollandiya, 17–19 mart 2025)*
10. **“Toponymics in Modern English and Its Use in Artistic Works”**
    – 9th International Education, Social and Behavioral Sciences Congress
    *(Amsterdam Universitet Konsorsiumu, Hollandiya, 17–19 mart 2025)*
11. **“The Role of English in World Culture and Business”**
    – 9th International Education, Social and Behavioral Sciences Congress
    *(Amsterdam Universitet Konsorsiumu, Hollandiya, 17–19 mart 2025)*
12. **“The Teacher at the Lesson”**
    – 9th International Education, Social and Behavioral Sciences Congress
    *(Amsterdam Universitet Konsorsiumu, Hollandiya, 17–19 mart 2025)*
13. **“Moral Principles”**
    – 9th International Education, Social and Behavioral Sciences Congress
    *(Amsterdam Universitet Konsorsiumu, Hollandiya, 17–19 mart 2025)*
14. **“Importance of English Language in the Development of Tourism Management”**
    – “Foundations and Trends in Modern Learning” mövzusunda Beynəlxalq Elmi Konfrans
    *(Berlin Universitetlərarası Platforma, Almaniya, 17 yanvar 2025)*
15. **“Heydər Əliyev və gənclər mədəniyyətinin inkişafının mühüm aspektləri”**
    – Respublika Elmi Konfransı
    *(Mingəçevir Dövlət Universiteti, 2-3 may 2025)*
16. **“Ankara Hacı Bayram Veli University – Karabakh University 6th International Travel and Tourism Dynamics (ITTD-25)”**
    – Beynəlxalq Elmi Konfrans

*(Ankara Hacı Bayram Veli Universiteti, 16–18 may 2025)*

**ÜMUMTƏHSİL FƏNN BİRLİYİ**

1. **“Azərbaycanda mədəniyyətlərarası dialoq”**
   – Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş
   “Davamlı İnkişaf Strategiyası: Qlobal Trendlər, Milli Təcrübələr və Yeni Hədəflər” mövzusunda II Beynəlxalq Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti 8-9 dekabr 2024)*
2. **“Azərbaycan dilində sintaqımlar”**
   – “Davamlı İnkişaf Strategiyası: Qlobal Trendlər, Milli Təcrübələr və Yeni Hədəflər” mövzusunda II Beynəlxalq Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti 8-9 dekabr 2024)*
3. **“Ulu Öndərin azərbaycançılıq ideologiyasında gənclər siyasəti”**
   – “Davamlı İnkişaf Strategiyası: Qlobal Trendlər, Milli Təcrübələr və Yeni Hədəflər” mövzusunda II Beynəlxalq Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti 8-9 dekabr 2024)*
4. **“Azərbaycan multikulturalizminin banisi”**
   – “Qlobal və Regional İnkişaf” mövzusunda Beynəlxalq Elmi Konfrans
   *(Azərbaycan Turizm və Menecment Universiteti)*
5. **“Importance of Social and Humanitarian Sciences for Modern Society”**
   – “Davamlı İnkişaf Strategiyası: Qlobal Trendlər, Milli Təcrübələr və Yeni Hədəflər” mövzusunda II Beynəlxalq Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti 8-9 dekabr 2024)*
6. **“Ümummilli lider Heydər Əliyevin insan əməyinə yanaşması”**
   – “Davamlı İnkişaf Strategiyası: Qlobal Trendlər, Milli Təcrübələr və Yeni Hədəflər” mövzusunda II Beynəlxalq Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti 8-9 dekabr 2024)*
7. **“Milli-mənəvi dəyərlərə qəlbən bağlı lider”**
   – “Davamlı İnkişaf Strategiyası: Qlobal Trendlər, Milli Təcrübələr və Yeni Hədəflər” mövzusunda II Beynəlxalq Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti 8-9 dekabr 2024)*
8. **“Uğurlu nitqin komponentləri və onların ünsiyyətə pozitiv-dəyişdirici təsiri”**
   – “Davamlı İnkişaf Strategiyası: Qlobal Trendlər, Milli Təcrübələr və Yeni Hədəflər” mövzusunda II Beynəlxalq Elmi Konfrans
   *(Mingəçevir Dövlət Universiteti 8-9 dekabr 2024)*
9. **“Azərbaycan dilinin qrammatik, leksik və morfoloji xüsusiyyətlərinin nitq mədəniyyətinin formalaşmasında rolu”**
   – “Elmi məqalələr” jurnalı
   *(Naxçıvan Dövlət Universiteti 2023-cü il)*
10. **“Cəmiyyətin ictimai münasibətlərinin idarəçilik transformasiyasında Heydər Əliyevin misilsiz rolu”**
   – “Davamlı İnkişaf Strategiyası: Qlobal Trendlər, Milli Təcrübələr və Yeni Hədəflər” mövzusunda II Beynəlxalq Elmi Konfrans

*(Mingəçevir Dövlət Universiteti 8-9 dekabr 2024)*

11. **"Azərbaycan gənclərinin vətənpərvərlik tərbiyəsi"**
    – "Bir kərə yüksələn bayraq bir daha enməz!" mövzusunda Beynəlxalq Elmi Konfrans
    *(Qars Universiteti, Türkiyə 27 yanvar 2024 )*
12. **"Qalib xalqın Qalib Lideri"**
    – "Türkün Şanlı Zəfəri. Qərbi Azərbaycana Qayıdış" mövzusunda Beynəlxalq Elmi Konfrans
    *(Qars Universiteti, Türkiyə 27 yanvar 2024 )*
13. **"Süni intellektin inkişaf perspektivləri"**
    – "Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur" mövzusunda Respublika Elmi Konfransı
    *(Mingəçevir Dövlət Universiteti 8-9 dekabr 2024)*
14. **"Texnologiyanın həyatımızda rolu"**
    – "Qlobal və Regional İnkişaf" mövzusunda Beynəlxalq Elmi Konfrans
    *(Azərbaycan Turizm və Menecment Universiteti)*
15. **"Zəngəzur dəhlizi – tarixi ədalətsizlik"**
    – "Dördüncü sənaye inqilabı dövründə elm və texnologiyaların mövcud vəziyyəti və inkişaf perspektivləri" mövzusunda Beynəlxalq Elmi-praktik Konfrans
    *(Azərbaycan Texnologiya Universiteti, Gəncə 2025-ci il)*
16. **"Kür çayı hövzəsi çöküntülərində ağır metallarla çirklənmənin təhlil üsulları"**
    – Beynəlxalq Elmi-praktik Konfrans
    *(Azərbaycan Texnologiya Universiteti, Gəncə 6-7 may 2025-ci il)*
17. **"Süni intellekt"**
    – Beynəlxalq Elmi-praktik Konfrans
    *(Azərbaycan Texnologiya Universiteti, Gəncə 6-7 may 2025-ci il)*
18. **"Multikulturalizmdə dünya təcrübəsi"**
    – Beynəlxalq Elmi-praktik Konfrans
    *(Azərbaycan Texnologiya Universiteti, Gəncə 6-7 may 2025-ci il)*
19. **"Azərbaycanda dövlət dili siyasətinin siyasi-mədəni məzmunu və əhəmiyyəti"**
    – Ümummilli lider Heydər Əliyevin dövlətçilik strategiyasına həsr olunmuş Elmi Konfrans
    *(Mingəçevir Dövlət Universiteti 8-9 dekabr 2024)*
20. **"XX əsrin 20–40-cı illərində Azərbaycanda dil və əlifba islahatlarının ideoloji məzmunu"**
    – Elmi Konfrans
    *(Gəncə Dövlət Universiteti)*
21. **"Süni intellekt və ekologiya: təbiəti qorumaq üçün rəqəmsal inqilab"**
    – "Elmi inkişaf: uğurlar və çağırışlar" mövzusunda II Respublika Elmi Konfransı
    *(Naxçıvan Dövlət Universiteti 2023- cü il)*

https://mtk.az/wp-content/uploads/2025/02/Umumi-T%C9%99hsil-1.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/Xarici-dil-1.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/Turizm.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/Sosial-Iqtisadi-f%C9%99nn-birliyi-A.X%C9%99yal%C9%99-1.pdf

Eyni zamanda, Mingəçevir Turizm Kollecində elmi-nəzəri fəaliyyətlərin təşkili və müəllimlərin analitik yazı vərdişlərinin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq “Yaşıl dünya naminə həmrəylik ili” və Ümummilli Lider Heydər Əliyevin irsinin təbliği çərçivəsində keçirilən nəzəri konfransda kollecin tədris şöbəsinin müdiri Ceyhun Abdullayevin “Azərbaycan Respublikasında ekoloji siyasətin ormalaşdırılmasında ulu öndər Heydər Əliyevin rolu”, Mingəçevir Dövlət Universitetinin “Energetika” kafedrasının müdiri, dosent Ülkər Aşurovanın “Ətraf mühitin mühafizəsi və yaşıl enerjiyə keçid”, Sosial, iqtisadi və texniki fənn birliyi komissiyasının sədri Xəyalə Abbasovanın “Ətraf mühitin mühafizəsi Azərbaycan Respublikasının dövlət siyasətinin prioritetlərindən biridir”, turizm müəllimi İqbal Xudiyevin “İşğaldan azad edilmiş torpaqlarda yaşıl turizm imkanları və inkişafı” mövzularında elmi məruzələr təqdim edilmişdir. Bundan əlavə “Azərbaycanda turizm sektorunun inkişafında Ulu Öndər Heydər Əliyevin əvəzsiz rolu”, “Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi”, “Qarabağ, gələcəyin turizm bölgəsidir” mövzularında təşkil olunan nəzəri konfranslarda Tədris işləri üzrə direktor müavini Aynurə Abbasovanın, fənn birlikləri sədrləri Samir Zamanovun, Xəyalə Abbasovanın, Nuridə Zülfüqarovanın, eləcə də müəllimlər Elşad Səmədov və Kamilə Həsənovanın da elmi məruzələri dinlənilmişdir.

Eyni zamanda Mingəçevir Turizm Kollecinin təşkilatçılığı və Mingəçevir Regional Turizm İdarəsinin tərəfdaşlığı ilə “Konstitusiya və Suverenlik İli” və Ümummilli Lider Heydər Əliyevin anım günü çərçivəsində “Dövlət suverenliyi və turizm: perspektivlər və çağırışlar” mövzusunda nəzəri konfrans təşkil edilmişdir. Konfrans zamanı turizm sektorunun strateji inkişaf istiqamətləri, beynəlxalq əməkdaşlıq və milli dəyərlərin qorunması ilə bağlı aktual mövzular üzrə elmi məruzələr təqdim olunmuşdur. Mingəçevir Dövlət Universitetinin müəllimi Əli Nadirov “Azərbaycan–Türkiyə strateji tərəfdaşlığının turizm sektoruna təsiri”, Mingəçevir Turizm Kollecinin Turizm fənn birliyinin sədri Samir Zamanov “Qlobal onlayn turizm agentliklərinin Azərbaycan turizm siyasətinə təsiri”, kollecin turizm müəllimi Kənan Abbasov “Post-müharibə dövründə Qarabağda tarixi, arxeoloji və mədəni irsin bərpası”, River Side Hotelinin direktoru Elşən Muradov isə “Turizm mədəni irsin və milli dəyərlərin qorunması və təşviqi” mövzularında çıxış etmişlər.

26.10.2023–cü il tarixində Mingəçevir Turizm Kollecinin müəllim heyəti üçün Mingəçevir Dövlət Universitetinin "Elm və innovasiyalar şöbəsi"nin müdiri, texnika üzrə fəlsəfə doktoru, dosent Vüqar Mustafayev "Tədris-metodiki vəsaitlərə qoyulan tələblər" mövzusunda təlim keçib. Təlimdə tədris-metodiki vəsaitlərə qoyulan tələblər, dərslik və dərs vəsaitlərinin hazırlanması üçün tövsiyələr, müəllim və tələbələr üçün praktik məşğələlərə aid tədris-metodiki vəsaitin (metodiki tövsiyələrin) strukturu və məzmunu, tədris nəşrlərinin tərtibatı, dərs vəsaiti və dərslik arasındakı fərqlər haqqında geniş və əhatəli məlumatlar verilib.

Pedaqoji heyətin tədris fəaliyyətinin keyfiyyətinin mütəmadi olaraq qiymətləndirilməsi və təhlil edilməsi müxtəlif metodlarla həyata keçirilir. Bu proses fənn komissiyalarının təqdim etdiyi açıq dərslərin cədvəlinə əsaslanaraq təşkil edilir.

**2022/2023-cü tədris ilinin I semestrində** 17 pedaqoji heyət üzvünün açıq dərsi dinlənilmiş, **II semestrdə** isə 12 pedaqoji heyət üzvünün açıq dərsi dinlənilmişdir.

**2023/2024-cü tədris ilinin I semestrində** 7 pedaqoji heyət üzvünün açıq dərsi

dinlənilmiş, **II semestrdə** isə bu say 12-ə yüksəlmişdir.
**2024/2025-ci tədris ilinin I və II semestrin hər birində** 16 pedaqoji heyət üzvünün açıq dərsi dinlənilmişdir.
**2025/2026-cı tədris ilinin I semestrində** 24 pedaqoji heyət üzvünün açıq dərsi dinlənilmişdir.

Açıq dərslərin dinlənilməsi və qiymətləndirilməsi tədrisin keyfiyyətini yüksəltmək məqsədini daşıyır və müəllimlərin peşəkar inkişafına müsbət təsir göstərir. Eyni zamanda, bütün müəllimlərin dərsləri mütəmadi olaraq "Monitorinq Komissiyası" tərəfindən izlənilir. Dərs cədvəlinə uyğun olaraq bu komissiya dərslərdə iştirak edir, müəllimlərin metodik və pedaqoji bacarıqlarını təhlil edir, onların tədris fəaliyyətinə dair qiymətləndirmələr aparır və özünüinkişaf üzrə göstəricilərini qiymətləndirir.
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-turizm-f%c9%99nn-birl%c9%99sm%c9%99-komissiyasinin-mu%c9%99llimi-samir-zamanov-tb-8-qrupunda-aciq-d%c9%99rs-h%c9%99yata-kecirib/
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-7-aprel-2025-ci-il-tarixind%c9%99-turizmd%c9%99-sahibkarliq-movzusunda-praktiki-t%c9%99lim-kecirilib/
https://mtk.az/category/x%c9%99b%c9%99rl%c9%99r/page/13/
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecinin-turizm-f%c9%99nn-birl%c9%99sm%c9%99-komissiyasinin-s%c9%99dri-samir-zamanovun-turizm-m%c9%99hsulunun-hazirlanmasi-f%c9%99nnin/

Müasir təhsil mühitinin tələblərinə uyğun olaraq Mingəçevir Turizm Kollecində pedaqoji heyətin peşəkar bilik və bacarıqlarının artırılması, tədris prosesinin keyfiyyətinin yüksəldilməsi və innovativ yanaşmaların tətbiqi məqsədilə sistemli təkmilləşdirmə təlimləri həyata keçirilmişdir.

2022-ci ilin may ayının 7, 8, 9 və 22-də Qərb regionunda “Yerli Ekspertlər Şəbəkəsi” proqramı çərçivəsində Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi, Azərbaycan Turizm Bürosu, GİZ (Almaniya əməkdaşlığı), Turizm Təlim və Sertifikasiya Mərkəzi, Gəncə Turizm və İnformasiya Mərkəzi və Baku Project Management Centerin təşkilati dəstəyi ilə keçirilmiş təlimlərdə Turizm fənn birliyi komissiyasından iki nəfər müəllim heyəti iştirak etmişdir. Bu tədbirlər müəllimlərin sahəvi biliklərinin və praktik bacarıqlarının artırılmasına töhfə vermişdir.

Eyni zamanda, Mingəçevir Tekstil MMC-nin İnformasiya Texnologiyaları Şöbəsinin direktoru Yasin Quliyevin rəhbərliyi ilə kollecin müəllim və inzibati heyəti üçün “Microsoft Office Proqramları” mövzusunda üç modullu təlimlər təşkil edilmişdir. Təlimlərdə müasir ofis proqramlarının funksional imkanları və onların tədris və idarəetmə prosesində səmərəli istifadəsi öyrədilmişdir.

Xarici dil fənn birliyindən 7 müəllim “British TESOL CPD” beynəlxalq təlim proqramında iştirak edərək sertifikatla təltif olunmuş, bu fəaliyyət xarici dil tədrisinin keyfiyyətinin yüksəldilməsinə və beynəlxalq standartların tətbiqinə xidmət etmişdir.

Bundan əlavə, “Hitech İnvest MMC” şirkətinin icraçı direktoru Orxan Nadirov müəllimlər üçün ustad dərsi keçmiş, tədrisdə texnologiyaların rolu və müasir yanaşmalar müzakirə olunmuşdur. 23 may 2025-ci il tarixində isə “Azsoftware” şirkətinin texniki direktoru Emin Novruzun təqdimatında “Süni intellekt (AI) ilə müasir tədris” mövzusunda təlim keçirilmiş, müəllimlərin rəqəmsal bacarıqlarının artırılmasına və AI alətlərinin tədris

prosesinə inteqrasiyasına yönəlmişdir.
https://mtk.az/?s=%22Sillabuslar%C4%B1n+t%C9%99rtibi
https://mtk.az/?s=Yasin+Quliyevin
https://mtk.az/?s=Koordinasiya
https://mtk.az/?s=t%C9%99liml%C9%99r
https://mtk.az/?s=BLUM
https://mtk.az/23-aprel-2025-ci-il-tarixind%c9%99-ming%c9%99cevir-turizm-kollecind%c9%99-mu%c9%99lliml%c9%99r-ucun-hitech-invest-mmc-sirk%c9%99tinin-icraci-direktoru-orxan-nadirov-t%c9%99/
https://mtk.az/23-may-2025-ci-il-tarixind%c9%99-ming%c9%99cevir-turizm-kollecind%c9%99-mu%c9%99lliml%c9%99r-ucun-azsoftware-sirk%c9%99tinin-texniki-direktoru-emin-novruzun-t%c9%99qdimatinda/

Mingəçevir Turizm Kolleci təhsilin keyfiyyətini artırmaq və məzunların məşğulluq imkanlarını genişləndirmək məqsədilə turizm sənayesinin aparıcı nümayəndələri ilə sıx əməkdaşlıq edir. Bu tərəfdaşlıq çərçivəsində Mingəçevir Şəhər “River Side” Oteli, Mingəçevir Şəhər “Kür Olimpiya Tədris-İdman Mərkəzi”, Şəki şəhər “Bio Garden” Aqro Ekoturizm Məkanı, Mingəçevir Şəhər “Htech Invest” MMC, Mingəçevir Şəhər “DEKA Şirkəti – Cənnət Bağı” Şirkətlər Qrupu, Ağsaray Oteli, Naftalan şəhər “Yeni Naftalan Hotel və Company” MMC pedaqoji bacarıqlara malik mütəxəssisləri istehsalat təcrübəsi dövründə tədris prosesinə cəlb olunublar.

Cəlb olunan mütəxəssislər tərəfindən tələbələr üçün ustad dərsləri təşkil olunmuş, işgüzar görüşlər zamanı real praktik bilik və peşə təcrübələri paylaşılmışdır. Eyni zamanda tələbələr istehsalat və təcrübə prosesində real iş mühitində bilik və bacarıqlarını tətbiq etmək imkanı əldə etmişlər. Bundan əlavə, kollecdə təşkil olunan müxtəlif təlimlərdə nümayəndələr xüsusi dərslər keçirir və tələbələrə müxtəlif xidmət və idarəetmə bacarıqlarını öyrədirlər.

| **Strateji sahə 1.** | **Kollecdə tədrisin keyfiyyətinin yaxşılaşdırılması** |
|---|---|
| **Hədəf 1.4.** | Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) ilə əməkdaşlıq etməklə tədrisin keyfiyyətinin artırılması |

Mingəçevir Turizm Kollecində 2021/2022-ci tədris ili üçün təhsilin keyfiyyətinin yüksəldilməsi, ixtisaslı mütəxəssislərin hazırlanması və turizm sahəsində yüksək səviyyəli kadrların yetişdirilməsi məqsədilə Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) ixtisaslı əməkdaşları tərəfindən turizmyönümlü fənlərin distant formada, “Zoom” platforması vasitəsilə tədrisinə başlanılmışdır.

Həmin tədris ilində ATMU-nun tanınmış əməkdaşları – Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun coğrafiya üzrə fəlsəfə doktoru Şahnaz Amanova, “Turizm coğrafiyası” fənnini tədris edən müəllim Aynur Hüseynzadə və universitetin dissertantı Elnurə Əliyeva Mingəçevir Turizm Kollecində distant tədrisi həyata keçirmişlər.

Bundan əlavə, Azərbaycan Ekoturizm Assosiasiyasının İcraçı Direktoru və ATMU-nin Mehmanxana və Restoran Biznesi Kafedrasının baş müəllimi Samir Dübəndi tərəfindən “Azərbaycanda yaşıl iqtisadiyyat: Turizmdə sahibkarlıq” mövzusunda onlayn təlim keçirilmiş, tələbələr qonaqpərvərlik sənayesi, turizm növləri, standartlar və sahibkarlıq

imkanları barədə məlumatlandırılmışdır.

Kollecdə ATMU-nun təhsil imkanlarını təqdim etmək məqsədilə ilk görüş keçirilmiş, iştirakçıların sualları cavablandırılmış və universitetin təhsil proqramları, tədris metodikası və tələbələr üçün təqdim etdiyi imkanlar barədə ətraflı məlumat verilmişdir.

https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-az%c9%99rbaycan-turizm-v%c9%99-menecment-universitetinin-t%c9%99bligat-t%c9%99sviqat-t%c9%99dbirl%c9%99ri-c%c9%99rciv%c9%99sind%c9%99-ilk-gorusu-t%c9%99hsil-alan/

Keyfiyyət təminatı şöbəsinin yaradılması və fəaliyyətinin dəstəklənməsi məqsədilə ATMU ilə əməkdaşlıq əlaqələri qurulmuş, şöbənin fəaliyyətinin səmərəli təşkili və beynəlxalq mütərəqqi yanaşmalara uyğunlaşdırılması üçün onlayn görüşlər keçirilmişdir.

ATMU ilə əməkdaşlıq çərçivəsində imtahanların keçirilməsi üçün şəffaf mexanizm yaradılmışdır. Tələbələrin yazdıqları imtahan cavabları əvvəl universitetə göndərilmiş, müvafiq ixtisasa uyğun müəllimlər tərəfindən yoxlanılmış və hər hansı düzəliş və ya qiymətləndirmə barədə pedaqoji heyət tərəfindən rəy verilmişdir. Bu yanaşmanın məqsədi imtahan prosesinin şəffaf və ədalətli keçirilməsini təmin etməkdir.

Tədris proqramları və sillabusların hazırlanması və təkmilləşdirilməsi istiqamətində Mingəçevir Turizm Kollecində ardıcıl və sistemli tədbirlər həyata keçirilmişdir. Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) ilə sillabusların birgə tərtib olunması istiqamətində əməkdaşlıq mövcud olmasa da, tədris proqramlarının hazırlanması prosesində ATMU-nun professor-müəllim heyətinin elmi-metodiki dəstəyi təmin edilmişdir. Proqramların tərtibi zamanı ATMU alimləri tərəfindən təqdim olunan xarici rəylər əsasında mövcud çatışmazlıqlar müəyyən edilmiş, irəli sürülən təkliflər nəzərə alınmaqla proqramlar yenidən işlənmiş və təkmilləşdirilmişdir.

Əvvəlki illərdə tərtib edilmiş sillabuslar yeni təsnifat və keyfiyyət standartlarına uyğun şəkildə yenidən hazırlanmışdır. Sillabuslarda nəzərdə tutulan təlim nəticələrinin peşə kompetensiyaları ilə uyğunluğu məsələsi tədris prosesinin müxtəlif mərhələlərində seminar və dərslərdə, tələbələrin tapşırıqlarının qiymətləndirilməsi zamanı, həmçinin imtahan suallarının sillabuslarda müvafiq bölmələr üzrə əks olunmasına dair fənn birləşmə komissiyaları tərəfindən sistemli şəkildə nəzarətdə saxlanılmışdır. Müəllimlər tərəfindən hazırlanmış sillabuslar müzakirə edilmiş, zəruri hallarda düzəlişlər aparılaraq Pedaqoji Şuraya təqdim olunmuşdur.

Bu proses Mingəçevir Turizm Kollecinin Pedaqoji Şurasının 13.09.2024-cü il tarixli, 1 saylı iclasında təsdiq edilmiş “İşçi tədris proqramının (sillabus) tərtib olunmasına dair akademik heyət üçün Təlimat”a uyğun şəkildə həyata keçirilmişdir. Növbəti mərhələdə, 2025-ci ilin sentyabr ayında sillabuslar Bloom taksonomiyasına uyğun olaraq yenidən nəzərdən keçirilmiş və təkmilləşdirilmişdir.

https://mtk.az/wp-content/uploads/2025/02/FENN-PROQRAMLARININ-TERTIB-OLUNMA-QAYDASI.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/ISCI-TEDRIS-PROQRAMININ-TERTIB-OLUNMASINA-DAIR-AKADEMIK-HEYET-UCUN-TELIMAT.pdf

| **Strateji sahə 1.** | **Kollecdə tədrisin keyfiyyətinin yaxşılaşdırılması** |
|---|---|
| **Hədəf 1.5.** | Kollecə ikilidiplom proqramının cəlb edilməsi |

“Türkiyə Respublikası, kollecin əməkdaşlıq etdiyi xarici təhsil müəssisələri prioritet olmaqla ikili diplom proqramlarının qurulması” istiqamətində nəzərdə tutulmuş fəaliyyətin icrası müvafiq ixtisaslar üzrə tədris proqramlarının, peşə kvalifikasiyalarının və təhsil pillələrinin Azərbaycan Respublikasında qüvvədə olan təhsil standartları ilə tam uyğunluq təşkil etməməsi səbəbindən mümkün olmamışdır. Bununla belə, beynəlxalq əməkdaşlığın davam etdirilməsi və tələbələrin praktiki bacarıqlarının inkişafının təmin edilməsi məqsədilə alternativ mexanizm kimi Mingəçevir Turizm Kolleci publik hüquqi şəxsi ilə “Job in Global” şirkəti arasında əməkdaşlıq qurulmuş və bu çərçivədə tələbələrin Türkiyə Respublikasında əməkhaqqı bonuslu istehsalat təcrübəsi keçməsi təmin edilmişdir. Sözügedən təcrübə proqramı tələbələrin nəzəri biliklərinin real iş mühitində möhkəmləndirilməsinə, müştəri xidməti, otel və restoran idarəçiliyi, turizm menecmenti və digər sahələrdə real bacarıqlar qazanırlar.

Təcrübə keçilən müəssisələrə Antalya şəhərində **Club Hotel Phaselis Rose**, **Von Resort Hotel** və **Rixos Sungate Hotel** daxildir. Turizm işinin təşkili, İaşə müəssisələrinin servisi və Mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi ixtisasları üzrə 2022/2023-cü tədris ilində 11 nəfər, 2023/2024-cü tədris ilində 12 nəfər və 2024/2025-ci tədris ilində 14 nəfər tələbə təcrübədə iştirak etmişdilər.

| **Strateji sahə 2.** | **Kollecin maddi-texniki bazasının gücləndirilməsi** |
|---|---|
| **Hədəf 2.1.** | Kollecin mövcud binasının infrastrukturunun yaxşılaşdırılması |

2021-2025-ci tədris illəri ərzində Mingəçevir Turizm Kollecində tədris prosesinin keyfiyyətinin yüksəldilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi və təhlükəsiz, funksional təhsil mühitinin formalaşdırılması məqsədilə kollecin inzibati və tədris infrastrukturu mərhələli şəkildə təkmilləşdirilmiş, inzibati iş və sinif otaqlarında təmizlik və kiçik təmir işləri aparılmışdır. İnzibati fəaliyyətin effektiv təşkili məqsədilə ofis ləvazimatları, mətbəə jurnalları, kompüter və digər elektron avadanlıqlarla təminat həyata keçirilmişdir. Bina daxili və həyətyanı sahənin təmiz və səliqəli saxlanılması üçün zəruri olan təsərrüfat və təmizlik avadanlıqları alınmışdır. Eyni zamanda, ehtiyac olan iş otaqları mebel və ofis kresloları ilə təmin edilmişdir.

Təhlükəsizlik və fövqəladə hallara hazırlıq məsələləri xüsusi diqqətdə saxlanılmışdır. İnzibati bina daxilində 3 nöqtədə və həyətyanı sahədə 1 nöqtədə yanğınsöndürmə vasitələri ilə təchiz olunmuş lövhələr yerləşdirilmişdir. Təxliyyə planları yenilənmiş, Dövlət Yanğın Nəzarəti İdarəsi (DYNİ) ilə razılaşdırılaraq müəyyən olunmuş yerlərdə asılmışdır. Bina daxilində, o cümlədən zirzəmi, qazanxana, mühafizə otağı, arxiv, yeməkxana və digər zəruri sahələrdə ümumilikdə 26 ədəd yanğın söndürmə balonu quraşdırılmışdır. Zirzəmidə 2 yerdə su kranı qoyulmuş, mülki müdafiə sığınacağının normalara uyğun vəziyyətə gətirilməsi istiqamətində tədbirlər görülmüşdür.

Zirzəmi sahəsində əsaslı təmizlik işləri aparılmışdır. Elektrik, kanalizasiya, su və kombi sistemlərinin xətləri təmir edilərək istifadəyə yararlı vəziyyətə gətirilmişdir. Sanitar qovşaqlarda təmir və yenilənmə işləri aparılmış, gigiyenik şərait əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.

Kollecin texniki və təhlükəsizlik infrastrukturunun gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Bina daxili və həyətyanı ərazidə mövcud

nəzarət kameraları bərpa edilmiş, bəzi nöqtələrdə kameralar yeniləri ilə əvəz olunmuşdur. Təhlükəsizliyin daha effektiv təmin olunması məqsədilə 30 sinif otağı nəzarət kameraları ilə təchiz edilmişdir. İnternet və texniki infrastruktur da təkmilləşdirilmiş, ehtiyac olan sahələrdə internet xətləri yenilənmiş, nasazlıqlar aradan qaldırılmış və müvafiq məkanlarda əlavə "switch" və modemlər quraşdırılmışdır.

Kollecin server otağında şəbəkənin idarə olunması üçün 1 ədəd Lenovo noutbuk, 1 ədəd 48 portlu TP-Link ağıllı switch, 3 ədəd 24 portlu TP-Link ağıllı switch, 1 ədəd mini optik telefon switchi, 1 ədəd Mikrotik switch və 1 ədəd DVR (dijital video qeyd cihazı) quraşdırılmış, bütün kabellər düzgün qaydaya salınmış və şəhər arası telefonların istifadəsi üçün kabellər çəkilmişdir. Kameralara baxış və izləmə üçün monitor və şəbəkə sistemi təmin olunmuşdur.

Bundan əlavə, kollecin müxtəlif otaqlarında şəbəkə avadanlıqları yenilənmişdir:

- Otaq 210: 1 ədəd yeni TP-Link ağıllı switch və 1 ədəd TP-Link router,
- Otaq 117: 1 ədəd yeni TP-Link ağıllı switch və 1 ədəd TP-Link router,
- Otaq 221: 1 ədəd yeni TP-Link ağıllı switch.

Eyni zamanda, tədris və praktik məşğələlərin keyfiyyətini artırmaq məqsədilə tələbə və müəllimlər üçün kompüter avadanlıqları quraşdırılmışdır:

- Otaq 212: 30 ədəd Lenovo monoblok kompüter və 1 ədəd Lenovo noutbuk,
- Otaq 210: 14 ədəd Lenovo monoblok kompüter və 1 ədəd Lenovo noutbuk,
- Otaq 117: 9 ədəd Lenovo monoblok kompüter və 1 ədəd Lenovo noutbuk.

Ümumilikdə kollecin kitabxana və 3 İKT otağı daxil olmaqla 62 ədəd monoblok və 6 ədəd noutbuk quraşdırılmışdır.

Tədris və idarəetmə prosesində rəqəmsal imkanların genişləndirilməsi məqsədilə inzibati iş otaqlarında 48 ədəd noutbuk və 8 ədəd fərdi kompüter olmaqla, ümumilikdə 56 ədəd internetə qoşulmuş kompüter istifadəyə verilmişdir. Bununla yanaşı, akt zalı, iclas otağı və kitabxana da daxil olmaqla 15 sinif otağı olmaqla cəmi 21 otaqda proyektorlar quraşdırılmışdır.

2024/2025-ci tədris ilində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin dəstəyi ilə kollecdə tədris mühitinin daha da zənginləşdirilməsi məqsədilə "Turizm laboratoriyası", 3 İKT otağı və 1 "Asudə vaxt" otağı yaradılmış, həmin məkanlarda təmir və yenilənmə işləri aparılaraq yeni avadanlıqlarla təchiz edilmişdir. Bu otaqlar tələbələrdə praktik bacarıqların, rəqəmsal savadlılığın, kommunikativ və təşkilati qabiliyyətlərin formalaşdırılmasına xidmət edir.

Kollecin mövcud binasının infrastrukturunun yaxşılaşdırılması istiqamətində görülmüş işlər çərçivəsində tələbə və əməkdaşlar üçün iaşə xidmətinin təmin edilməsi məqsədilə yeməkxananın fəaliyyəti bərpa edilmişdir. Hazırda Mingəçevir Turizm Kollecində 25 nəfərlik bufet fəaliyyət göstərir və onun fəaliyyəti Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin tələblərinə uyğun şəkildə nəzarətdə saxlanılır. Bufetdə tələbə və əməkdaşların istifadəsi üçün çay, şirniyyat və digər qida məhsullarının satışı həyata keçirilir. Eyni zamanda, əməkdaşların nahar vaxtından səmərəli istifadə etmələrinin təmin edilməsi məqsədilə kollecin binasının II mərtəbəsində 20–25 nəfərin eyni vaxtda istifadəsi üçün nəzərdə tutulmuş, ödənişsiz xidmət göstərən nahar otağı təşkil edilmişdir. Sözügedən otaq zəruri mətbəx ləvazimatları və isidici avadanlıqlarla (mikrodalğalı soba, toster və s.) təchiz olunmuş, saat 13:00-dan 15:00-dək əməkdaşların istifadəsinə verilmişdir.

Bundan əlavə, inzibati binanın qarşısında 5 metr hündürlükdə (250 sm × 350 sm ölçüdə) Ümummilli lider Heydər Əliyevin şəkli əks olunan lövhə, əsas giriş foyesində Heydər Əliyev stendi yenilənmiş, "Zəfər guşəsi" və "Təhsildə fərqlənənlər" guşələri müasir dizaynla əvəz olunmuşdur. Kollecin giriş hissəsində yerləşən hasarüstü plafonlar yenilənmiş, həyətyanı ərazidə işıqlandırma sistemi yaxşılaşdırılmışdır.
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-az%c9%99rbaycan-respublikasinin-dovl%c9%99t-turizm-agentliyinin-d%c9%99st%c9%99yi-il%c9%99-yaradilan-asud%c9%99-vaxt-otagi-nin-turizm-laboratoriyasi-nin/
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-44-gunluk-v%c9%99t%c9%99n-muharib%c9%99si-il%c9%99-bagli-t%c9%99dbirl%c9%99r-plani-c%c9%99rciv%c9%99sind%c9%99-t%c9%99l%c9%99b%c9%99l%c9%99r%c9%99-44-gu/

| **Strateji sahə 2.** | **Kollecin maddi-texniki bazasının gücləndirilməsi** |
|---|---|
| **Hədəf 2.2.** | Kollecdə müasir tələblərə cavab verən kitabxananın yaradılması |

Müasir təhsil tələblərinə uyğun olaraq Mingəçevir Turizm Kollecində kitabxana fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə ölkənin aparıcı kitabxanalarının iş prinsipləri və xidmət modelləri öyrənilmişdir. Əldə olunan məlumat kollecin mövcud maddi-texniki bazası, resurs imkanları və təhsil profili nəzərə alınmaqla kitabxana fəaliyyətinə tətbiq edilmişdir. Bu yanaşma kitabxana xidmətlərinin daha sistemli və məqsədyönlü şəkildə təşkili üçün əsas yaratmışdır.

Son illər ərzində Mingəçevir Turizm Kollecində kitabxana xidmətlərinin həcmi və istifadə göstəriciləri artmışdır. Xüsusilə, 2025-ci ildə kitabxana tərəfindən göstərilən xidmətlərin sayı 257 vahid təşkil etmişdir ki, bu da əvvəlki illərin göstəriciləri ilə müqayisədə artımın müşahidə olunduğunu göstərir. Bu artım kitabxana resurslarından istifadə intensivliyinin yüksəlməsi və xidmətlərin əhatə dairəsinin genişlənməsi ilə əlaqədardır.

Mingəçevir Turizm Kollecinin Kitabxanası tərəfindən oxuculara və akademik heyətə göstərilən ənənəvi kitabxana xidmətlərinin statistik göstəriciləri cədvəl 10-da təqdim edilmişdir.

**Cədvəl -10**



Aparılmış təhlillər nəticəsində kitabxananın funksional imkanlarının genişləndirilməsi və yeni kitabxana modelinin formalaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. 49 m² sahəsi olan kitabxanada aparılmış təmir işləri çərçivəsində struktur dəyişiklikləri həyata keçirilmiş, yeni kitab rəfləri quraşdırılmış, oxucular üçün rahat və funksional mühit yaradılmış, kitabxana 3 kompüterlə təmin edilmiş və kitabxanaçının iş masası tələblərə uyğun şəkildə yenilənmişdir. Eyni zamanda, tələbələrin kitab oxumaq, dərslərə hazırlaşmaq və asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə kitabxanaya əlavə olaraq sahəsi 24 m² olan “Asudə vaxt otağı” təşkil olunmuşdur.






2023/2024-cü tədris ilinin başlanğıcında kollecin kitabxanasında 28,783 nüsxə kitab mövcud olmuşdur. Kitab fondu müxtəlif sahələr üzrə təsnif edilərək tələbələrin müxtəlif elmi sahələrdəki bilik ehtiyaclarını qarşılamaq məqsədilə fəlsəfə və din sahəsi üzrə 816 nüsxə, tibbi-bioloji sahə üzrə 416 nüsxə, cəbr və riyaziyyat üzrə 743 nüsxə, tarix üzrə 1,100 nüsxə, hüquq üzrə 1,159 nüsxə, turizm üzrə 438 nüsxə mövcud olmuşdur. Eyni zamanda, ingilis, alman və fransız dilləri üzrə 816 nüsxə, bədən tərbiyəsi və idman üzrə 206 nüsxə, pedaqogika və psixologiya üzrə 255 nüsxə, iqtisadiyyat üzrə 1,022 nüsxə, bədii ədəbiyyat üzrə isə 18,670 nüsxə kitab kolleksiyada yer almışdır. Bundan əlavə, Azərbaycan dili, dilçilik və ədəbiyyatşünaslıq sahəsi üzrə 1,250 nüsxə, lüğətlər, ensiklopediyalar və ümumi şöbə üzrə 139 nüsxə, latın qrafikalı kitablar üzrə 858 nüsxə və rus dilində kitablar üzrə 895 nüsxə mövcud olmuşdur. Bu müxtəlif mövzular üzrə olan kitablar tələbələrə müxtəlif sahələrdə təhsil alarkən geniş məlumat əldə etmək imkanı

təqdim edir. Lakin bu sahədə kitab fondunun zənginləşdirilməsi müəyyən çətinliklərlə müşayiət olunmuşdur. Xüsusilə, dərsliklərin və digər nəşrlərin alınması üçün tətbiq olunan katirovka (qiymət təklifi) proseduru, alqı-satqı prosesinin mürəkkəbləşməsinə, vaxt itkisinə və müəyyən hallarda gecikmələrə səbəb olmuşdur. Bu səbəbdən, mövcud ixtisaslar üzrə tələb olunan ədəbiyyatların vaxtında əldə olunması və kitabxana fondunun genişləndirilməsi mümkün olmamış, bu isə resursların məhdudluğu şəraitində tədrisin effektivliyinə birbaşa təsir göstərmişdir. Bununla belə, 2025-ci ilin fevral ayında isə Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən kollecin kitabxanasına müxtəlif fənləri əhatə edən əlavə 248 nüsxə kitab hədiyyə edilmişdir. Bu kitablar əsasən 2011-2020-ci illər aralığında dərc olunmuşdur. Bununla yanaşı Azərbaycan Turizm Assosasiyasından kollecə Müzəffər Ağakərimov və Samir Babazadə tərəfindən 4 kitab ianə edilmişdir. Lakin aparılmış araşdırmalar nəticəsində məlum olmuşdur ki, kollecdə tədris olunan iqtisadiyyat, nəqliyyat və turizm yönümlü fənlər üzrə 2021–2025-ci illərdə nəşr olunmuş ədəbiyyat demək olar ki, azlıq təşkil edir. Son 5 ildə dərc olunmuş ixtisaslaşmış ədəbiyyatların xüsusilə iqtisadiyyat, turizm və nəqliyyat sahələrini əhatə edən kitabların kitabxana fonduna daxil edilməsi zəruridir.

Eyni zamanda, istifadəçilərin bu resurslara fasiləsiz çıxışını təmin etmək məqsədilə kollecin daxilində internet bağlantısı ilə təchiz olunmuş kompüterlərdən ibarət müvafiq texniki infrastruktur formalaşdırılmışdır. Kollecinin rəsmi internet resursunun (https://mtk.az) eskiz layihəsi hazırlanarkən tələbə və müəllimlərin kitabxana xidmətlərindən istifadəsini asanlaşdırmaq məqsədilə virtual kitabxana funksionallığı təmin edilmiş **"E-kitabxana"** bölməsi yaradılmışdır. Bu bölmədə təhsil proqramlarına uyğun olaraq seçilmiş və sistemləşdirilmiş dərsliklər və digər tədris materialları elektron formata salınaraq onlayn istifadəyə təqdim edilmişdir.

Elektron kitabxana vasitəsilə tələbələr müxtəlif fənlər üzrə dərsliklərə və mühazirə materiallarına onlayn şəkildə çıxış əldə edirlər. Eyni zamanda, kollecin kitabxana fondunun rəqəmsallaşdırılması və elektron materiallar bazasının genişləndirilməsi prosesi mərhələli şəkildə davam etdirilir. Hazırda elektron kitabxanada tədris proqramlarına uyğun olaraq seçilmiş elektron dərsliklər və digər tədris materialları yerləşdirilmiş, istifadəçilər üçün fasiləsiz və əlçatan informasiya mühiti yaradılmışdır.
Elektron kitabxanaya giriş linki: https://mtk.az/e-kitabxana/

| **Strateji sahə 2.** | **Kollecin maddi-texniki bazasının gücləndirilməsi** |
|---|---|
| **Hədəf 2.3.** | Kollecdə laboratoriyaların, o cümlədən, dil və resurs mərkəzlərin yaradılması |

Hazırda kollecdə tələbələrin imtahan verməsi, rəqəmsal bacarıqlarını inkişaf etdirməsi və İKT sahəsində biliklərini tətbiq etməsi üçün 62 monoblok, 7 ədəd lenevo noutbuk kompüterlə təchiz olunmuş 3 İnformasiya-Kommunikasiya Texnologiyaları otağı fəaliyyət göstərir. Hər bir auditoriya müasir kompüterlərlə təchiz edilmişdir və bu otaqlarda İKT və xarici dil dərslərinin tədrisi nəzərdə tutulmuşdur. Bu tədris otaqları tələbələrə nəzəri biliklərini inkişaf etdirərkən, eyni zamanda informasiya texnologiyaları və xarici dil biliklərini praktiki şəkildə artırmağa imkan yaradır.






Akt zalı, iclas otağı, kitabxana, 3 (üç) “İnformasiya-kommunikasiya texnologiyaları laboratoriyası”, “Asudə vaxt otağı”, “Turizm laboratoriyası”və 15 (on beş) sinif otağı olmaqla, ümumilikdə 21 (iyirmi bir) otaqda proyektor quraşdırılmışdır. Bundan əlavə, ümumi 30 sinif otağı internet şəbəkəsi ilə təchiz edilmişdir ki, bu da dərslərin interaktiv şəkildə aparılmasına, vizual tədris resurslarından istifadənin genişlənməsinə və müasir tədris metodlarının tətbiqinə şərait yaradır.







Görülmüş bu tədbirlər Mingəçevir Turizm Kollecinin rəqəmsal təhsilin tətbiqinə keçidi sürətləndirməsinə, eyni zamanda tələbələrin rəqabətqabiliyyətli kadr kimi formalaşmasına xidmət edir. Texniki baza ilə yanaşı, pedaqoji heyətin bu imkanlardan səmərəli istifadəsi istiqamətində də davamlı təlimlər təşkil olunur.
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-az%c9%99rbaycan-respublikasinin-dovl%c9%99t-turizm-agentliyinin-d%c9%99st%c9%99yi-il%c9%99-yaradilan-asud%c9%99-vaxt-otagi-nin-turizm-laboratoriyasi-nin/

| | |
|---|---|
| **Strateji sahə 3.** | **Kollecin kadr potensialının və idarə etmənin təkmilləşdirilməsi üzrə hədəflər** |
| **Hədəf 3.1.** | Pedaqoji və inzibati heyətin inkişafının dəstəklənməsi və təşviq edilməsi |

Mingəçevir Turizm Kollecində inzibati işçilərin işə qəbulu Mingəçevir Turizm Kolleci publik hüquqi şəxsin Pedaqoji Şurasının 25 may 2022-ci il tarixli qərarı ilə təsdiq edilmiş "İşə qəbul Qaydaları"na uyğun olaraq həyata keçirilir. İşə qəbul prosesi mövcud qanunvericiliyin tələblərinə əsasən şəffaf, obyektiv və rəqabət mühitində təşkil olunur.
***https://mtk.az/wp-content/uploads/2025/02/MTK.-ISE-QEBUL-QAYDALARI.pdf***

Kollecdə mövcud vakant vəzifələr üzrə işə qəbul prosesi Əmək və Məşğulluq Alt Sistemi (ƏMAS) vasitəsilə həyata keçirilir. Vakant vəzifələr barədə məlumatlar ƏMAS-a daxil edilir, Dövlət Məşğulluq Agentliyi tərəfindən yoxlanılaraq qanunvericiliyə uyğunluğu təsdiq edildikdən sonra sistemdə aktivləşdirilir.

Namizədlər tərəfindən təqdim edilən CV-lər kollecə elektron poçt vasitəsilə qəbul olunur, daxil olan müraciətlər işə qəbul komissiyasında baxılır.

Yönləndirilmiş namizədlərlə işə qəbul komissiyası tərəfindən müsahibələr aparılır, seçilmiş namizədlərlə əmək müqavilələri bağlanaraq elektron qaydada ƏMAS üzərindən qeydiyyata alınır. İnzibati işçilərin işə qəbulu ştat və ştatdankənar cədvəllərə uyğun olaraq kollecin direktorunun əmri ilə rəsmiləşdirilir.
https://mtk.az/?s=vakansiya
https://mtk.az/?s=vakansiya+psixoloq

Kollecdə yeni təlim və tədris metodlarının tətbiqi və interaktiv öyrənmənin təşviqi əsas istiqamətlərdən biridir. Tədris prosesində daha çox tələbəyönümlü və interaktiv üsullardan istifadə olunur. Bu məsələlər fənn-birləşmə komissiyalarının iclaslarında müzakirə edilir

və müəllimlər bu prosesə cəlb olunur. Müəllimlərin bilik və bacarıqlarını artırmaq üçün onlar yerli və beynəlxalq təlimlərdə iştirak edirlər.

Bu çərçivədə Mingəçevir Turizm Kollecinin müəllim və inzibati heyəti üçün Mingəçevir Tekstil MMC-nin İnformasiya Texnologiyaları Şöbəsinin direktoru Yasin Quliyevin rəhbərliyi ilə “Microsoft Office proqramları” mövzusunda üç modullu təlimlər keçirilmişdir. Təlimlərin birinci modulunda PowerPoint, ikinci modulunda isə Excel proqramı üzrə mövzular təqdim olunmuşdur. Bu təlimlər əməkdaşların gündəlik işlərində kompüter proqramlarından daha səmərəli istifadə etmələrinə kömək etmişdir.

12–17 sentyabr 2022-ci il tarixlərində Mingəçevir Dövlət Universitetində təşkil olunan “Tyutor xidməti” mövzusunda təlimlərdə kollecin 6 nəfər əməkdaşı iştirak etmişdir.

Mingəçevir Turizm Kollecində “Karyera və Kommunikasiya Şöbəsi”nin təşkilatçılığı ilə müəllim və inzibati heyət üçün “Elmi məqalə necə yazılmalıdır?” mövzusunda təlim keçirilmişdir. Təlim Mingəçevir Dövlət Universitetinin Elm və İnnovasiyalar Şöbəsinin müdiri, dosent Vüqar Mustafayev tərəfindən aparılmış və elmi məqalə yazılması ilə bağlı əsas məsələlər izah edilmişdir.

18 noyabr 2022-ci il tarixində “Karyera və Kommunikasiya Şöbəsi”nin təşkilatçılığı ilə Bank Respublikanın əməkdaşlarının iştirakı ilə “Maliyyə işi və bank məhsulları” mövzusunda təlim keçirilmişdir. Təlim kollecin “Maliyyə işi” ixtisası üzrə tələbə və müəllimlər üçün nəzərdə tutulmuşdur və bank işi ilə bağlı praktiki məlumatların verilməsinə yönəlmişdir.

1 noyabr 2022-ci il tarixində Mingəçevir Turizm Kollecində “Education USA Azerbaijan” proqramının təqdimatı təşkil olunmuşdur. Təqdimat Mingəçevir Dövlət Universitetinin əməkdaşları və proqramın ekspertləri tərəfindən aparılmışdır.
Təlimdə iki nəfər Turizm fənn müəllimləri iştirak etmişdir.

2022-ci ilin 7, 8, 9 və 22 may tarixlərində Qərb regionunda Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi və digər tərəfdaş qurumların dəstəyi ilə “Yerli Ekspertlər Şəbəkəsi” proqramı çərçivəsində təlimçilərin inkişafına yönəlmiş tədbirlər keçirilmişdir.

2023/2024-cü tədris ilinin ikinci yarımilliyində kollecin “Xarici dillər” fənn komissiyasının 6 nəfər müəllimi British TESOL SPD proqramında, 1 nəfər müəllimi isə Arizona Dövlət Universitetinin 75 saatlıq TESOL proqramında iştirak etmişdir.

23 may 2025-ci il tarixində Mingəçevir Turizm Kollecində müəllimlər üçün “Azsoftware” şirkətinin texniki direktoru Emin Novruzun təqdimatında “Süni intellekt (AI) ilə Müasir tədris” mövzusunda təlim keçirilib.

Mingəçevir Turizm Kollecində SİRR Academy Təlim-Tədris Mərkəzinin və Mingəçevir Turizm Kolleci "Tədrisdə Keyfiyyət Təminatı Şöbəsi"nin birgə təşkilatçılığı ilə "Bloom taksonomiyası və metodiki iş" mövzusunda təlim proqramı həyata keçirmişdir. Təlim proqramı interaktiv metodlarla 6 modul olmaqla 12 saat davam etmişdir.

23 aprel 2025- ci il tarixində Mingəçevir Turizm Kollecində müəllimlər üçün “Hitech İnvest MMC” şirkətinin icraçı direktoru Orxan Nadirov tərəfindən ustad dərsi keçirilib. Dərsin məqsədi müəllimlərin müasir ofis proqram təminatları üzrə bilik və bacarıqlarını artırmaq olub.
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-sirr-academy-t%c9%99lim-t%c9%99dris-m%c9%99rk%c9%99zinin-v%c9%99-ming%c9%99cevir-turizm-kolleci-t%c9%99drisd%c9%99-keyfiyy%c9%99t-t%c9%99minati-sob%c9%99sini/

https://mtk.az/?s=Yasin+Quliyevin
https://mtk.az/23-may-2025-ci-il-tarixind%c9%99-ming%c9%99cevir-turizm-kollecind%c9%99-mu%c9%99lliml%c9%99r-ucun-azsoftware-sirk%c9%99tinin-texniki-direktoru-emin-novruzun-t%c9%99qdimatinda/
https://mtk.az/23-aprel-2025-ci-il-tarixind%c9%99-ming%c9%99cevir-turizm-kollecind%c9%99-mu%c9%99lliml%c9%99r-ucun-hitech-invest-mmc-sirk%c9%99tinin-icraci-direktoru-orxan-nadirov-t%c9%99/

MTK-da 14 sentyabr 2023-cü il tarixində "Mingəçevir Turizm Kolleci publik hüquqi şəxsin əməkdaşlarının motivasiyası" Proseduru MTK-nın Pedaqoji Şurasının qərarı ilə direktor tərəfindən təsdiq olunmuşdur. Prosedur işçilərin öz vəzifələrini vicdanla yerinə yetirməsi, əmək funksiyasını yüksək peşəkarlıq səviyyəsində həyata keçirilməsi, əməyin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, tədris prosesinin keyfiyyətinin yaxşılaşdırılması və əməkdaşların maddi və qeyri-maddi maraqlarının artırılması məqsədilə qəbul edilmişdir.

https://mtk.az/wp-content/uploads/2025/02/EMEKDASLARIN-MOTIVASIYASI-HAQQINDA-PROSEDUR.pdf

Mingəçevir Turizm Kollecində tədrisin keyfiyyətinin yüksəldilməsi, pedaqoji və inzibati heyətin peşəkar inkişafının dəstəklənməsi məqsədilə müəllim və əməkdaşların fəaliyyətinin sistemli qiymətləndirilməsi mexanizmi tətbiq edilmişdir. Qiymətləndirmə nəticələrinə əsaslanaraq differensial əmək haqqı və mükafatlandırma sistemi formalaşdırılmışdır. Bu yanaşma əməkdaşların işə motivasiyasını artırmış, tədris və idarəetmə fəaliyyətinin daha səmərəli və nəticəyönümlü təşkilinə şərait yaratmışdır.

Kollecdə hər tədris ilinin əvvəlində müəllimlərin metodiki və pedaqoji ustalığının artırılması, eləcə də inzibati işçilərin fəaliyyətinin qiymətləndirilməsi məqsədilə **Monitorinq qrupu** yaradılmışdır. Monitorinq komissiyası tərəfindən müəllimlərin dərslərində mütəmadi iştirak edilmiş, dərslər dinlənilmiş və tədris fəaliyyəti keyfiyyətin təhlili əsasında qiymətləndirilmişdir. Qiymətləndirmə zamanı dərs metodikası, müasir tədris üsullarının tətbiqi, tələbələrlə ünsiyyət bacarığı, rəqəmsal və interaktiv vasitələrdən istifadə, tədris nəticələri və tələbə nailiyyətləri əsas meyarlar kimi nəzərə alınmışdır.

Müəllimlərin fəaliyyəti sillabuslar, fənn proqramları, dərs-məşğələ jurnalları, elektron tədris materialları, pedaqoji təhlillər, özünüinkişaf göstəriciləri və geyim mədəniyyəti əsasında **maksimum 100 ballıq sistemlə** qiymətləndirilmişdir. Eyni zamanda, istehsalat təcrübəsində iştirak edən müəllimlərin fəaliyyəti təcrübə sillabusu, davamiyyət jurnalı, reqlamentə uyğun iştirak, təcrübənin təşkili və gedişi üzrə yerində monitorinq aparılmaqla ayrıca qiymətləndirilmişdir.

Bununla yanaşı, inzibati heyətin fəaliyyətinin qiymətləndirilməsi üçün **5 ballıq şkala** əsasında kommunikativlik, qərarvermə bacarığı, işə davamiyyət və intizam, obyektivlik, stresə davamlılıq, idarəçilik qabiliyyəti, təşəbbüskarlıq, korporativ geyim qaydalarına əməl edilməsi, iş öhdəliklərinin icrası və özünüinkişaf kimi meyarlar tətbiq olunmuşdur.

Tədris ilinin sonunda monitorinq komissiyası tərəfindən həyata keçirilmiş fəaliyyətlərin nəticələri ümumiləşdirilərək müvafiq hesabatlar hazırlanmış və rəhbərliyə təqdim edilmişdir. Rəhbərliyin göstərişinə və Pedaqoji Şuranın qərarına əsasən, tədris ili ərzində aparılmış qiymətləndirmələrin yekun orta balına görə yüksək nəticə göstərən pedaqoji və inzibati heyət üzvləri müxtəlif həvəsləndirici vasitələrlə (pul mükafatı, qiymətli hədiyyə, təltifnamə və s.) mükafatlandırılmışdır.

- **2023/2024-cü tədris ilində** monitorinq nəticələrinə əsasən fənn birlikləri üzrə yüksək nəticə göstərən 4 nəfər müəllim**,** həmçinin imtahanların şəffaf və düzgün təşkili ilə əlaqədar 22 nəfər əməkdaş mükafatlandırılmışdır.
- **2024/2025-ci tədris ilində** imtahanların düzgün və şəffaf təşkili ilə bağlı 24 nəfər **əməkdaş**, eləcə də fəaliyyətində fərqlənən 3 nəfər müəllim müvafiq əmrlərlə mükafatlandırılmışdır.
- Bundan əlavə, 2 nəfər müəllim “The Teacher at the Lesson” adlı elmi məqalənin 9-cu Beynəlxalq Təhsil, Sosial və Davranış Elmləri Konqresində (Amsterdam Universitet Konsorsiumu, Hollandiya) dərc olunduğuna görə müvafiq əmrlərlə mükafatlandırılmışdır.

https://mtk.az/wp-content/uploads/2025/04/INZIBATI-HEYETIN-MONITORINQ-VE-QIYMETLENDIRME-QAYDALARI.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/TELIM-PROSESININ-MONITORINQININ-TESKILINE-DAIR-TELIMAT-2024.pdf

| **Strateji sahə 3.** | **Kollecin kadr potensialının və idarə etmənin təkmilləşdirilməsi üzrə hədəflər** |
|---|---|
| **Hədəf 3.2.** | Pedaqoji və inzibati heyətin optimallaşdırılması |

28.09.2021-ci il tarixli Pedaqoji Şuranın 1 №-li protokolu ilə təsdiq edilmiş qərara əsasən, Mingəçevir Turizm Kollecində qiyabi təhsil forması üzrə tədrisin dayandırılması, dövlət büdcəsindən maliyyələşən təhsil müəssisəsi olaraq büdcəyə qənaət edilməsi, mövcud inzibati binada tələbə sayına uyğun olaraq iş otaqları və auditoriyaların çatışmazlığı, eləcə də bəzi ixtisasların bağlanması səbəbilə Fənn Birliyi Komissiyaları birləşdirilmiş və aşağıda adları qeyd olunan 4 Fənn Birliyi Komissiyası üzrə qruplaşdırılmışdır.

- Xarici dillər fənn birliyi komissiyası
- Ümumtəhsil fənlər birliyi komissiyası
- Turizm fənn birliyi komissiyası
- Sosial, iqtisadi və texniki fənlər birliyi komissiyası

Fənn komissiyaları, qrup rəhbərləri və fənn kabinetlərinin yaradılması haqqında əmr verilmişdir (Əmr № 55, 28.09.2021)

Keyfiyyətli tədrisin təşkili və çevik idarəetmənin təmin olunması məqsədilə 4 fənn birliyinə laborantlar, tədris şöbəsinə isə metodistlər təhkim edilmiş, tyutorların sayı artırılaraq onların fəaliyyəti daha səmərəli təşkil edilmişdir. Eyni zamanda, mühasibatlıq sahəsinə yeni işçilər cəlb olunmuşdur.

Əyani və qiyabi təhsil şöbəsinin müdiri vəzifəsi ləğv edilərək, 05.01.2022-ci il tarixindən etibarən kollecdə ‘Tədrisdə Keyfiyyətin Təminatı’ şöbəsi fəaliyyətə başlamış və şöbənin strukturuna 2 kompüter operatoru və 1 şöbə müdiri daxil edilmişdir.

Dövlət Turizm Agentliyinin razılığı ilə təsdiq olunmuş ştat cədvəlinin icrasına dair 07 yanvar 2024-cü il tarixli, 3-46-13/3-1-01/2024 nömrəli əmrin tələblərinə əsasən kollecin İnsan Resurslarının idarə olunması şöbəsində arxiv müdiri vəzifəsi struktur dəyişiklikləri çərçivəsində ləğv edilmiş, sosial yönümlü fəaliyyətlərin gücləndirilməsi məqsədilə Sosial

| |
|---|
| məsələlər və ictimaiyyətlə əlaqələr üzrə direktor müavini vəzifəsi yaradılmışdır. Mövcud insan resursları çatışmazlığı səbəbindən həmin vəzifə üzrə kadr təyinatı aparılmamışdır. Bu vəziyyət tələbələrin intizam qaydalarına riayət olunmasına nəzarətin təşkili, eləcə də mədəni və bədii-kütləvi tədbirlərin planlaşdırılması və icrası üzrə məsuliyyətin müəyyən edilməsini zəruri etmişdir. Hazırda tələbələrin sosial və mədəni həyatı ilə bağlı fəaliyyətlər tədris işləri üzrə direktor müavininin koordinasiyası altında mədəni-kütləvi tədbirlər üzrə təşkilatçı və mühəndis-proqramlaşdırıcı tərəfindən icra edilir. Qeyd olunan tədbirlər və fəaliyyətlər hər tədris ili üçün təsdiqlənmiş illik fəaliyyət planına uyğun şəkildə həyata keçirilir.<br>https://mtk.az/wp-content/uploads/2025/02/T%C9%99l%C9%99b%C9%99nin-Itizam-Qaydalari.pdf |

| **Strateji sahə 3.** | **Kollecin kadr potensialının və idarə etmənin təkmilləşdirilməsi üzrə hədəflər** |
|---|---|
| **Hədəf 3.3.** | Kollecin idarəetməsində təmsilçi yanaşmanın inkişaf etdirilməsi |
| 2024/2025-ci tədris ili ərzində Mingəçevir Turizm Kollecində strateji idarəetməni təkmilləşdirmək və uzunmüddətli inkişaf istiqamətlərini müəyyən etmək məqsədilə bir sıra təşəbbüslər irəli sürülmüşdür. Bu çərçivədə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə əməkdaşlıq edilərək “Məşvərət Şurasının” yaradılması istiqamətində addımlar atılmışdır.<br>Şuranın yaradılması kollecin gələcək inkişafının planlaşdırılması, qərarların səmərəli və iştirakçı əsasda qəbul edilməsinin təmin edilməsi, habelə dövlət qurumları, turizm sənayesi nümayəndələri, təhsil mütəxəssisləri və tələbə nümayəndələri kimi maraqlı tərəflərin prosesə cəlb edilməsi məqsədini daşıyır. Bu məqsədlə Mingəçevir Turizm Kolleci ilə Dövlət Turizm Agentliyi arasında müzakirələr aparılmış, Şuranın məqsədi, tərkibi və funksiyaları ilə bağlı ilkin razılaşmalar əldə edilmişdir. Bunun ardınca, Şuranın yaradılması üçün zəruri hüquqi və təşkilati sənədlər hazırlanmış, struktur, fəaliyyət prinsipləri və idarəetmə prosedurları müəyyən edilmişdir.<br>Tədris ilinin əvvəlində yeni qəbul olunmuş tələbələrin valideynləri ilə aparılmış görüşlər zamanı valideynlər tərəfindən səsləndirilən təklif və təkidlər nəzərə alınaraq Valideynlər Şurasının yaradılması barədə qərar qəbul edilmişdir. Bu məsələ Pedaqoji Şuranın müzakirəsinə çıxarılmış, Valideynlər Şurasının yaradılması və Əsasnaməsinin hazırlanması üçün müvafiq tapşırıqlar verilmişdir.<br>Mingəçevir Turizm Kollecində yaradılmış Valideynlər Şurasının Əsasnaməsi Pedaqoji Şuranın 28.11.2025-ci il tarixli qərarı ilə (protokol № 6) təsdiq edilmişdir. Valideynlər Şurası 20 nəfər üzvdən ibarət olmaqla, sədr vəzifəsinə tədris işləri üzrə direktor müavini Aynurə Abbasova, sədr müavini vəzifəsinə isə Kollecin hüquqşünası Günel Musayeva təyin edilmişdir.<br>Valideynlər Şurası tələbələrin təlim-tərbiyə prosesində valideynlərin fəal iştirakının təmin edilməsi, kollec rəhbərliyi ilə valideynlər arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, tədris və tərbiyə məsələləri ilə bağlı valideynlərin rəy və təkliflərinin öyrənilməsi, davamiyyət, intizam və digər sosial məsələlərin həllinə dəstək göstərilməsi məqsədilə fəaliyyət göstərir.<br>Şuranın fəaliyyətinin planlı və ardıcıl təşkili məqsədilə illik fəaliyyət planı hazırlanaraq | |

| |
|---|
| təsdiq edilmişdir. Fəaliyyət planına uyğun olaraq valideynlərlə iki dəfə iclas keçirilmiş, iclaslarda təhsil prosesinin təşkili, tələbələrin akademik göstəriciləri, davranış qaydaları və sosial vəziyyəti ilə bağlı məsələlər müzakirə olunmuşdur.<br>Valideynlərin təhsil prosesinə inamının artırılması və şəffaflığın təmin edilməsi məqsədilə Valideynlər Şurasının üzvlərinin imtahan prosesində müşahidəçi qismində iştirakı təmin edilmişdir. Görülmüş tədbirlər valideyn–kollec əməkdaşlığının gücləndirilməsinə və tədris prosesinin daha səmərəli təşkilinə müsbət təsir göstərmişdir. |

| Strateji sahə 3. | Kollecin kadr potensialının və idarə etmənin təkmilləşdirilməsi üzrə hədəflər |
|---|---|
| **Hədəf 3.4.** | “Təhsildə keyfiyyətin təminatı şöbəsi”nin yaradılması |

Kollecdə tədrisin monitorinqinin aparılması və keyfiyyət təminatı mexanizmlərinin gücləndirilməsi məqsədilə direktorun 05.01.2022-ci il tarixli, 12 nömrəli əmri əsasında əyani və qiyabi təhsil üzrə şöbənin adı dəyişdirilərək “Tədrisdə Keyfiyyətin Təminatı” şöbəsi yaradılmış, şöbənin keyfiyyət təminatı prosesində rolu və funksiyaları müvafiq Əsasnamədə müəyyən edilmişdir.

**“Tədrisdə Keyfiyyətin Təminatı” şöbəsi haqqında Əsasnamə** Pedaqoji Şuranın 15 fevral 2022-ci il tarixli qərarı ilə (protokol № 6) təsdiq edilmişdir. Şöbənin 2022/2023, 2023/2024, 2024/2025və 2025/2026-cı tədris illəri üzrə fəaliyyət planları tərtib edilmişdir.
https://mtk.az/wp-content/uploads/2025/02/MTK.-T%C9%99drisd%C9%99-Keyfiyy%C9%99tin-T%C9%99minati-sob%C9%99sinin-ESASNAMESI.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/Insan-Resurslarinin-idar%C9%99olunmasi-sob%C9%99sinin-2022-2023-cu-t%C9%99dris-ili-ucun-IS-PLANI.pdf

Şöbənin əsas funksiyalarına kollecdə tədrisin keyfiyyətinin monitorinqinin aparılması, müvafiq məlumatların toplanması və təhlili, rəhbərlik tərəfindən idarəetmədə optimal qərarların qəbul olunmasını təmin etmək məqsədilə analitik informasiyanın hazırlanması, habelə dövlət akkreditasiyası prosesində təşkilati-metodik informasiya dəstəyinin göstərilməsi daxildir.

Hər tədris ilinin əvvəlində müəllimlərin metodiki və pedaqoji ustalığının artırılması məqsədilə “Monitorinq qrupu” yaradılır. Monitorinq komissiyası tərəfindən müəllimlərin dərslərində mütəmadi olaraq iştirak edilmiş, dərslər dinlənilmiş, tədris fəaliyyəti və özünüinkişaf kriteriyaları üzrə təhlil aparılaraq qiymətləndirmə həyata keçirilmişdir.

Müəllimlərin kriteriyalar üzrə qiymətləndirilməsi sillabus, fənn proqramı, dərs-məşğələ jurnalı, elektron formada hazırlanmış tədris materialları, pedaqoji təhlil və müəllimin geyim mədəniyyəti kimi meyarlar əsasında aparılmış və maksimum 100 balla qiymətləndirilmişdir. Bundan əlavə, bəzi müəllimlərin təcrübə müəssisələrindəki fəaliyyəti yerində monitorinq edilərək qiymətləndirməyə cəlb olunmuşdur.

Təcrübə müəssisələrində müəllimlərin fəaliyyəti təcrübənin sillabusu, təcrübə proqramı, təcrübə üzrə davamiyyət jurnalı, reqlamentə uyğun olaraq müəllimlərin təcrübə müəssisəsində iştirakı, müəllimin geyimi, eləcə də təcrübənin təşkili və gedişi kimi meyarlar əsasında maksimum 100 balla qiymətləndirilmişdir.

Kriteriyalar üzrə qiymətləndirmə nəticələri maksimum 100 bal olmaqla 4 səviyyə üzrə müəyyən edilmişdir:

- **IV səviyyə (91–100 bal)** – əla
- **III səviyyə (71–90 bal)** – yaxşı
- **II səviyyə (51–70 bal)** – orta
- **I səviyyə (0–50bal)** – zəif

Bununla yanaşı, şöbə təlimin bütün mərhələlərində təhsilalanların bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsini təşkil edir, müəllimlərin peşəkarlığının artırılması məqsədilə tədris-metodik fəaliyyətin gücləndirilməsi istiqamətində isə yeni tədris planlarının, normativ sənədlərin, hesabatların və digər metodiki materialların hazırlanmasında fəal iştirak edir.

"Tədrisdə Keyfiyyətin Təminatı" şöbəsinin iş planı hər tədris ilinin əvvəlində hazırlanaraq kollecin direktoru tərəfindən təsdiq edilir və bütün fəaliyyətlər həmin plana uyğun şəkildə icra olunur. Bu çərçivədə fənn komissiyaları üzrə müəllim-pedaqoji heyətin iş planları, sillabuslar, işçi təqvim planları, metodiki materiallar, fənn birliklərinin və qrup rəhbərlərinin jurnalları yoxlanılmış, aşkar edilmiş nöqsanların aradan qaldırılması məqsədilə müvafiq göstərişlər verilmişdir. Eyni zamanda fənn birlikləri üzrə müəllimlərin şəxsi iş qovluqları mütəmadi olaraq yoxlanılır.

2022/2023-cü tədris ilindən etibarən Mingəçevir Turizm Kollecində keyfiyyət təminatı prosesinin tənzimlənməsi məqsədilə Tədrisdə Keyfiyyətin Təminatı şöbəsi tərəfindən akademik və inzibati heyətin inkişafına yönəlmiş müxtəlif istiqamətlər üzrə təlimatlar və prosedur qaydaları hazırlanmışdır.

**Şöbə tərəfindən tərtib edilmiş daxili prosedur sənədlərinə aşağıdakılar daxildir:**

- İşçi tədris proqramlarının hazırlanmasına dair təlimat, forma və nümunələr
- Açıq dərslərin təşkili, keçirilməsi və qiymətləndirilməsinə dair Qaydalar;
- Əməkdaşların motivasiyası ilə bağlı prosedur qaydalar;
- Blum taksonomiyasının tətbiqinə dair akademik heyət üçün təlimat;
- Təlim prosesinin monitorinqinin təşkili qaydaları;
- Rəy sorğularının təşkili proseduru;
- Strateji inkişaf planı və fəaliyyət planı, habelə illik hesabatların tərtib edilməsi qaydaları;
- Tələbələrin sərbəst işinin yerinə yetirilməsinə dair təlimat;
- Müraciətlərin idarə olunması qaydaları;
- Psixoloji xidmətin göstərilməsi qaydaları;
- Yay semestrinin təşkili və keçirilməsi qaydaları;
- Keyfiyyət təminatı siyasəti və onun bəyannaməsi;
- Məlumatların mediada paylaşılmasına dair təlimat;
- İxtisas üzrə kompetensiya xəritəsinin hazırlanması qaydaları;
- Təhsil proqramlarının tərtibi və tədris planlarına nəzarət mexanizmləri və s.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 4 iyul 2024-cü il tarixli əmrinə əsasən, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.33-cü maddəsi, həmçinin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamənin 3.1.37-ci və 5.5.10-cu yarımbəndləri rəhbər tutulmaqla Mingəçevir Turizm

Kollecinin aşağıda adları qeyd olunan 40 fənn proqramı təsdiq edilmiş və qrifi alınmışdır.

Qeyd olunan fənn proqramlarının tərtibi prosesində müvafiq alt sənədlər hazırlanmış, universitetlərdən xarici rəylər alınmış və sənədlər Elm və Təhsil Nazirliyinə təqdim edilməsi üçün aidiyyəti üzrə müraciətlər edilmişdir. Sözügedən işlərin icrası və koordinasiyası Tədrisdə Keyfiyyətin Təminatı Şöbəsi tərəfindən həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 4 iyul 2024-cü il tarixli əmrinə əsasən, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.33-cü maddəsi, həmçinin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamənin 3.1.37-ci və 5.5.10-cu yarımbəndləri rəhbər tutulmaqla Mingəçevir Turizm Kollecinin aşağıda adları qeyd olunan 40 fənn proqramı təsdiq edilmişdir.

Qeyd olunan fənn proqramlarının tərtibi prosesində müvafiq alt sənədlər hazırlanmış, universitetlərdən xarici rəylər alınmış və sənədlər Elm və Təhsil Nazirliyinə təqdim edilməsi üçün aidiyyəti üzrə müraciətlər edilmişdir. Sözügedən işlərin icrası və koordinasiyası Tədrisdə Keyfiyyətin Təminatı Şöbəsi tərəfindən həyata keçirilmişdir.

https://mtk.az/wp-content/uploads/2025/02/PROSEDUR-SENEDLERIN-HAZIRLANMASI-BAREDE-TELIMAT.pdf

https://mtk.az/wp-content/uploads/2025/02/REY-SORGULARININ-TESKILI-PROSEDURU.pdf

https://mtk.az/wp-content/uploads/2025/02/SERBEST-ISLERIN-YERINE-YETIRILMESI-HAQQINDA-TELIMAT-.pdf

https://mtk.az/wp-content/uploads/2025/02/TELIM-PROSESININ-MONITORINQININ-TESKILINE-DAIR-TELIMAT-2024.pdf

https://mtk.az/wp-content/uploads/2025/02/IXTISAS-UZRE-KOMPETENSIYALAR-XERITESININ-HAZIRLANMASINA-DAIR-TELIMAT-T%C9%99drisd%C9%99-Keyfiyy%C9%99tin-T%C9%99minati-sob%C9%99si.pdf

https://mtk.az/wp-content/uploads/2025/02/FENN-PROQRAMLARININ-TERTIB-OLUNMA-QAYDASI.pdf

https://mtk.az/wp-content/uploads/2025/02/YAY-SEMESTRININ-TESKILI-VE-KECIRILMESI-ILE-BAGLI-QAYDALAR.pdf

https://mtk.az/wp-content/uploads/2025/02/TEDRIS-PLANLARININ-HAZIRLANMASI-MEXANIZMI-T%C9%99drisd%C9%99-Keyfiyy%C9%99t-T%C9%99minati.pdf

https://mtk.az/wp-content/uploads/2025/02/QIYMETLENDIRME-VE-IMTAHANLARIN-KECIRILME-QAYDALARI.pdf

https://mtk.az/wp-content/uploads/2025/02/TELIM-PROSESININ-MONITORINQININ-TESKILINE-DAIR-TELIMAT-2024.pdf

https://mtk.az/wp-content/uploads/2025/02/ISCI-TEDRIS-PROQRAMININ-TERTIB-OLUNMASINA-DAIR-AKADEMIK-HEYET-UCUN-TELIMAT.pdf

https://mtk.az/?s=05.01.2022-ci+il+tarixind%C9%99n+etibar%C9%99n

MTK-da təhsilalanların məmnunluğunun təmin edilməsi və tədris prosesinin davamlı olaraq təkmilləşdirilməsi məqsədilə mütəmadi monitorinq və qiymətləndirmə tədbirləri həyata keçirilir. Hər semestrin sonunda əldə olunan nəticələr əsasında hesabatlar hazırlanaraq Pedaqoji Şurada müzakirə edilir və müvafiq təkliflər irəli sürülür.

Bununla yanaşı, hər ayın sonunda tələbə məmnunluğunun öyrənilməsi məqsədilə sorğular keçirilir, nəticələr təhlil edilərək aidiyyəti strukturlara təqdim olunur. İldə iki dəfə hər semestrin sonunda "Təhsilalanların imtahanların keçirilməsindən məmnunluq sorğusu" təşkil edilərək imtahan prosesinin şəffaflığı, obyektivliyi və təşkilati səviyyəsi

tələbələrin rəyləri əsasında qiymətləndirilir.

Eyni zamanda tədrisin praktik yönümlülüyünün artırılması məqsədilə istehsalat və pedaqoji təcrübənin təşkili və icrası ilə bağlı sorğular aparılır. Strateji planlaşdırma prosesinin effektivliyinin artırılması üçün tələbələr, məzunlar və akademik heyətin iştirakı ilə mütəmadi rəy sorğuları keçirilir, əldə olunan təklif və tövsiyələr nəzərə alınır. Bununla yanaşı, təbliğat-təşviqat fəaliyyəti çərçivəsində müxtəlif şəhər və rayonlarda keçirilən görüşlər zamanı sorğular təşkil edilmiş, valideynlərin təhsil prosesinə münasibəti və gözləntiləri öyrənilmişdir.

Hesabat dövrü ərzində MTK-da təsdiqlənmiş "Rəy sorğularının təşkili" proseduruna uyğun olaraq müxtəlif istiqamətlər üzrə sorğular aparılmışdır.

https://mtk.az/wp-content/uploads/2025/02/REY-SORGULARININ-TESKILI-PROSEDURU.pdf

**Keçirilmiş sorğular**

- **"Tələbə məmnuniyyəti sorğusu"**

Sorğu hər ayın sonunda aparılır. Kollecdə sağlam təhsil mühitinin yaradılması, yüksək ixtisaslı kadr hazırlığının təmin edilməsi, dərslərin keyfiyyətinin yüksəldilməsi, müəllimlərin peşəkarlıq səviyyəsinin, fənn üzrə bilik və bacarıqlarının, auditoriya ilə əks əlaqə qurmaq bacarığının, eləcə də müasir təlim metodlarından istifadə vəziyyətinin müəyyənləşdirilməsi məqsədilə keçirilir.

Sorğuda iştirak edən tələbələrin sayı aşağıdakı kimidir:

• 2021/2022-ci tədris ili – 607 nəfər
• 2022/2023-cü tədris ili – 668 nəfər
• 2023/2024-cü tədris ili – 733 nəfər
• 2024/2025-ci tədris ili – oktyabr: 563 nəfər, noyabr: 548 nəfər, dekabr: 421 nəfər, may: 326 nəfər
• 2025/2026-cı tədris ili – noyabr: 801 nəfər, dekabr: 283 nəfər

- **"İstehsalat təcrübəsi üzrə tələbələrin məmnunluq sorğusu"**

Tələbələrin təcrübə müəssisələrində qazandıqları praktik bacarıqlardan məmnunluq səviyyəsini, təlimlərin keçirilmə vəziyyətini və nəzəri biliklərin tətbiqi üçün yaradılan şəraiti öyrənmək məqsədilə həyata keçirilir. Sorğu 2023/2024-cü tədris ilində 524 nəfər, 2024/2025-ci tədris ilində isə 153 nəfər tələbə arasında aparılmışdır.

**"İmtahanların təşkilindən məmnunluq sorğusu"**

İmtahan sessiyalarının şəffaf və obyektiv təşkili ilə bağlı kollecdə həyata keçirilən tədbirlər barədə tələbələrin fikir və rəylərini öyrənmək məqsədilə aparılmışdır. Sorğu aşağıdakı illər üzrə keçirilmişdir:

- 2021/2022-ci tədris ili, II semestr – 443 nəfər
- 2022/2023-cü tədris ili, I semestr – 669 nəfər, II semestr – 308 nəfər
- 2023/2024-cü tədris ili, I semestr – 505 nəfər, II semestr – 322 nəfər
- 2024/2025-ci tədris ili, I semestr – 416 nəfər, II semestr – 269 nəfər

**"Mühazirələrin mənimsənilməsi sorğusu"**

Sorğunun əsas məqsədi mühazirələrin aydınlığını, təqdim olunan materialların həcmini, vizual vasitələrdən istifadə səviyyəsini və dərslərin praktik yönümlülüyünü qiymətləndirməkdən ibarət olmuşdur. Sorğu 2025/2026-cı tədris ilində 416 nəfər tələbə

arasında keçirilmişdir.

- **"Valideynlərin məmnunluq sorğusu"**

Kollecdə təhsilin keyfiyyətinə təsir göstərən maddi-texniki bazanın, valideynlərin rolu və digər amilləri müəyyənləşdirmək məqsədilə keçirilmişdir. Araşdırmalar göstərir ki, valideynlərin tədris prosesində fəal iştirakı tələbələrin akademik göstəricilərinin yüksəlməsinə, dərsə davamiyyətin artmasına və müsbət davranışların formalaşmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.

**Sorğuda iştirak edən valideynlərin sayı aşağıdakı kimidir:**

• 2023/2024-cü tədris ili – 187 nəfər
• 2024/2025-ci tədris ili – 361 nəfər
• 2025/2026-cı tədris ili – 284 nəfər

**"Məzun məlumat sorğusu"**

Sorğu 2024/2025-ci tədris ilində keçirilmişdir. Məzun bazasının olmaması səbəbindən sorğuda 128 nəfər məzun iştirak etmişdir. Sorğunun əsas məqsədi təhsil müəssisəsini bitirmiş məzunların karyera yollarını izləmək, onların məşğulluq vəziyyətini, təhsilin davam etdirilməsini, ixtisas uyğunluğunu və əmək bazarındakı mövqelərini müəyyən etmək olmuşdur.

**"Orta məktəb şagirdləri arasında keçirilən sorğu"**

Şagirdlərin maraqlarını və kolleclə bağlı ilkin təsəvvürlərini öyrənmək məqsədilə aparılmışdır. Sorğu 2022/2023-cü tədris ilində 673 nəfər, 2023/2024-cü tədris ilində 524 nəfər, 2024/2025-ci tədris ilində isə 1630 nəfər şagird arasında keçirilmişdir.

**"İnzibati heyət üçün təlim ehtiyaclarının müəyyən edilməsi sorğusu"**

Mövcud problemlərin araşdırılması, onların həlli yollarının müəyyən edilməsi, inzibati heyət üzvlərinin ehtiyaclarının öyrənilməsi və müvafiq inkişaf kurslarına cəlb edilməsi məqsədilə 2024/2025-ci tədris ilində 26 nəfər inzibati heyət üzvü arasında keçirilmişdir.

**"Pedaqoji heyət üçün təlim ehtiyaclarının müəyyən edilməsi sorğusu"**

Pedaqoji heyətin inkişaf ehtiyaclarını müəyyənləşdirmək və onları müvafiq ixtisasartırma kurslarına yönləndirmək məqsədilə 2024/2025-ci tədris ilində keçirilmişdir. Sorğuda 51 nəfər müəllim iştirak etmişdir.

**"Müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi sorğusu"**

Tədris proseslərinin təşkili, mövcud problemlərin müəyyən edilməsi və onların həlli yollarının araşdırılması məqsədilə kollecdaxili və sərbəst formada keçirilmişdir. Sorğuda 53 nəfər müəllim iştirak etmişdir.

**"Müəllimlərin məmnunluq sorğusu"**

Tədris proseslərinin təşkili, müəllimlərin innovativ təcrübələrinin müəyyənləşdirilməsi, ehtiyaclarının öyrənilməsi və onların müvafiq ixtisasartırma kurslarına yönləndirilməsi məqsədilə 2023/2024-cü tədris ilində keçirilmişdir. Sorğuda 62 nəfər müəllim iştirak etmişdir.

Əldə olunan nəticələr sistemləşdirilərək təhlil edilmiş, ətraflı hesabatlar hazırlanmışdır. Sorğuların nəticələri əsasında irəli sürülmüş təklif və tövsiyələrə uyğun olaraq müvafiq təkmilləşdirmə tədbirləri həyata keçirilmiş, tədris prosesinin təşkili, qiymətləndirmə mexanizmləri, təcrübə proqramlarının icrası və ümumi idarəetmə

sahələrində zəruri yeniliklər tətbiq edilmişdir.

**2022–2025-ci tədris illəri üzrə aparılmış sorğuların nəticələrinə əsasən irəli sürülmüş ümumiləşdirilmiş təkliflər və icra vəziyyəti aşağıdakılardır.**

**2022/2023-cü tədris ili üzrə təkliflər və icra vəziyyəti**

- **Təklif:** Müəllimlərin peşəkar inkişafının gücləndirilməsi

**İcra vəziyyəti:** Müəllimlər üçün pedaqoji, metodik, kurikulum, İKT (DTA, MDU, Azsoftware, British TESOL CPD və s.), məqalə yazmaq bacarıqlarına dair təlimlər və yeni kompüter proqramlarının öyrədilməsi və rəqəmsal texnologiyaların tətbiqi (Microsoft Office, AI təlimləri) kimi təlimlər təşkil olunmuş, nəticədə müəllimlərin peşəkarlıq səviyyəsi artırılmışdır.

- **Təklif**: İmtahanların şəffaf və obyektiv təşkili

**İcra vəziyyəti:** Qış və yay imtahan sessiyalarının şəffaf təşkili məqsədilə ATMU ilə əməkdaşlıq edilmiş, imtahan cavabları universitetə göndərilərək müvafiq ixtisas müəllimləri tərəfindən yoxlanılmışdır. Köçürmə və qeyri-etik halların qarşısının alınması üçün nəzarət mexanizmləri sərtləşdirilmişdir.

- **Təklif:** Auditoriyaların maddi-texniki bazasının yaxşılaşdırılması

**İcra vəziyyəti:** Sinif otaqları proyektor, kompüter və müasir dərs ləvazimatları(15 snif otağında proyektor, 62 monoblok) ilə təmin olunmuş, tələbələr üçün keyfiyyətli öyrənmə mühiti yaradılmışdır.

- **Təklif:** Tələbələrin asudə vaxtının səmərəli təşkili və idman fəaliyyətlər

**İcra vəziyyəti:** "Asudə vaxt" otağı yaradılmış, tələbələr üçün ekskursiyalar təşkil edilmiş, futbol və voleybol üzrə oğlan və qız komandaları yaradılmış və müxtəlif şəhər və respublika yarışlarında uğurlu nəticələr əldə edilmişdir.

- **Təklif:** Müəllimlərin respublika və beynəlxalq elmi konfranslarda geniş iştirakı və məqalə dərc etdirməsi.

Davamlı olaraq müəllimlərin respublika və beynəlxalq elmi konfranslarda geniş iştirakı təmin edilmiş, həmçinin müxtəlif universitetlərin nəşrlərində elmi məqalələri dərc olunmuşdur.

1. **Turizm fənn birliyindən:** 12 nəfər müəllimin 14 Beynəlxalq və 9 Respublika elmi konfransında məqaləsi dərc olunmuşdur.
2. **Ümumtəhsil fənn birliyindən:** 11 nəfər müəllimin 17 Beynəlxalq elmi konfransda məqaləsi və 20 tezisi dərc olunmuşdur.
3. **Sosial, iqtisadi və texniki fənn birliyindən:** 12 nəfər müəllimin 20 Beynəlxalq və 10 Respublika elmi konfransında məqaləsi dərc olunmuşdur.
4. **Xarici dil fənn birliyindən:** 12 nəfər müəllim heyətinin 19 Beynəlxalq və 15 Respublika elmi konfransında məqalə, 5 tezisi dərc olunmuşdur.

**2023/2024-cü tədris ili üzrə təkliflər və icra vəziyyəti**

- **Təklif:** Monitorinq mexanizmlərinin gücləndirilməsi

**İcra vəziyyəti:** Hər tədris ilinin əvvəlində monitorinq qrupları formalaşdırılmış, müəllimlərin dərslərində mütəmadi iştirak edilmiş, dərslər dinlənilmiş və nəticələrə əsasən stimullaşdırma tədbirləri görülmüşdür. Müəllimlərin respublika və beynəlxalq elmi konfranslarda geniş iştirakı və məqalə dərc etdirməsi.

- **Təklif:** İnteraktiv və İKT əsaslı tədrisin genişləndirilməsi

**İcra vəziyyəti:** Praktik dərslər laboratoriya otaqlarında müasir kompüterlər vasitəsilə keçirilmiş, xarici dil, informatika və statistika fənləri üzrə laboratoriya məşğələləri təşkil olunmuşdur. Turizm sahəsi üzrə praktik seminarlar, ustad dərsləri və müəssisə rəhbərləri ilə görüşlərkeçirilmişdir

- **Təklif:** Fənn kabinetləri və laboratoriyaların inkişafı

**İcra vəziyyəti:** Fənn kabinetlərinin sayı artırılmış, mövcud laboratoriyaların Turizm laboratoriyası, 3 İKT otağı və Asudə vaxt otağının yaradılmış, maddi-texniki bazası zənginləşdirilmişdir.

- **Təklif:** Kitabxananın optimallaşdırılması və elektron kitabxananın (E-kitabxana) təkmilləşdirilməsi.

**İcra vəziyyəti:** Kitabxanada təmir işləri aparılmış, struktur dəyişiklikləri həyata keçirilmiş, yeni kitab rəfləri quraşdırılmış, oxucular üçün rahat və funksional mühit yaradılmışdır. Eyni zamanda, kitabxana 3 (üç) kompüterlə təmin edilmiş, kitabxanaçının iş masası isə tələblərə uyğun şəkildə yenilənmişdir. Bununla yanaşı, tələbələrin kitab oxumaq, dərslərə hazırlaşmaq və asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə 24 m² sahəsi olan “İstirahət otağı” təşkil olunmuşdur. Elektron kitabxananın (E-kitabxana) yaradılması çərçivəsində tədris proqramlarına uyğun olaraq seçilmiş elektron dərsliklər və digər tədris materialları yerləşdirilmiş, istifadəçilər üçün fasiləsiz və əlçatan informasiya mühiti yaradılmışdır.

**2024/2025-ci tədris ili üzrə təkliflər və icra vəziyyəti**

- **Təklif:** Maddi-texniki bazanın gücləndirilməsi

**İcra vəziyyəti:** Dövlət Turizm Agentliyinin dəstəyi ilə “Turizm laboratoriyası”, 62 kompüterlə təchiz olunmuş 3 İKT laboratoriyası və 1 “Asudə vaxt” otağı yaradılmışdır. Ümumi Akt zalı, iclas otağı, kitabxana, 3 (üç) İKT otağı və 15 (on beş) sinif otağı olmaqla, ümumilikdə 21 (iyirmi bir) otaqda proyektor və 30 sinif otağı internet şəbəkəsi ilə təmin edilmişdir.

- **Təklif:** Müəllim və inzibati heyətin peşəkar inkişafı

**İcra vəziyyəti:** “Microsoft Office Proqramları” üzrə 3 modullu təlimlər, “British TESOL CPD” beynəlxalq təlimi, eləcə də “Süni intellekt (AI) ilə müasir tədris” mövzusunda təlimlər keçirilmişdir.

- **Təklif:** Kitabxana və tədris resurslarının inkişafı

**İcra vəziyyəti:** Kitabxana əsaslı təmir olunmuş, yeni kitab rəfləri quraşdırılmış, 3 kompüterlə təmin edilmiş və 24 m² sahəsi olan istirahət otağı yaradılmışdır.

- **Təklif:** Psixoloji dəstək və valideynlərlə əməkdaşlıq

**İcra vəziyyəti:** 2025-ci ilin yanvar ayından psixoloq işə qəbul edilmiş, fəaliyyət planı təsdiqlənmiş, müəllim və tələbələr üçün maarifləndirici görüşlər keçirilmişdir. Valideynlər Şurası yaradılmış və valideynlərin imtahan prosesində müşahidəçi kimi iştirakı təmin edilmişdir.

- **Təklif:** Müəllimlərin stimullaşdırılması

**İcra vəziyyəti:** Monitorinq qruplarının dərslərdə iştirakı və açıq dərslərin sistemli təşkili. Monitorinq nəticələrinə əsasən yüksək nəticə göstərən müəllimlər sertifikat və pul mükafatları ilə təltif edilmiş, dərs bölgüsündə onlara daha çox dərs yükü ayrılmışdır.

Müəllimlərin respublika və beynəlxalq konfranslarda iştirakının təmin edilməsi.

**İcra olunmamış təkliflər və səbəblər**

- **İdman infrastrukturunun genişləndirilməsi** – maddi-texniki və maliyyə resurslarının məhdudluğu.
- **Anonim şikayət və rəy platformalarının tam funksional tətbiqi** – normativ-hüquqi mexanizmin və texniki platformanın yekunlaşdırılmaması..
- **Kitabxana fondunun 2021–2025-ci illərə aid yeni ixtisaslaşmış ədəbiyyatla tam zənginləşdirilməsi** – müasir nəşrlərin məhdudluğu və maliyyə imkanlarının kifayət etməməsi.

**Nəticə:** Təkliflərin böyük əksəriyyəti icra edilmiş və ya icra mərhələsindədir. İcra olunmayan məsələlər əsasən maliyyə, normativ və struktur məhdudiyyətləri ilə bağlıdır və növbəti strateji dövr üçün prioritet istiqamətlər kimi müəyyən edilə bilər.
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-sirr-academy-t%c9%99lim-t%c9%99dris-m%c9%99rk%c9%99zinin-v%c9%99-ming%c9%99cevir-turizm-kolleci-t%c9%99drisd%c9%99-keyfiyy%c9%99t-t%c9%99minati-sob%c9%99sini/
https://mtk.az/?s=Yasin+Quliyevin
https://mtk.az/23-may-2025-ci-il-tarixind%c9%99-ming%c9%99cevir-turizm-kollecind%c9%99-mu%c9%99lliml%c9%99r-ucun-azsoftware-sirk%c9%99tinin-texniki-direktoru-emin-novruzun-t%c9%99qdimatinda/
https://mtk.az/23-aprel-2025-ci-il-tarixind%c9%99-ming%c9%99cevir-turizm-kollecind%c9%99-mu%c9%99lliml%c9%99r-ucun-hitech-invest-mmc-sirk%c9%99tinin-icraci-direktoru-orxan-nadirov-t%c9%99/
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-az%c9%99rbaycan-respublikasinin-dovl%c9%99t-turizm-agentliyinin-d%c9%99st%c9%99yi-il%c9%99-yaradilan-asud%c9%99-vaxt-otagi-nin-turizm-laboratoriyasi-nin/

**"Keyfiyyət Siyasəti Bəyannaməsi"** Mingəçevir Turizm Kolleci publik hüquqi şəxsin Pedaqoji Şurasının 14 sentyabr 2022-ci il tarixli qərarı ilə (protokol № 01) təsdiq edilmişdir. Bu siyasət kollecdə daxili keyfiyyət təminatı sisteminin formalaşdırılmasını, tədris prosesinin davamlı inkişafını və təhsil standartlarının yüksəldilməsini əhatə edir.
https://mtk.az/wp-content/uploads/2025/02/KEYFIYYET-SIYASETI-BEYANNAMESI.pdf

Mingəçevir Turizm Kollecinin keyfiyyət təminatı siyasəti kollec fəaliyyətinin hərtərəfli şəkildə inkişafını təmin etməklə, təhsil standartlarının yüksəldilməsinə və kollecin davamlı inkişafına yönəlib. Keyfiyyət təminatı siyasətinin əsas sahələri aşağıdakılardır:

- Kollecin keyfiyyət strategiyasının müəyyənləşdirilməsi;
- Daxili keyfiyyət təminat sisteminin təşkili;
- Kollecdə təhsilin elmi axtarışlarla qarşılıqlı əlaqəsinin təmin edilməsi;
- FBK-ların və digər şöbələrin, eləcə də ayrı-ayrı fərdlərin keyfiyyətin təminatı üçün məsuliyyət daşıması;
- Keyfiyyətin təminatına tələbələrin cəlb edilməsi;
- Müəllimlərin peşə keyfiyyətinin yüksəldilməsinə dəstək;
- Tədrisin keyfiyyəti siyasətinin yerinə yetirilməsi, onun üzərində nəzarət və yoxlanılması yollarının müəyyənləşdirilməsi.

Keyfiyyət siyasətinin əsas prinsipləri kollecin strateji məqsədlərinə uyğun hazırlanmış və bu prinsiplərin icrasında bütün struktur bölmələrinin iştirakı nəzərdə

tutulmuşdur. Sözügedən sənəd kollecin davamlı inkişafının və tədris keyfiyyətinin yüksəldilməsinin əsasını təşkil edir.

Mingəçevir Turizm Kollecinin 20 nəfərdən ibarət pedaqoji və inzibati heyəti Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən təşkil olunan "Sillabusların tərtibi, təlim nəticələrinin formalaşdırılması və qiymətləndirilməsi" və "Daxili keyfiyyət təminatı sisteminin səmərəli təşkili" mövzularında keçirilmiş təlimlərdə iştirak etmişdir .https://mtk.az/?s=%22Sillabuslar%C4%B1n+t%C9%99rtibi

Eyni zamanda Tədrisdə Keyfiyyətin Təminatı şöbəsinin əməkdaşları informasiya texnologiyalarından istifadənin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimlərdə iştirak etmiş və müvafiq sertifikatlarla təltif olunmuşlar.
https://mtk.az/?s=Yasin+Quliyevin

| **Strateji sahə 4.** | **Mingəçevir Turizm Kolleci adının brendləşdirilməsi** |
|---|---|
| **Hədəf 4.1.** | Yeni Loqo, Sloqan və MMV-nin hazırlanması |

Kollecin brendinq strategiyasının yenilənməsi çərçivəsində yeni loqo və sloqanın hazırlanması məqsədilə genişmiqyaslı marketinq araşdırması aparılmışdır. Araşdırma nəticəsində auditoriyanın gözləntiləri təhlil olunaraq, mövcud brend kimliyinin təkmilləşdirilməsinə dair müxtəlif istiqamətlər üzrə təkliflər formalaşdırılmışdır. Bu proses zamanı müvafiq danışıqlar aparılmış, ideyalar səsləndirilmiş və çoxistiqamətli müzakirələr həyata keçirilmişdir.

Aparılmış təhlillərin və müzakirələrin nəticəsi olaraq, kollecin missiyasını və turizm təhsili sahəsindəki strateji prioritetlərini əks etdirən "Turizmə təhsildən başla" sloqanı formalaşdırılmışdır. Yeni sloqan həm təhsil müəssisəsinin inkişaf vizyonunu, həm də turizm sənayesinə peşəkar kadrların hazırlanmasında kollecin mühüm rolunu vurğulayan əsas kommunikasiya elementi kimi çıxış edir.

Sloqanın yaradılması prosesi, kollektivin geniş fikir mübadiləsi və müzakirələri əsasında həyata keçirilmişdir. Bu müzakirələr nəticəsində, sloqan həm cəlbedici, həm də məqsədəuyğun bir ifadə olaraq qəbul edilmişdir. "Turizmə təhsildən başla" sloqanının yaradılması, turizmin inkişafı ilə təhsilin əhəmiyyətini bir-birinə bağlamaq məqsədini daşıyan düşünülmüş bir strateji addımdır. Bu sloqan, turizm sahəsində peşəkar və bilikli kadrların yetişdirilməsi prosesinə diqqət çəkmək və eyni zamanda təhsilin bu sektorda oynadığı əsas rolunu vurğulamaq məqsədini güdür. "Turizmə təhsildən başla" sloqanı, yalnız kollecin fəaliyyət istiqamətini deyil, həm də bu təhsil müəssisəsinin cəmiyyətə və ölkəyə verdiyi töhfəni əks etdirən güclü bir mesajdır.

Mingəçevir Turizm Kollecinin əsas missiyası – ölkənin xidmət və turizm sektorunda fəaliyyət göstərən müəssisələr üçün müxtəlif səviyyəli ixtisaslı kadrlar hazırlamaqla, yerli və xarici turistlərin məmnunluğunu artırmağa yönəlmiş rəqabətqabiliyyətli və müasir tələblərə cavab verən təhsil müəssisəsinə çevrilməkdən ibarətdir. Bu missiyaya uyğun olaraq kollecin məqsədi peşəkar kadrların yetişdirilməsini təmin etmək, keyfiyyətli təhsili təşviq etmək, müasir texnologiyaların tətbiqini genişləndirmək və əmək bazarının tələblərinə uyğun zəruri səriştələri formalaşdıran bir təhsil mühiti yaratmaqdır. Müəyyən edilmiş missiya və məqsədlər çərçivəsində strategiyada aşağıdakı əsas inkişaf hədəfləri müəyyənləşdirilmişdir: kollecdə tədrisin keyfiyyətinin yüksəldilməsi, maddi-texniki bazanın gücləndirilməsi, kadr potensialı və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, təhsil

müəssisəsinin brendləşdirilməsi, təşkilati struktur bölmələrinin hüquqi əsaslarının möhkəmləndirilməsi və maliyyə resurslarının artırılması. Bu hədəflər MTK-nın dayanıqlı inkişafını təmin etməyə və onu ölkənin turizm təhsili sahəsində aparıcı mövqeyə çıxarmağa xidmət edir.

Kollecin yeni ixtisasları barədə məlumatlandırma məqsədilə 2022-ci ilin 11 may tarixindən başlayan Mingəçevir Turizm Kollecinin nümayəndələri tərəfindən ümumtəhsil müəssisələrində görüşlər təşkil edilmişdir. Bu görüşlər səkkiz gün ərzində Mingəçevir şəhərində yerləşən 1, 3, 4, 6, 7, 8, 9, 10, 11, 14, 16 və 17 nömrəli tam orta məktəblərdə, eləcə də şəhər liseyində keçirilmiş və ümumilikdə 1400-dən çox şagird iştirak etmişdir. https://mtk.az/ming%c9%99cevir-turizm-kollecinin-t%c9%99bligat-qrupu-g%c9%99l%c9%99c%c9%99k-potensial-t%c9%99l%c9%99b%c9%99l%c9%99ri-il%c9%99-gorusl%c9%99rini-davam-etdirir/

Eyni zamanda 2023-cü ilin 5 aprel tarixindən Kürdəmir, Zərdab, Göyçay, Gəncə və Ucar şəhərlərində yerləşən məktəblərdə 1800-dən çox şagirdlə görüşlər keçirilmiş sorğular aparılmışdır.
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecinin-t%c9%99bligat-qrupu-g%c9%99l%c9%99c%c9%99k-potensial-t%c9%99l%c9%99b%c9%99l%c9%99ri-il%c9%99-gorusl%c9%99r-t%c9%99skil-edib/

2025-ci ilin 12 aprel tarixindən Zaqatala, Şəki, Qəbələ, Yevlax şəhərləri və Xaldan kənd tam orta məktəbində təxminən 3000-ə yaxın şagirdlə görüşlər keçirilmiş sorğular aparılmışdır.

Keçirilən görüşlər zamanı şagirdlərə kollecin fəaliyyəti, tədris istiqamətləri, yeni açılmış ixtisaslar, mövcud maddi-texniki baza, idarəetmə strukturu və tələbələr üçün yaradılan asudə vaxt imkanları barədə ümumi məlumatlar verilmişdir.

https://mtk.az/?s=t%C9%99bli%C4%9Fat

Sosial İnteqrasiya və Təbliğat fəaliyyəti çərçivəsində Mingəçevir Turizm Kolleci publik hüquqi şəxsi bir sıra yerli və regional tədbirlərdə fəal iştirak etmişdir. Kollec Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Məşğulluq Agentliyinin Mərkəzi Aran Regional Məşğulluq filialı və Mingəçevir Gənclər Evi Sosial Xidmət Müəssisəsi ilə birgə təşkil olunan əmək yarmarkasında, eləcə də Mingəçevir Dövlət Universiteti, HBN Group və Azərbaycan–Türkiyə İş Adamları Birliyinin təşkilatçılığı ilə Mingəçevir şəhərində keçirilmiş Regional Universitet–Sənaye Birliyi Sammitində təmsil olunmuşdur.

Bununla yanaşı, kollecin “Təbliğat qrupu”nun üzvləri tərəfindən Astara rayonunda Elm və Təhsil Nazirliyi, Astara Rayon İcra Hakimiyyəti, Lənkəran-Astara Regional Təhsil İdarəsi, Lənkəran Regional Mədəniyyət İdarəsi və Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin təşkilatçılığı ilə keçirilmiş festivalda iştirak edilmişdir. Festival çərçivəsində Mingəçevir Turizm Kolleci son illərdə qazandığı təhsil, idman, intellektual və digər nailiyyətlərdən ibarət sərgi ilə təmsil olunmuş, kollecin stendində sertifikatlar, tələbələrin uğurları, idman formaları və kuboklar nümayiş etdirilmişdir.

Tədbirlər zamanı kollecin tanıdılması məqsədilə ümumilikdə 2 796 ədəd buklet, 5 909 ədəd flayer, 150 ədəd bloknot və 50 ədəd fincan paylanmışdır. Göstərilən çap və promo-materiallar iştirak olunan təbliğat tədbirlərində, əmək yarmarkalarında, orta məktəblərdə aparılan maarifləndirmə görüşlərində, eləcə də gedilən təcrübə müəssisələrinə hədiyyə

| |
|---|
| məqsədilə təqdim edilmişdir.<br>https://mtk.az/ming%c9%99cevir-turizm-kolleci-publik-huquqi-s%c9%99xsi-24-oktyabr-2025-ci-il-tarixind%c9%99-ming%c9%99cevir-s%c9%99h%c9%99rind%c9%99-keciril%c9%99n-regional-universitet-s%c9%99naye-birliyi-sa/<br>https://mtk.az/ming%c9%99cevir-turizm-kolleci-publik-huquqi-s%c9%99xsi-%c9%99halinin-m%c9%99sgullugunun-artirilmasi-m%c9%99qs%c9%99dil%c9%99-t%c9%99skil-olunan-%c9%99m%c9%99k-yarmarkasinda-f%c9%99al-istirak-edib/<br>https://mtk.az/16-aprel-2025-ci-il-tarixind%c9%99-ming%c9%99cevir-turizm-kollecinin-t%c9%99bligat-qrupunun-uzvl%c9%99ri-kollecin-f%c9%99aliyy%c9%99ti-v%c9%99-movcud-ixtisaslarin-tanitimi-m%c9%99qs%c9%99dil%c9%99/<br>https://mtk.az/ming%c9%99cevir-turizm-kollecinin-direktoru-kamal-%c6%8fhm%c9%99dov-v%c9%99-karyera-kommunikasiya-sob%c9%99sinin-%c9%99m%c9%99kdaslari-astarada-elm-v%c9%99-t%c9%99hsil-nazirliyi-astara-rayon-ic/ |

| **Strateji sahə 4.** | **Mingəçevir Turizm Kolleci adının brendləşdirilməsi** |
|---|---|
| **Hədəf 4.2.** | Kollecin rəsmi saytının hazırlanması |

Mingəçevir Turizm Kollecinin rəsmi internet resursunun eskiz layihəsi hazırlanmış, layihə kollektiv daxilində müzakirə olunaraq səsləndirilən rəy və təkliflər əsasında təkmilləşdirilmişdir. Nəticə etibarilə, 2021-ci ildən etibarən kollecin rəsmi internet saytı (https://mtk.az) fəaliyyətə başlamışdır. Sözügedən veb-sayt vasitəsilə kollecin təhsil sahəsindəki yenilikləri, tədris proqramları, ixtisaslar və həyata keçirilən müxtəlif tədbirlər geniş auditoriyaya təqdim olunmuş, tələbələr və maraqlanan şəxslər üçün etibarlı və əhəmiyyətli informasiya mənbəyi formalaşdırılmışdır.

Mingəçevir Turizm Kollecinin adının brendləşdirilməsi, ictimaiyyət arasında tanıdılması və müsbət imicinin formalaşdırılması məqsədilə informasiya-kommunikasiya fəaliyyəti sistemli şəkildə həyata keçirilir. Kollecin fəaliyyəti ilə bağlı mühüm məlumatlar mütəmadi olaraq rəsmi internet saytı və sosial şəbəkə hesablarında yerləşdirilir, bu platformaların aktivliyi davamlı şəkildə təmin olunur.

Bununla yanaşı, kollecin fəaliyyəti üçün əhəmiyyət kəsb edən məlumatlar müxtəlif xəbər saytlarında da paylaşılır. Həmin materiallarda kollecin təşkil etdiyi tədbirlər, icra olunan layihələr, yeniliklər və elanlar əks olunmaqla, ictimaiyyətin məlumatlandırılması təmin edilir. Bu fəaliyyət kollecin daha geniş auditoriya tərəfindən tanınmasına, təhsil sahəsində əldə etdiyi nailiyyətlərin nümayiş etdirilməsinə və gənclərin peşə təhsilinə marağının artırılmasına xidmət edir.

Kollecin rəsmi internet saytında təhsil müəssisəsi haqqında ümumi məlumatlar, struktur bölmələri, ixtisaslar, elektron kitabxana, elanlar və digər funksional bölmələr fəaliyyət göstərir. Sayt vasitəsilə tələbələr, valideynlər və digər maraqlı tərəflər üçün əlçatan, dolğun və aktual informasiya mühiti yaradılmışdır.

Hazırda sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə direktor müavini vəzifəsinin vakant olması səbəbindən bu sahə müvəqqəti olaraq digər direktor müavininin nəzarəti altında icra olunur. Rəsmi sayt və sosial media hesabları ilə bağlı məzmunun hazırlanması, yerləşdirilməsi, yenilənməsi və ictimaiyyətə təqdim olunması tədris işləri üzrə direktor müavininin nəzarəti altında mədəni-kütləvi tədbirlər üzrə təşkilatçı tərəfindən həyata keçirilir.

MTK-nın rəsmi saytı ilə yanaşı, ictimaiyyətin məlumatlandırılmasında rəsmi sosial şəbəkə hesablarından və KİV-dən istifadə edilir. MTK-nın sosial şəbəkə hesabları aşağıdakılardır:

İnstagram hesabı: https://www.instagram.com/mingachevirtourismcollege/

Facebook hesabı: https://www.facebook.com/mingachevirtourismcollege/

YouTube hesabı: https://www.youtube.com/channel/UCNRjr4qmErH1oQCQ_vHzhlg




| | |
|---|---|
| **Strateji sahə 4.** | **Mingəçevir Turizm Kolleci adının brendləşdirilməsi** |
| **Hədəf 4.3.** | İctimaiyyətlə əlaqə və mətbuat şöbəsinin yaradılması |

Mingəçevir Turizm Kollecində tədris və tərbiyə prosesinin səmərəli təşkili, eləcə də tələbələrin asudə vaxtlarının faydalı keçirilməsinin təmin edilməsi məqsədilə müxtəlif təlimlər və mədəni-kütləvi tədbirlər həyata keçirilmişdir. Bu istiqamətdə təşkilati işlərin əlaqələndirilməsi məqsədilə 2021–2023-cü illər ərzində Karyera və Kommunikasiya Şöbəsi fəaliyyət göstərmiş, şöbənin işinin təşkili üçün mətbuat işçisi, İT mütəxəssisi və mədəni-kütləvi tədbirlər üzrə təşkilatçı cəlb olunmuşdur.

Aparılmış təhlillər nəticəsində müəyyən edilmişdir ki, "Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nda Karyera və Kommunikasiya Şöbəsinin idarəetmə strukturunun rəsmi şəkildə təsbit olunmaması, habelə, müvafiq normativ sənədlərdə şöbə üzrə ştat vahidlərinin nəzərdə tutulmaması səbəbindən yeni ştat vahidlərinin açılmasına icazə verilməmişdir. Bu məqsədlə aidiyyəti dövlət və tənzimləyici qurumlara müraciətlər edilsə də, şöbənin fəaliyyətinin davam etdirilməsinə müsbət rəy verilməmiş və nəticə etibarilə 2023-cü ildə Karyera və Kommunikasiya Şöbəsinin fəaliyyəti dayandırılmışdır.

Dövlət Turizm Agentliyi tərəfindən təsdiq edilmiş kollecin ştat cədvəlinin icrası haqqında 07.01.2024-cü il tarixli, 3-46-13/3-1-01/2024 nömrəli əmrə əsasən İnsan Resurslarının idarə olunması şöbəsinin arxiv müdiri vəzifəsi ləğv edilmiş, əvəzində Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə direktor müavini vəzifəsi yaradılmışdır. Lakin kadr çatışmazlığı səbəbindən qeyd olunan vəzifə üzrə kadr təyini həyata keçirilməmiş, bununla əlaqədar olaraq tələbələrin intizam qaydalarına riayət etməsinin təmin edilməsi, eləcə də bədii-kütləvi tədbirlərin təşkili və idarə olunması məqsədilə məsul şəxsin müəyyən edilməsi zərurəti yaranmışdır. Hazırda tələbələrin sosial, mədəni və maarifləndirici

fəaliyyətləri tədris işləri üzrə direktor müavininin nəzarəti altında mədəni-kütləvi tədbirlər üzrə təşkilatçı və İT mütəxəssisi (mühəndis-proqramlaşdırıcı) tərəfindən icra olunur. Fəaliyyətlər hər tədris ili üçün təsdiq edilmiş iş planına uyğun olaraq həyata keçirilir.

Hesabat dövründə təşkil olunmuş tədbirlərə dövlət bayramları və anım günləri ilə bağlı tədbirlər, əmək yarmarkaları, maarifləndirici görüşlər, tələbə və məzunlar üçün karyera yönümlü təlimlər, ekskursiyalar, müəssisələrə səfərlər, sənaye nümayəndələri ilə görüşlər, tələbələrin peşəkar və fərdi inkişafını dəstəkləyən seminarlar, eləcə də könüllülük fəaliyyətlərinin təşviqi daxildir. Bununla yanaşı, konfranslar, elmi seminarlar, simpoziumlar, turnirlər, olimpiadalar, tanınmış şəxslərlə görüşlər və sənaye müəssisələri ilə əməkdaşlıq müqavilələrinin və anlaşma memorandumlarının imzalanması kimi tədbirlər də həyata keçirilmişdir.

Həyata keçirilən fəaliyyətlər mütəmadi olaraq kollecin rəsmi internet saytında və informasiya resurslarında işıqlandırılmışdır. Kollecdə informasiya-kommunikasiya texnologiyalarının fasiləsiz fəaliyyəti də təmin edilmişdir. MTK-nın binasında mərkəzi server otağı mövcuddur və serverlərin təhlükəsiz, stabil və fasiləsiz işlək vəziyyətdə saxlanılmasına İT mütəxəssisi (mühəndis-proqramlaşdırıcı) tərəfindən nəzarət olunur.

https://mtk.az/?s=t%C9%99dbirl%C9%99r
https://mtk.az/?s=novruz
https://mtk.az/?s=m%C9%99zun
https://mtk.az/?s=an%C4%B1m+g%C3%BCn%C3%BC
https://mtk.az/?s=t%C9%99liml%C9%99r
https://mtk.az/?s=debat+
https://mtk.az/?s=yar%C4%B1%C5%9Flar
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecinin-t%c9%99s%c9%99bbusu-v%c9%99-ming%c9%99cevir-g%c9%99ncl%c9%99r-evinin-t%c9%99skilatciligi-il%c9%99-bu-gun-yasadigimiz-must%c9%99qil-az%c9%99rbaycan-respublikasinin-qur/

| **Strateji sahə 5.** | **Kollecin təşkilati struktur bölmələrinin hüquqi bazasının gücləndirilməsi** |
|---|---|
| **Hədəf 5.1.** | Kollecin struktur bölmələrinin hüquqi bazasının gücləndirilməsi |

Strateji inkişaf planının əsas istiqamətlərindən biri kimi Mingəçevir Turizm Kollecində idarəetmə, tədris və inzibati proseslərin hüquqi baxımdan tənzimlənməsi, eləcə də normativ-hüquqi bazanın müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsi məqsədilə hüquqşünas fəaliyyətinin təşkili təmin edilmişdir. Hüquqşünas tərəfindən kollecdə hüquqi təminatın sistemli şəkildə qurulması və davamlılığının təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Hüquqşünasın fəaliyyəti çərçivəsində kollecin struktur bölmələrinin fəaliyyəti, əmək münasibətləri, normativ sənədlərin hazırlanması, müqavilə münasibətləri, habelə dövlət və yerli icra hakimiyyəti orqanları ilə hüquqi yazışmalar mütəmadi və planlı şəkildə icra olunmuşdur.

https://mtk.az/wp-content/uploads/2025/09/Struktur-sxemi.pdf

Kollecin ştat cədvəlinə uyğun vəzifələr, struktur bölmələrinin funksional fəaliyyətini tənzimləyən normativ sənədlər strukturda baş vermiş dəyişikliklər nəzərə alınmaqla yenidən işlənmiş, hüquqi ekspertizadan keçirilmiş və 01 mart 2023-cü il tarixli 26§3 nömrəli direktor əmri ilə təsdiq edilmişdir. Təsdiq edilmiş struktur əsasında Mingəçevir

Turizm Kollecində ali idarəedici orqan kimi Pedaqoji Şuranın fəaliyyəti hüquqi çərçivədə müəyyən edilmişdir.
https://mtk.az/wp-content/uploads/2025/02/PEDAQOJI-SURANIN-KECIRILMESI-HAQQINDA-QAYDALAR.pdf

Hüquqşünas tərəfindən Tədris Şöbəsi və İnsan Resursları Şöbəsinə dair Əsasnamələr hazırlanmış və Pedaqoji Şuranın 28 sentyabr 2021-ci il tarixli qərarı (Protokol №1) ilə təsdiq edilmişdir. Həmin normativ sənədlər kollecdə təhsil, kadr və idarəetmə proseslərinin hüquqi əsaslarının formalaşdırılmasında mühüm rol oynamışdır. Hüquqşünasın iştirakı ilə struktur bölmələrinin illik iş planları hüquqi baxımdan təhlil edilmiş, qanunvericiliyin tələblərinə uyğunluğu yoxlanılmış, habelə müvafiq şöbələr üzrə keçirilən iclasların protokollaşdırılması və hüquqi sənədləşdirilməsi təmin olunmuşdur. Dövlət və yerli qurumlarla hüquqi yazışmalar hüquqşünasın iştirakı ilə həyata keçirilmiş, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi, Dövlət Sosial Müdafiə Fondu, Mingəçevir Şəhər İcra Hakimiyyəti, Mingəçevir Şəhər Polis Şöbəsi və digər aidiyyəti qurumlara məktublar, arayışlar və hesabatlar hazırlanaraq təqdim edilmişdir.

Tədris prosesinin hüquqi təminatı çərçivəsində imtahanların keçirilmə qaydalarına əsasən Mingəçevir Turizm Kollecində tədris prosesində obyektivliyin və şəffaflığın artırılması məqsədilə test formasında keçirilən imtahanlarda sualların bəzən sadə və primitiv tərtib olunması, mövzularla tam uyğunluq təşkil etməməsi, eləcə də imtahanların təşkili üçün zəruri maddi-texniki resursların kifayət etməməsi nəzərə alınaraq imtahanların yazılı formada keçirilməsi barədə qərar qəbul edilmişdir. Yeni imtahan mexanizminə uyğun olaraq imtahan biletlərinin hazırlanması, nömrələnməsi, zərflənməsi, saxlanılması və qriflənməsi, habelə cavab vərəqlərinin ştamplanması və kodlaşdırılması İmtahan Qərargahının nəzarəti altında həyata keçirilir. Yazılı cavablar imtahandan sonra 1 (bir) iş günü ərzində yoxlanılaraq qiymətləndirilir və daha sonra şifrələrin açılması məqsədilə yenidən İmtahan Qərargahına təqdim olunur. İmtahan nəticəsindən narazı qalan tələbələr üçün apellyasiya mexanizmi nəzərdə tutulmuşdur və nəticələrin elan edildiyi tarixdən etibarən 3 (üç) iş günü ərzində apellyasiya ərizəsi ilə müraciət etmək imkanı yaradılmışdır. Tətbiq edilən yeni imtahan forması imtahan suallarının standartlaşdırılması, qiymətləndirmə meyarlarının əvvəlcədən müəyyən edilməsi və nəticələrin açıq şəkildə elan olunması prinsiplərinə əsaslanaraq tədris prosesində şəffaflığın və etimad mühitinin gücləndirilməsinə xidmət edir.

https://mtk.az/wp-content/uploads/2025/02/MTK.T%C9%99dris-sob%C9%99sinin-ESASNAMESI.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/T%C9%99dris-sob%C9%99sinin-2024-2025-ci-t%C9%99dris-ili-ucun-IS-PLANI.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/MTK.Insan-resurslari-sob%C9%99si-haqqinda-ESASNAME.pdf

Hesabat dövründə fəaliyyət planına uyğun olaraq hüquqşünas tərəfindən kollecdə normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Bu çərçivədə təhsil prosesinin təşkili, tələbə və valideynlərlə işin tənzimlənməsi, psixoloji xidmətin göstərilməsi, sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlbi, istehsalat təcrübəsinin təşkili, eləcə də əmək münasibətlərinin hüquqi

əsaslarının müəyyənləşdirilməsi məqsədilə müvafiq **əsasnamə, qayda və daxili prosedurlar** hazırlanmış, Pedaqoji Şuranın qərarı ilə təsdiq edilmiş və kollecin rəsmi internet saytının “Sənədlər” bölməsində hər bir sənədin skan edilmiş nüsxəsi yerləşdirilmişdir.

### I. BƏYANNAMƏLƏR

1. Mingəçevir Turizm Kollecinin Strateji Bəyannaməsi
2. Mingəçevir Turizm Kollecinin Keyfiyyət Siyasəti Bəyannaməsi

### II. ƏSASNAMƏLƏR

1. “Tələbə Həmkarlar İttifaqı Komitəsi”nin Əsasnaməsi
2. “Valideyn Şurası”nın Əsasnaməsi
3. “Məşvərət Şurası” haqqında Əsasnamə
4. MTK-nın “Tədrisdə Keyfiyyətin Təminatı şöbəsi haqqında Əsasnamə
5. MTK-nın “İstehsalat Təcrübəsi haqqında” Əsasnaməsi
6. MTK. İnsan Resursları şöbəsi haqqında Əsasnamə
7. MTK. Tədris şöbəsinin Əsasnaməsi
8. MTK. Ümumi şöbə haqqında Əsasnamə
9. Karyera Mərkəzi haqqında Əsasnamə
10. Orta ixtisas dövlət təhsili müəssisələrində Fənn Birləşmə Komissiyaları haqqında Əsasnamə
11. MTK və Mingəçevir şəhəri üzrə ali, orta və ümumtəhsil müəssisələri arasında keçirilən “BİLİK” yarışının Əsasnaməsi

### III. QAYDALAR

1. Qiymətləndirmə və imtahanların keçirilməsi qaydaları
2. Mingəçevir Turizm Kollecində kitabxanadan istifadə qaydaları
3. Məlumatların mediada paylaşılması qaydaları
4. Mingəçevir Turizm Kollecində sərbəst işlərin yerinə yetirilməsi qaydaları
5. Əlavə təhsilə qəbul qaydaları
6. Pedaqoji şuranın keçirilməsi haqqında qaydalar
7. Təlim prosesinin monitorinqinin təşkili qaydaları
8. Yay semestrinin təşkili və keçirilməsi ilə bağlı qaydalar
9. Psixoloji xidmətin göstərilməsi haqqında qaydalar
10. Sağlamlıq imkanları məhdud şəxslərin orta ixtisas təhsil müəssisələrində təhsili (xüsusi təhsil) haqqında qaydalar
11. Tələbələrin intizam qaydaları
12. MTK-nın daxili nizam-intizam qaydaları
13. Vətəndaş müraciətlərinə baxılması qaydaları
14. İnzibati heyətin monitorinq və qiymətləndirilməsi qaydaları
15. MTK əməkdaşlarının korporativ geyim forması haqqında qaydalar

## IV. PROSEDURLAR

1. Əmək haqqının hesablanması proseduru
2. Təqaüdlərin hesablanması, təqaüd kartlarının sifarişi və ödənişlərin icrası proseduru
3. Rəy sorğularının təşkili proseduru
4. Əməkdaşların motivasiyası haqqında prosedur

## V. TƏLİMATLAR

1. Kargüzarlığın aparılmasına dair təlimat
2. Blum taksonomiyasının tətbiqinə dair akademik heyət üçün təlimat
3. İşçi tədris proqramının tərtib olunmasına dair akademik heyət üçün təlimat
4. İxtisas üzrə kompetensiyalar xəritəsinin hazırlanmasına dair təlimat
5. Prosedur sənədlərin hazırlanması barədə təlimat
6. Məlumatların mediada paylaşılmasına dair təlimat

https://mtk.az/t%c9%99drisd%c9%99-keyfiyy%c9%99tin-t%c9%99minati-sob%c9%99si/
https://mtk.az/d%c9%99ft%c9%99rxana/
https://mtk.az/t%c9%99dris-sob%c9%99si/
https://mtk.az/muhasibatliq/
https://mtk.az/insan-resurslarinin-idar%c9%99olunmasi-sob%c9%99si/

Struktur rəhbərləri məsul olduğu şöbənin əməkdaşlarının vəzifə təlimatları yenilənmiş, müvafiq dəyişikliklər edildikdən sonra baş hüquqşünasla razılaşdırmışlar. AR-nın Əmək Qanunvericiliyinə uyğun olaraq (https://e-qanun.az/framework/37434) MTK-nın struktur bölmələri üzrə işçilərinin vəzifə təlimatları təkmilləşdirilərək direktorun əmri ilə təsdiq edilmişdir.

MTK-nın işçilərinin vəzifə təlimatları yuxarıda göstərilən linkdə qeyd olunan “Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”na uyğunlaşdırılmış, AR Əmək Məcəlləsinin 57-ci maddəsinə müvafiq olaraq müəyyənləşdirilmişdir: https://e-qanun.az/framework/46943

Mingəçevir Turizm Kollecində fövqəladə hallar, mülki müdafiə qərargahının fəaliyyəti, əməyin mühafizəsi və texniki təhlükəsizliyin təmin olunması məqsədilə müvafiq hüquqi sənədlərin hazırlanması istiqamətində zəruri addımlar atılmışdır. Bu çərçivədə qərargahın funksionallığının artırılması və təxirəsalınmaz vəziyyətlərdə effektiv idarəetmə üçün hüquqi baza yaradılmış, əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarının tətbiqinə dair hüquqi sənədlər yenillənərək əmirləşdirilmişdir.

Mingəçevir Turizm Kollecində mülki müdafiənin təşkili, mülki müdafiə qüvvələrinin və tədris qruplarının yaradılması, Fövqəladə Hallar və Yanğından Mühafizə komissiyalarının formalaşdırılması, operativ nəzarət üzrə məsul şəxsin təyin edilməsi, həmçinin yanğın təhlükəsizliyi, əməyin mühafizəsi və texniki təhlükəsizlik üzrə işlərin təşkili ilə bağlı əmr hər ilin əvvəlində direktor tərəfindən təsdiq edilir.

2021-ci il, 2 noyabr tarixində Mingəçevir Turizm Kollecinin pedaqoji heyəti üçün mina təhlükəsizliyi, partlamamış hərbi sursatlar (PHS) və digər mümkün təhlükələrə qarşı

maarifləndirmə işləri və təhlükəsizlik tədbirlərinin təbliği məqsədilə təlim təşkil olunmuşdur. Təlimin əsas məqsədi, kollecin əməkdaşlarına təhlükəsizlik məsələlərində daha yüksək səviyyədə məlumat və təcrübə qazandırmaq, eyni zamanda ətraf mühitdə və müxtəlif vəziyyətlərdə təhlükəsizlik qaydalarına riayət etməyin vacibliyini vurğulamaq idi.

Mingəçevir Turizm Kollecində 29 aprel 2025-ci il tarixində "Əhalinin fövqəladə hallar zamanı mühafizəsinin təşkili" mövzusunda nümunəvi dərs təşkil olunub. Nümunəvi dərsdə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Aran Regional Mərkəzinin nümayəndələri iştirak edib.
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-1-mart-umumdunya-mulki-mudafi%c9%99-gunun%c9%99-h%c9%99sr-edilmis-maarifl%c9%99ndirici-t%c9%99dbir-kecirilib/
https://mtk.az/11-yanvar-2024-cu-il-tarixd%c9%99-ming%c9%99cevir-turizm-kollecinin-t%c9%99l%c9%99b%c9%99l%c9%99rin%c9%99-d%c9%99m-qazi-t%c9%99hluk%c9%99si-onun-qarsisinin-alinmasi-v%c9%99-t%c9%99hluk%c9%99sizlik-t/
https://mtk.az/15-noyabr-2022-ci-il-tarixind%c9%99-fhn-nin-dovl%c9%99t-yangin-n%c9%99zar%c9%99ti-xidm%c9%99tinin-aran-regional-dovl%c9%99t-yangin-n%c9%99zar%c9%99ti-idar%c9%99sinin-%c9%99m%c9%99kdaslari/
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-t%c9%99l%c9%99b%c9%99l%c9%99rin-mulki-mudafi%c9%99-sah%c9%99sind%c9%99-maarifl%c9%99ndirilm%c9%99si-m%c9%99qs%c9%99dil%c9%99-gorus-t%c9%99skil-olunub/
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-29-aprel-2025-ci-il-tarixind%c9%99-ehalinin-fovq%c9%99lad%c9%99-hallar-zamani-muhafiz%c9%99sinin-t%c9%99skili-movzusunda-numun%c9%99vi-d%c9%99rs-t%c9%99skil/

Bununla yanaşı, hüquqşünasın hüquqi müşayiəti ilə tələbələr üçün maarifləndirici tədbirlərin keçirilməsi təmin olunmuş, zərərli vərdişlərdən qorunma, sağlam həyat tərzinin təşviqi, imtahan həyəcanı, erkən nikah və gender bərabərliyi, yanğın və mülki müdafiə qaydaları, insan hüquqları və təhlükəsizlik mövzuları və s. mövzularında seminar və görüşlərin təşkili hüquqi baxımdan sənədləşdirilmişdir.

Təlim və görüşlər dövlət qurumlarının nümayəndələri, hüquqşünaslar, polis əməkdaşları, səhiyyə mütəxəssisləri və ictimai birliklərin təmsilçilərinin iştirakı ilə təşkil edilmişdir. Tədbirlər zamanı tələbə və işçilərə mövzular üzrə sadə və anlaşılan formada məlumatlar verilmiş, onların sualları cavablandırılmışdır. Eyni zamanda, hüquqi və maarifləndirici çap materialları paylanmışdır.
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-7-mart-2025-ci-il-tarixind%c9%99-z%c9%99r%c9%99rli-v%c9%99rdisl%c9%99r-v%c9%99-alud%c9%99cilik-movzusunda-maarifl%c9%99ndirici-t%c9%99lim-kecirilib/
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-6-noyabr-2025-ci-il-tarixind%c9%99-usaq-huquqlari-ayligi-c%c9%99rciv%c9%99sind%c9%99-usaq-huquqlarinin-qorunmasi-movzusunda-t/
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-dovl%c9%99t-em%c9%99k-muf%c9%99ttisliyi-numay%c9%99nd%c9%99si-salman-zeynalov-v%c9%99-

em%c9%99yin-muhafiz%c9%99si-m%c9%99rk%c9%99zind%c9%99n-m%c9%99din%c9%99-mir/
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-t%c9%99l%c9%99b%c9%99l%c9%99rin-mulki-mudafi%c9%99-sah%c9%99sind%c9%99-maarifl%c9%99ndirilm%c9%99si-m%c9%99qs%c9%99dil%c9%99-gorus-t%c9%99skil-olunub/
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-insan-huquqlari-ayligi-c%c9%99rciv%c9%99sind%c9%99-22-may-2025-ci-il-tarixind%c9%99-g%c9%99ncl%c9%99rin-is-dunyasinda-ilk-addimi-em%c9%99k-hu/
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecind%c9%99-6-noyabr-2024-cu-il-tarixind%c9%99-usaq-huquqlari-ayligi-c%c9%99rciv%c9%99sind%c9%99-usaq-huquqlarinin-qorunmasi-movzusunda-t/

Strateji planda müəyyən edilmiş hədəflərə nail olunması məqsədilə hüquqi maneələrin aradan qaldırılması istiqamətində fəaliyyət planına uyğun olaraq zəruri tədbirlər həyata keçirilmişdir. Bu çərçivədə Mingəçevir Turizm Kollecinə publik hüquqi şəxs statusunun verilməsini nəzərdə tutan Nizamnamə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin 11 saylı Ərazi Vergilər Baş İdarəsi tərəfindən 10 avqust 2021-ci il tarixində 2700277861 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır. Nizamnamə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən 26 iyul 2021-ci il tarixli Qərar № 03 əsasında Agentliyin sədri cənab Fuad Nağıyev tərəfindən təsdiq edilmişdir. Qeyd olunan hüquqi tədbirlər kollecin institusional fəaliyyətinin gücləndirilməsinə və strateji hədəflərin icrasına hüquqi əsas yaratmışdır.

Mingəçevir Turizm Kollecində tələbələrin hüquqlarının, vəzifələrinin və əməl etmələri vacib olan daxili intizam qaydalarının tənzimlənməsi 28 sentyabr 2021-ci il tarixində təsdiq edilmiş “Tələbələrin intizam qaydaları” əsasında həyata keçirilir. Sözügedən qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 dekabr 2013-cü il tarixli, 354 nömrəli “Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları” əsaslanaraq hazırlanmış (https://e-qanun.az/framework/27067) kollecin fəaliyyətini və tələbələrin gündəlik həyatını nizama salan əsas normativ sənəd rolunu oynayır.

“Tələbələrin intizam qaydaları” aşağıdakı əsas istiqamətləri əhatə edir:

1. Tələbələrin hüquq və vəzifələri;
2. Tədris intizamının pozulmasına görə məsuliyyət tədbirləri.

Bu qaydalar yalnız tədris prosesini deyil, eyni zamanda tələbələrin kollecdəki ümumi fəaliyyətini, davranış normalarını və daxili prosedurlara riayət olunmasını tənzimləyir. Qaydalar tələbələrin dərsə davamiyyəti, auditoriya və laboratoriya məşğələlərində iştirakı, kollecin əməkdaşları və digər tələbələrlə qarşılıqlı münasibətləri kimi bütün əsas aspektləri əhatə edir. Bununla yanaşı, kollecin daxili strukturu ilə bağlı tələblər və prosedurlar da bu sənəddə öz əksini tapmış və tələbələrin kollektivdə qarşılıqlı hörmət, əməkdaşlıq və məsuliyyət prinsiplərinə uyğun fəaliyyət göstərməsini təmin etmişdir.
Tələbələrin daxili intizam qaydaları və hüquq-vəzifələri barədə məlumatlılığının artırılması məqsədilə “Tələbənin Yaddaş Kitabçası” hazırlanmışdır. Bu kitabçada tələbələrin hüquq və vəzifələri, akademik davranış qaydaları, kollecdaxili prosedurlar və sosial fəaliyyətlərlə bağlı əsas məlumatlar ətraflı şəkildə təqdim edilmişdir.

Bundan əlavə, tələbə qəbulu zamanı, xüsusilə ilk tədris ilində, tələbə və valideynlərlə kollec və təhsil alanlar arasında “təhsil almaq haqqında Müqavilə” bağlanılır. Kollecə qəbul olunan hər bir tələbəyə kollecin fəaliyyəti haqqında məlumat əldə etməsi məqsədilə kollec broşürləri ilə yanaşı “Tələbənin Yaddaş Kitabçası” da təqdim edilir.

Bu məqsədlə tələbələr kollecdə qeydiyyata alınarkən və kolleclə müqavilə bağlayarkən daxili intizam qaydaları ilə tanış edilmiş, “Tələbənin Yaddaş Kitabçası”nın bir nüsxəsi hər bir tələbəyə təqdim olunmuşdur.
https://mtk.az/wp-content/uploads/2025/02/T%C9%99l%C9%99b%C9%99nin-Itizam-Qaydalari.pdf

| | |
|---|---|
| **Strateji sahə 6.** | **Kollecin maliyyə resurslarının artırılması** |
| **Hədəf 6.1.** | Tələbə, müəllim və adi vətəndaşlar üçün ödənişli xidmətlərin yaradılması |

“Orta məktəb şagirdləri üçün ödənişli kursların yaradılması nəzərdə tutulsa da, Kollecin binası Elm və Təhsil Nazirliyinin tabeliyində olub icarə müqaviləsi əsasında istifadə edildiyindən bu fəaliyyətin icrası mümkün olmamışdır.”

Xarici dil bacarıqlarını artırmaq və Türkiyədə təcrübə keçmək üçün müraciət edən tələbələrin dil biliklərini inkişaf etdirmək məqsədilə kollec-daxili **ödənişsiz danışıq klubları (Conversation Clubs)** təşkil olunmuşdur. Bu klublar tələbələrin qrammatika biliklərini, söz ehtiyatını və gündəlik danışıq bacarıqlarını təkmilləşdirmələri üçün effektiv platforma rolunu oynamışdır. Tələbələr klublarda müxtəlif mövzularda sərbəst şəkildə danışaraq xarici dil biliklərini praktik olaraq tətbiq etmiş, eyni zamanda mədəniyyətlərarası kommunikasiya bacarıqlarını inkişaf etdirmişlər.

Sözügedən klublar Əliyeva Ülkər, Mahmudova Aliyə, Rzazadə Ətlas və Nəsibova Şəfəq müəllimlər tərəfindən aparılmışdır. **2024/2025-ci tədris ilində 18 nəfər**, **2025/2026-cı tədris ilində isə 26 nəfər** tələbə xarici dil biliklərini təkmilləşdirmək məqsədilə bu kurslarda iştirak etmişdir. Conversation Clubs üçün xüsusi cədvəl tərtib edilmiş və məşğələlər tələbələrin dərs cədvəlinə uyğun saatlarda təşkil olunmuşdur.

Bundan əlavə, hər bir ixtisas üzrə təhsil proqramlarında ümumi və peşə kompetensiyalarının əldə edilməsi məqsədilə nəzərdə tutulan fənlərin mənimsənilməsi üçün istifadə olunan tədris metodları xüsusi olaraq nəzəriyyə və praktika arasında uyğunluq yaradacaq şəkildə seçilir. Kollecdə tədris olunan kurslar üzrə həm nəzəri, həm də praktiki biliklərin mənimsənilməsinin möhkəmləndirilməsi məqsədilə müxtəlif innovativ yanaşmalar tətbiq edilir. Məsələn, sənaye üzvlərinin iştirakı ilə keçirilən ustad dərsləri tələbələrin bilik və bacarıqlarını təkmilləşdirmək üçün böyük əhəmiyyət daşıyır. Bu ustad dərsləri tələbələrə real dünyada qarşılaşa biləcəkləri məsələlərlə bağlı təcrübə qazanmağa və nəzəriyyəni praktikada tətbiq etməyə imkan verir.
https://mtk.az/?s=El%C5%9F%C9%99n+Muradov+ustad+d%C9%99rs
https://mtk.az/?s=Tural+K%C9%99rimov+ustad+d%C9%99rs
https://mtk.az/?s=Ceyhun+Sabirli
https://mtk.az/?s=Fariz+Qarayev+%22Aqroturizmin+%C9%99saslar%C4%B1%22
https://mtk.az/?s=El%C5%9Fad+Abbasov+
https://mtk.az/?s=K%C9%99nan+H%C9%99nif%C9%99yev

Kollec daxilində tələbələr və əməkdaşlar üçün iaşə xidmətinin təşkili məqsədilə yeməkxananın fəaliyyəti bərpa edilmişdir. Mingəçevir Turizm Kollecində hazırda 25 nəfərlik bufet fəaliyyət göstərir. Bufetin fəaliyyətinə nəzarət Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən həyata keçirilir. Bufetdə tələbə və əməkdaşlar üçün

çay, şirniyyat və digər qida məhsulları satışa təqdim olunur.

Eyni zamanda, əməkdaşların nahar vaxtından daha səmərəli istifadə etmələrinin təmin edilməsi məqsədilə Kollecin binasının II mərtəbəsində 20–25 nəfərin eyni vaxtda nahar etməsi üçün nəzərdə tutulmuş, ödənişsiz xidmət göstərən nahar otağı təşkil edilmişdir. Sözügedən otaq saat 13:00-dan 15:00-dək fəaliyyət göstərir və əməkdaşların istifadəsi üçün zəruri mətbəx ləvazimatları, həmçinin isidici avadanlıqlar (mikrodalğalı soba, toster və s.) ilə təchiz olunmuşdur.

| **Strateji sahə 6.** | **Kollecin maliyyə resurslarının artırılması** |
|---|---|
| **Hədəf 6.2.** | Təhsilin inkişafı naminə layihələrdən vəsaitlərin və ianələrin əldə olunması |

Bu istiqamətdə Dövlət Turizm Agentliyi (DTA) ilə birlikdə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına (UNDP) təqdim edilmiş təkliflər çərçivəsində "Turizm ixtisasları üzrə laboratoriya" otağı yaradılmışdır. Bu mərkəzin fəaliyyəti turizm sahəsində təhsil alan tələbələrin müasir təhsil metodları və texnologiyalardan istifadə edərək daha geniş bilik və bacarıqlar qazanmasına yönəlmişdir. Eyni zamanda, tələbələrin imtahan verməsi və informasiya-kommunikasiya texnologiyaları üzrə bacarıqlarını inkişaf etdirməsi üçün 62 monoblokdan ibarət 3 İnformasiya-Kommunikasiya Texnologiyaları otağı fəaliyyət göstərir. Hər bir auditoriya müasir kompüterlərlə təchiz edilib və bu otaqlarda İKT və xarici dil dərslərinin tədrisi nəzərdə tutulmuşdur. Bu tədris otaqları, tələbələrə nəzəri biliklərini inkişaf etdirərkən, eyni zamanda informasiya texnologiyaları və xarici dil biliklərini praktiki şəkildə artırmağa imkan yaradır.

Bundan əlavə, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına (UNDP) təqdim edilmiş təkliflər çərçivəsində kollecin ümumi istilik sistemi, kanalizasiya xətləri və qazanxanasında cari təmir işlərinin aparılması ilə bağlı təkliflər irəli sürülmüşdür. Təkliflərin icrası nəticəsində müvafiq təmir işləri həyata keçirilmiş və bu məqsədlə 59 adda müxtəlif materialdan (müxtəlif növ ventillər, radiator vannaları, kanalizasiya sifon və boruları, kontaktorlar, dövriyyə nasosları və s.) istifadə olunmuşdur.

DTA və Azərbaycandakı digər mənbələr hesabına qrant və ya maddi yardım almaq məqsədilə kollecin əməkdaşları tərəfindən layihələr hazırlanaraq müvafiq qurumlara göndərilmişdir. Lakin bu müraciətlər üzrə hər hansı maddi yardım əldə olunmamışdır.

| **Strateji sahə 6** | **Kollecin maliyyə resurslarının artırılması** |
|---|---|
| **Hədəf 6.3.** | Tələbələrin illik təhsil haqlarının artırılması |

Mingəçevir Turizm Kollecinin bir neçə istiqamətdə inkişafına mane olan əsas problemlərdən biri maliyyə çətinlikləridir. Bu vəziyyətin yaranmasının başlıca səbəbi kollecin təşkilati-hüquqi formasına görə büdcə hesablı təşkilat olması və əsasən dövlət büdcəsi hesabına maliyyələşdirilməsidir. Büdcə hesablı təşkilat statusu kolleci maliyyə vəsaitlərinin cəlb edilməsi zərurətindən azad etsə də, vəsaitlərin idarə olunmasının mürəkkəbliyi və əlavə maliyyə mənbələrinə əlçatanlığın məhdud olması kimi çətinliklər yaradır.

Əməkhaqqının hesablanması Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 154-cü maddəsinə uyğun olaraq, işçinin əmək müqaviləsi ilə müəyyən edilmiş iş vaxtı ərzində yerinə yetirdiyi əmək funksiyasına görə həyata keçirilir və əməkhaqqına əsas məbləğlə yanaşı əlavələr, mükafatlar və digər ödənişlər də daxildir. Əməkhaqlarının ödənilməsi büdcə və büdcədənkənar vəsaitlər hesabına Azərbaycan Respublikası Maliyyə

Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinin sistemi vasitəsilə təmin olunur. Bundan əlavə, mühasibatlıq tərəfindən "Əməkhaqqının hesablanması qaydaları", "Maliyyə şöbəsində ümumi prosedur qaydaları", eləcə də "Təqaüdlərin hesablanması, təqaüd kartlarının sifariş edilməsi və ödənişlərin icra edilməsi qaydaları" tərtib edilərək icra olunur.

Mingəçevir Turizm Kollecinə maliyyə vəsaitləri əsasən iki mənbədən daxil olur. Əməkhaqlarının ödənilməsi büdcə və büdcədənkənar vəsaitlər hesabına formalaşır və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi vasitəsilə həyata keçirilir. Büdcədənkənar vəsaitlər isə əsasən ödənişli təhsil alan tələbələrin təhsil haqlarından əldə olunan gəlirlər hesabına formalaşır.

Tələbələrin illik təhsil haqlarının artırılması 2021–2025-ci illəri əhatə edən strateji inkişaf dövründə kollecin maliyyə dayanıqlığının gücləndirilməsi və davamlı inkişafının təmin edilməsi baxımından əsas istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Kollecin maliyyə resurslarının artırılması və gələcək inkişafının təmin edilməsi məqsədilə Mingəçevir Turizm Kollecinin tələbə qəbul planı hər tədris ilinin əvvəlində hazırlanır və Dövlət Turizm Agentliyi ilə razılaşdırılır.

Kollecdə 2020/2021-ci, 2022/2023-cü və 2025/2026-cı tədris illərində maliyyə imkanları, ixtisaslar üzrə qəbul planında nəzərdə tutulan tələbə kontingenti və statistik göstəricilər nəzərə alınmaqla təhsil haqlarında fərqli məbləğlərdə artımlar edilmişdir. Həmin artımlar müvafiq tədris illəri üzrə təhsil haqlarını əks etdirən Cədvəl10-da təqdim olunmuşdur.

**Cədvəl-11**

| s/s | İxtisas | 2020/ 2021 | 2021/ 2022 | 2022/ 2023 | 2023/ 2024 | 2024/ 2025 | 2025/ 2026 |
|---|---|---|---|---|---|---|---|
| 1 | **Nəqliyyatın logistikası** | 550 | 550 | 850 | 850 | 850 | 1100 |
| 2 | **Mühasibat uçotu** | 550 | 550 | 850 | 850 | 850 | 1100 |
| 3 | **Maliyyə işi** | 550 | 550 | 850 | 850 | 850 | 1100 |
| 4 | **Turizm işinin təşkili** | 550 | 550 | 750 | 750 | 750 | 1000 |
| 5 | **Turizm bələdçiliyi** | 550 | 550 | 700 | 700 | 700 | 900 |
| 6 | **İaşə müəssisələrinin servisi** | 550 | 550 | 700 | 700 | 700 | 1000 |
| 7 | **Mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi** | 550 | 550 | 750 | 750 | 750 | 900 |
| 5 | **Rekreasiya, idman və sağlamlıq turizmi** | 550 | 550 | 700 | 700 | 700 | 900 |
| 9 | **Aqroturizm** | 550 | 550 | 700 | 700 | 700 | 900 |
| 10 | **Muzey işi və abidələrin qorunması** | 550 | 550 | 700 | 700 | 700 | 900 |

Təhsil haqlarının artırılması ilə bağlı hazırlanmış təkliflər isə hər tədris ilinin əvvəlində Elm və Təhsil Nazirliyinə təqdim edilir.

Təhsil sahəsində xərclərin artması, tədris infrastrukturunun yenilənməsi, rəqəmsal texnologiyaların tətbiqi və insan resurslarının inkişafı əlavə maliyyə vəsaitlərinə olan tələbatı artırır. Bu səbəbdən təhsil haqlarının mərhələli və əsaslandırılmış şəkildə artırılması kollecin maliyyə imkanlarının genişləndirilməsinə və büdcədənkənar gəlirlərin artırılmasına xidmət edir.

| Strateji sahə 7. | Karyera və İnkişaf mərkəzinin yaradılması üzrə hədəflər |
|---|---|
| **Hədəf 7.1.** | Karyera və inkişaf mərkəzinin fəaliyyətə başlaması |

Mingəçevir Turizm Kollecinin Karyera və Kommunikasiya Şöbəsi 1 oktyabar 2022-ci ildə kollecin nəzdində müstəqil struktur vahidi kimi ictimai əsaslarla yaradılmış və həmin tarixdən fəaliyyətə başlamışdır. Şöbədə fəaliyyət istiqamətlərinə uyğun təcrübəyə malik əməkdaşlar cəlb edilmişdir. Şöbənin fəaliyyəti Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə, Mingəçevir Turizm Kollecinin Nizamnaməsinə və Karyera və Kommunikasiya Şöbəsinin Əsasnaməsinə əsasən həyata keçirilmişdir.
https://mtk.az/wp-content/uploads/2025/02/MTK.Karyera-v%C9%99-Kommunikasiya-Sob%C9%99sinin-ESASNAMESI.pdf
https://mtk.az/wp-content/uploads/2025/02/Karyera-v%C9%99-kommunikasiya-sob%C9%99sinin-2022-2023-cu-t%C9%99dris-ili-ucun-IS-PLANI.pdf

Şöbə hər tədris ili üçün təsdiq edilmiş iş planına əsasən müxtəlif təlim və tədbirlər təşkil etmişdir. Bu tədbirlərə əmək yarmarkaları, maarifləndirici tədbirlər, tələbə və məzunlar üçün karyera yönümlü təlimlər, ekskursiyalar, müəssisələrə səfərlər, sənaye nümayəndələri ilə görüşlər, tələbələrin peşəkar və fərdi inkişafını dəstəkləyən seminarlar və könüllülük fəaliyyətlərinin təşviqi daxil olmuşdur.

Bununla yanaşı, konfranslar, elmi seminarlar, simpoziumlar, turnirlər, olimpiadalar, tanınmış şəxslərlə görüşlər, eləcə də sənaye müəssisələri ilə əməkdaşlıq müqavilələrinin və anlaşma memorandumlarının imzalanması kimi yeni tədbirlər də həyata keçirilmişdir.

Karyera və Kommunikasiya Şöbəsinin təşkilatçılığı ilə “Qoruqlar və muzeylərdə təhlükəsizlik qaydaları” mövzusunda təlim keçirilmişdir. Təlimdə “Beşbarmaq dağı” Dövlət Tarix, Mədəniyyət və Təbiət Qoruğunun əməkdaşı Anar İbrahimov iştirak etmiş və tələbələrə mövzu üzrə maarifləndirici məlumatlar vermişdir.
https://mtk.az/?s=%22Qoruqlar+v%C9%99+muzeyl%C9%99rd%C9%99+

Kollecin təbliğat qrupu tərəfindən gələcək potensial tələbələrlə görüşlər təşkil olunmuşdur. Bu görüşlər zamanı kollecin təhsil imkanları və tədris proqramları təqdim edilmişdir. Karyera və Kommunikasiya Şöbəsinin iş planına uyğun olaraq Kürdəmir, Zərdab, Göyçay, Gəncə və Ucar şəhərlərində yerləşən ümumtəhsil məktəblərində ümumilikdə 1800-dən çox şagirdlə görüşlər keçirilmişdir.
https://mtk.az/ming%c9%99cevir-turizm-kollecinin-bir-sira-%c9%99m%c9%99kdasi-g%c9%99l%c9%99c%c9%99yin-potensialli-t%c9%99l%c9%99b%c9%99l%c9%99ri-il%c9%99-gorus-h%c9%99yata-kecirib/

14 Aprel 2022-ci il tarixində Mingəçevir Turizm Kollecində “Bədən dili və ünsiyyət bacarıqları” adlı təlim keçirilib.
https://mtk.az/14-aprel-2022-ci-il-tarixind%c9%99-ming%c9%99cevir-turizm-kollecind%c9%99-b%c9%99d%c9%99n-dili-v%c9%99-unsiyy%c9%99t-bacariqlari-adli-t%c9%99lim-kecirilib/

Eyni zamanda, Karyera və Kommunikasiya Şöbəsi tərəfindən “Əmək bazarının araşdırılması” mövzusunda təlim təşkil edilmişdir. Təlimçi İsmayıl Rəsulzadə əmək bazarının xüsusiyyətləri, sərt və yumşaq bacarıqlar, eləcə də məşğulluq imkanları barədə tələbələrə məlumat vermişdir. Təlim interaktiv şəkildə keçirilmiş və tələbələrin sualları cavablandırılmışdır.

Kollecin tədbirlər planına əsasən şöbənin əməkdaşı Şahlar Mirzalıyev tərəfindən

“Layihələrin yazılması və idarə edilməsi” mövzusunda təlimlər keçirilmişdir. Bu təlimlər tələbələrin praktiki bilik və bacarıqlarının artırılmasına yönəlmişdir.
https://mtk.az/?s=%C5%9Eahlar+Mirzal%C4%B1yev

2024-cü ildə Mingəçevir Turizm Kollecinin Karyera və Kommunikasiya Şöbəsinin fəaliyyəti dayandırılmışdır. Aparılmış təhlillər nəticəsində müəyyən edilmişdir ki, “**Vahid Tarif-İxtisas Sorğu Kitabçası”** (əmək sorğu kitabında) sözügedən şöbənin idarəetmə strukturu daxilində rəsmi şəkildə təsbit olunmaması, habelə müvafiq normativ sənədlərdə şöbə üzrə ştat vahidlərinin nəzərdə tutulmaması bu qərarın qəbul edilməsində əsas amil olmuşdur.

Mövcud hüquqi və inzibati məhdudiyyətlər səbəbindən Karyera və Kommunikasiya Şöbəsi üzrə yeni ştat vahidlərinin açılmasına icazə verilməmiş, bu məqsədlə aidiyyəti dövlət və tənzimləyici qurumlara müvafiq müraciətlər edilsə də ştatın fəaliyyətinin davam etdirilməsinə müsbət rəy verilməmiş, nəticə etibarilə, idarəetmədə normativ uyğunluğun təmin edilməsi məqsədilə şöbənin fəaliyyəti dayandırılmış, onun funksiyaları isə müvəqqəti olaraq kollecin aidiyyəti struktur bölmələri arasında bölüşdürülmüşdür. Lakin yaxın gələcəkdə ictimai əsaslarla fəaliyyət göstərəcək Karyera Mərkəzinin yaradılması və fəaliyyətə başlaması nəzərdə tutulur.

## Strateji İnkişaf Planının Monitorinqi

Mingəçevir Turizm Kollecinin **2021–2025-ci illəri əhatə edən Strateji İnkişaf Planının icrası** üzrə aparılmış monitorinq və qiymətləndirmə nəticələri göstərir ki, Planın reallaşdırılması sistemli və məqsədyönlü şəkildə həyata keçirilmişdir. Monitorinq kollecin 09 aprel 2021-ci il tarixli, 27/k №-li əmri ilə yaradılmış komissiya tərəfindən təşkil olunmuş və Tədrisdə Keyfiyyətin Təminatı şöbəsinin iştirakı ilə icra edilmişdir.

“Komissiya”nın tərkibinə kollecin rəhbərliyini təmsil edən struktur bölmələrinin nümayəndələri – tədris işləri üzrə direktor müavini, Tədrisdə Keyfiyyətin Təminatı şöbə müdiri, tədris şöbəsinin müdiri və kollecin hüquqşünası daxil edilmişdir.

“Komissiya” Strateji İnkişaf Planında nəzərdə tutulmuş hədəflərə nail olunmasını təmin etmək məqsədilə **illik tədbirlər planı** hazırlamışdır. İllik tədbirlər plannında konkret tədbirlər, onların ardıcıllığı, icra müddətləri və icrasına məsul şəxslər müəyyən edilmişdir.

Qiymətləndirmənin nəticələrinə əsasən Strateji İnkişaf Planında nəzərdə tutulmuş **7 məqsəd, 20 hədəf və 60 fəaliyyətin 91,7%-i uğurla icra edilmiş**, **8.3%-i isə** obyektiv səbəblərdən tam şəkildə həyata keçirilə bilməmişdir

- **Fəaliyyət 1.1.1** – “2015–2020-ci illər ərzində Azərbaycanda turizm sənayesinin inkişaf dinamikası, trendləri və meyillərinin sistemli şəkildə araşdırılması və analitik hesabatın hazırlanması” fəaliyyəti müvafiq insan resurslarının və analitik məlumat bazasının kifayət qədər olmaması səbəbindən tam icra olunmamışdır. Bununla belə, yeni ixtisaslar üzrə işəgötürənlərlə aparılmış sorğular vasitəsilə qismən məlumatlar toplanmış və ilkin nəticələr əldə edilmişdir.
- **Fəaliyyət 1.3.1** – “Kollecin pedaqoji heyətinin attestasiyadan keçirilməsi” fəaliyyəti icra edilməmişdir. Buna səbəb “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa 12 iyun 2018-ci il tarixli, № 1189-VIQD nömrəli Qanunla edilmiş əlavəyə əsasən, müəllimlərin attestasiyası (sertifikatlaşdırılması) səlahiyyətinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə aid olmasıdır.
    - https://e-qanun.az/framework/18343

- **Fəaliyyət 1.5.1** "Türkiyə Respublikası, Kollecin əməkdaşlıq etdiyi xarici təhsil müəssisələri prioritet olmaqla ikili diplom proqramlarının qurulması istiqamətində işlərin görülməsi" – Türkiyə Respublikası və kollecin əməkdaşlıq etdiyi xarici təhsil müəssisələri ilə ikili diplom proqramlarının yaradılması istiqamətində nəzərdə tutulmuş fəaliyyət icra olunmamışdır. Buna səbəb müvafiq ixtisaslar üzrə tədris proqramlarının, peşə kvalifikasiyalarının və təhsil pillələrinin Azərbaycan Respublikasının qüvvədə olan təhsil standartları ilə tam uyğunluq təşkil etməməsi olmuşdur.
- **Fəaliyyət 2.2.2** – "Kollecin kitabxanasında tədris olunan ixtisaslar üzrə zəruri tədris vəsaitləri və elmi ədəbiyyat ehtiyacının müəyyənləşdirilməsi və təmin olunması" fəaliyyəti maliyyə vəsaitinin ayrılmaması səbəbindən icra edilməmişdir. Kitab fondunun yenilənməsi məsələsinin Kollecin yeni binası istifadəyə verildikdən sonra növbəti Strateji İnkişaf Planı çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur.
- **Fəaliyyət 3.3.1** "Kollecin Qəyyumluq Şurasının yaradılması və fəaliyyətinin təşkil edilməsi" istiqaməti üzrə fəaliyyətin adı dəyişdirilərək "Məşvərət Şurasının" yaradılması nəzərdə tutulmuş, struktur, fəaliyyət prinsipləri və idarəetmə prosedurları müəyyən edilmiş, lakin bəzi səbəblərdən Turizm Kolleci ilə Dövlət Turizm Agentliyi arasında razılaşmalar tamamlanmamış, Məşvərət Şurasının yaradılması prosesi gecikmişdir.

| **Planın icrasının qiymətləndirilməsi 10 ballıq şkala üzrə aşağıdakı meyarlarla aparılmışdır:** | | | |
|---|---|---|---|
| 1. | 10 bal | | Problem düzgün qoyulub, müəyyən edilmiş icra müddətində nəticəyə tam nail olunub; |
| 2. | 8-9 bal | | Məqsədə çatmaq üçün doğru yol seçilib, icra müddətinə əməl edilib, lakin nəticəyə tam deyil, əsasən nail olunub; |
| 3. | 6-7 bal | | İcra müddətinə düzgün əməl edilməyib, nəticəyə qismən nail olunub; |
| 4. | 4-5 bal | | Hədəfə çatmaq üçün optimal yol seçilməyib, icra qrafiki gözlənilməyib; |
| 5. | 3 bal | | Məqsədə nail olmaq istiqamətində yetərli fəaliyyət göstərilməyib, icra qrafiki ciddi şəkildə pozulub; |
| 6. | 1-2 bal | | Müəyyən edilmiş hədəf istiqamətində cüzi fəaliyyət göstərilib; |
| 7. | 0 bal | | Nəzərdə tutulmuş icra müddətində heç bir fəaliyyət göstərilməyib |

| Fəaliyyətin № | Fəaliyyətin adı | İcra vəziyyəti | Verilmiş bal | Qısa əsaslandırma |
|---|---|---|---|---|
| 1.1.1 | Turizm sənayesinin analitik araşdırılması | Qismən icra olunub | 6 | Məlumat bazası və insan resursları məhdud olmuşdur |
| 1.3.1 | Pedaqoji heyətin attestasiyası | İcra olunmayıb | 0 | Hüquqi səlahiyyət Nazirliyə aid olmuşdur |
| 1.5.1 | İkili diplom proqramlarının yaradılması | İcra olunmayıb | 0 | Təhsil standartlarının uyğunsuzluğu |
| 2.2.2 | Kitabxana fondunun yenilənməsi | İcra olunmayıb | 3 | Maliyyə vəsaitinin ayrılmaması |
| 3.3.1 | Qəyyumluq Şurasının yaradılması | Qismən icra olunub | 7 | Sənədlər hazırlanmış, razılaşmalar tamamlanmamışdır |

Strateji Planın icrası **10 ballıq şkala** üzrə qiymətləndirilmiş, aparılmış təhlillər nəticəsində Plan üzrə **orta bal göstəricisi 8,9 bal** təşkil etmişdir.

Bu göstərici Strateji İnkişaf Planının icrasının **"çox yaxşı"** səviyyədə olduğunu təsdiq edir və kollecin strateji hədəflərə nail olmaq istiqamətində düzgün idarəetmə və icra mexanizmləri formalaşdırdığını göstərir.

Aparılmış təhlillər əsasında belə nəticəyə gəlinmişdir ki, Strateji İnkişaf Planının icrası təhsilin keyfiyyətinin yüksəldilməsi, idarəetmənin təkmilləşdirilməsi və institusional inkişaf baxımından müsbət nəticələr vermişdir. Bununla yanaşı, 2026–2030-cu illəri əhatə edən növbəti Strateji İnkişaf Planında icra olunmamış fəaliyyətlərin reallaşdırılması, maliyyə və insan resurslarının gücləndirilməsi, eləcə də struktur bölmələrinin prosesə daha sistemli şəkildə cəlb olunması məqsədəuyğun hesab olunur.